# *İbtidai məktəb*
# *və*
# *məktəbəqədər*
# *tərbiyə*

1970-ci ildən çıxır

2005, № 2 (171)
aprel – may - iyun

# JURNAL

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı**

**2005**
**2**

## Bu nömrədə

**Kərimov Y.** Yeni dərs ilində nə kimi yeniliklər gözlənilir?.............................. 3

***Fənlərin tədrisi və qabaqcıl təcrübə***

**Məmmədova K.** Oxu dərslərində müstəqil işin təşkili vəziyyəti.................... 5
**Hüseynova N.** Oxu dərslərində ədəbi obrazlar üzərində iş.......................... 9
**Əşrəfov R.** Təbiətşünaslıq üzrə ümumiləşdirici dərslərin təşkili.................. 13
**Mustafayeva F.** Qeyri-standart mürəkkəb məsələlərin həllində qrafik təsvirlərdən istifadə.................................................................. 19
**Balakişiyeva L.** Təlim prosesində yaradıcı axtarışlar .......................... 22
**Əliyev A.** Kiçikyaşlı məktəblilərə informatika elementlərinin öyrədilməsi üzrə təcrübə.................................................................. 24
**Əliyeva Ç.** İnteqrasiyanın dərsin keyfiyyətinə təsiri............................... 31

***Müəllimin şəxsi təhsili***

**Kərimova Z.** Diyarşünaslıq işinin yaranması tarixindən............................ 34
**Kərimova E.** Nitq mədəniyyəti.................................................. 36

***Tərbiyə problemləri***

**Ağayeva E.** Şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirək................. 40
**Kərimova G.** Dərsdənkənar əmək tədbirlərindən istifadənin psixoloji məsələləri.. 45

***Məktəbəqədər təlim və tərbiyə***

**Cahangirova L.** Tərbiyəçilərin uşaqlara münasibət formaları....................... 48
**Balayeva X.** Dekorativ rəsm məşğələlərində müasir yanaşma........................ 51
**Rəhimova S.** Müasir təlim texnologiyaları və metodlarından istifadə olunmasına rəhbərlik.................................................................. 54
**Səlimova X.** Zolaqlarla işləmək üçün hazırlıq çalışmaları.......................... 59
**Abdullayeva Ş.** Məktəbəqədər müəssisələrin idman avadanlıqları və qurğuları.. 63

***Psixoloji məsələlər***

**Əliyeva R.** Şəxsiyyətyönümlü təhsil və onun psixoloji əsasları.................... 68
**Məmmədov İ.** Məktəbəqədər uşaq müəssisələrində psixoloji xidmət............ 72
**Məmmədəliyeva A.** Kiçikyaşlı məktəblildərin təlim fəaliyyətinin motivləşməsi psixolojiyanın aktual problemlərindən biri kimi................................ 78

***Pedaqoji nəzəriyyə***

**İsmixanov M.** Şagirdlərin müstəqil işi bilik və bacarıqların yoxlanması vasitəsi kimi.................................................................. 83

***Tədris materialının planlaşdırılması***

«Əlifba» və «Həyat bilgisi» üzrə proqram materialının bölgüsü.................. 90

***Uşaq yaradıcılığı***

**Pirməmmədov Ü.** Şeirlər: «Bahar», «Müəllimi», «Azərbaycan».................. 96

**Baş redaktor: Y.Ş.Kərimov**
Redaksiya heyəti: A.Muradov, N.Əliyeva, A.Həsənov, V.Xəlilov, N.Alnağıyeva, S.Həmidov, Ə.Hüseynov, L.Məmmədova, R.Süleymanova
Yığılmağa verilmiş: 01.05.2005. Çapa imzalanmış 30.06.2005
Kağız formatı: 70x100 1/16. Şərti çap vərəqi 6
Sifariş № 117 Tirajı 1000 . Qiyməti 10 000 manat.
Redaksiyanın ünvanı: 370010, Bakı, Azərbaycan prospekti, 40, Tel: 493-84-41.
«Nasir» nəşriyyatının mətbəəsində çap edilmişdir.
Ünvan: Bakı A.Tağızadə küçəsi. 17 Tel: 431-11-00

# YENİ DƏRS İLİNDƏ NƏ KİMİ YENİLİKLƏR GÖZLƏNİLİR?

prof. Y.Ş.Kərimov

Hər bir dərs ili istər-istəməz yaddaqalan yeniliklərlə əlamətdar olur. Təhsil islahatının həyata keçirildiyi hazırkı şəraitdə yeniləşmə təəccüb doğurmur.

Yeni dərs ilində ciddi dəyişiklik təlimin məzmununun yeniləşməsi, qaydaya salınması ilə bağlı olacaqdır. Bu isə məlumdur ki, bir nömrəli problemdir. Bu problem düzgün həll olunduqda təlim-tərbiyə prosesi sistemə düşür.

Yeni dərs ilində I siniflər yeni «Əlifba» dərsliyi ilə işləyəcək. Keçən il müxtəlif səbəblər üzündən nöqsanlı nəşr edilmiş dərslikdən fərqli olaraq bu il birincilərə məzmunu və bədii tərtibatı yeniləşmiş dərslik təqdim olunacaqdır. Dərslik «Pedaqogika» nəşriyyatı tərəfindən nəşrə hazırlanmış və Türkiyədə çap edilmişdir. Dərslikdə ilkin oxu texnikasının asanlaşdırılması nəzərdə tutulmuş, hecalar sadə sistemlə verilmişdir.

Yeni «Əlifba» dərsliyi «İş dəftərləri»nin (ABC) də yenidən tərtibi zərurətini irəli sürdü. Keçən dərs ilində birincilərə təqdim olunmuş iş dəftərlərindən istifadə etmək mümkün deyildi. Hərflərin düzülüşünün dərslikdəki ardıcıllığı ilə dəftərlərdəki ardıcıllığı uyğun gəlmirdi. Ümumiyyətlə, nəşriyyatın dəftərlərdə özbaşına apardıqları «düzəlişlər» təlim prosesində ciddi dolaşıqlıq yaratmışdı. Yeni dərslik və iş dəftərlərinin meydana çıxması bu dolaşıqlığa son qoyacaqdır.

Yeri gəlmişkən qeyd edək ki, məktəblərimizdə ənənə şəklini almış «Əlifba bayramı»nın keçirilmə vaxtının dəqiqləşdirilməsi üzərində düşünmək lazımdır. Tarixən bu bayram anlayışın mahiyyəti ilə bağlanır, əlifba təlimi başa çatan kimi keçirilirdi. Əvvəllər «Əlifba» dərsliyinin axırında «Əlifba bayramı» mətni də verilirdi. Müəllimlər mətnin təsiri ilə savad təliminin axırında onun başa çatmasını bildirən şənlik təşkil edirdilər. Uşaqlar hərfləri tanımaları, ilkin oxu vərdişinə yiyələnmələri ilə fəxr edirdilər. Əlifbanı öyrənməyin zövqi-səfasını duyurdular.

O zamanlar əlifbanın öyrədilməsi dekabrın axırında başa çatır, «Əlifba bayramı» yeni il şənlikləri dövrünə təsadüf edirdi. İndi isə əlifba təlimi ən tezi yanvar ayının axırınadək davam edir. Son 10-15 il ərzində bu bayram may ayında, əksər hallarda dərs ilinin axırında təşkil olunur. Bununla da uşaqlarda əlifbanı öyrənməyin əfsanəvi əhəmiyyətinə maraq azalır.

Yeni dərs ilində müəllimlərin qarşılaşacaqları yeniliklərdən biri də II sinif üçün ilk dəfə «Həyat bilgisi» dərs vəsaitinin çapdan çıxmasıdır. Hələlik dərs planında «Ana dili» fənninin tərkibində nəzərdə tutulmuş bu fənn böyük əhəmiyyətə malikdir. İkincilərə təqdim olunan yeni vəsait üzrə ətraf aləmlə tanışlıq prosesində «Oxu» dərsliyindəki müvafiq materialla inteqrasiya nəzərə alınmalıdır. «Həyat bilgisi» dərs vəsaitində verilmiş sistemin həyata keçirilməsi təmin edilməlidir.

II sinif üçün «Həyat bilgisi» dərs vəsaitinin tətbiqi ana dilindən həftəlik saatların planlaşdırılmasında əsaslı dəyişikliyin olacağını xəbər verir. Deməli, keçən dərs ilində müəllimlərə təqdim olunmuş planlaşdırma və metodik göstərişlər qüvvədən düşür. Yeni məzmun yeni metodikaya istinad etməlidir.

Yeni dərs ilində estetik tərbiyəyə xidmət edən fənlərin tədrisinə diqqət artırılmalıdır. 20-30 illik fasilədən sonra ibtidai siniflərdə musiqi və təsviri incəsənətin dərslik üzrə tədrisi məqsədə uyğun hesab edilmişdir. Yeni dərs ilində I və IV siniflər üçün «Musiqi» (müəllifi O.Rəcəbov və b.), I sinif üçün «Təsviri incəsənət» (müəllifləri Y.Cəlilova və M.Əzimova) dərslikləri çap olunur. Varisliyi, ümumi sistemi gözləmək mümkün olmasa da, III sinif şagirdlərinə «Təsviri incəsənət» dərsliyinin (V.Xəlilov, H.Ələkbərov) təqdim olunması da təqdirə layiq haldır. Dərsliklər həmin fənlərin sistemlə, elmi əsaslar üzrə tədrisinə imkan verəcəkdir. Şagirdlərin estetik tərbiyəsinə xidmət edən bu dərsliklərlə işləmək dərs ili başlananadək müəllimlərdən öz nəzəri və praktik hazırlıqlarını bir daha sınaqdan keçirmək, səmərəli iş görmək üçün axtarışlar aparmağı tələb edir.

Dərs ili başlananadək, şübhəsiz, bütün dərsliklərə metodik rəhbərliklər çap olunacaqdır.

Yeni dərs ilində respublikamızda təlim gürcü dilində olan həmçinin Gürcüstandakı təlim Azərbaycan dilində olan məktəblərin I siniflərinə adaptə olunmuş «Əlifba» və «Riyaziyyat» dərslikləri təqdim ediləcəkdir. Müəllimlər, məktəb rəhbərləri həmin dərsliklərlə işləyərkən hər iki dövlətin qanunlarına, normativ sənədlərə hörmətlə yanaşılması, uşaq və valideynlərin arzu və istəklərini nəzərə alınması, milli mənafelərin gözlənməsi vacibdir.

Qarşıdakı dərs ilində baş verəcək bu yeniliklər müəllimləri yeni axtarışlara, sözün əsil mənasında elmi-tədqiqat aparmağa sövq edəcəkdir. Hər bir müəllim tədrisə başlamazdan əvvəl yeni dərsliklərlə tanış olmalı, onları təhlil etməli, onlarla işləməyin yolları üzərində düşünməlidir.

Bu axtarışların nəticəsi dərsliklərin təkmilləşməsinə, təlimin məzmununun günün tələblərinə cavab verməsinə xidmət etməlidir.

# OXU DƏRSLƏRİNDƏ MÜSTƏQİL İŞİN TƏŞKİLİ VƏZİYYƏTİ

**Məmmədova Könül,**
pedaqoji elmlər namizədi

Elmi məlumatların sürətlə genişlənməsi ilə xarakterizə olunan müasir dövrdə şagirdlərdən müstəqil fəaliyyət göstərmək, gücləri çatan məlumatlara müəllimin köməyi olmadan yiyələnmək tələb edilir. Müəllim şagirdlərin idrak fəaliyyətinin fəallaşdırılmasına və dərsdə onların müstəqil işinin təşkilinə son dərəcə böyük diqqət yetirməlidir.

Müstəqil işlərin səmərəli, təşkilinin özünəməxsus qanunauyğunluqları var. İdrak prosesinə xas olan bu qanunauyğunluqlar təlim prosesində də müşahidə edilir. Qabaqcıl müəllimlər oxu dərslərində şagirdlərin müstəqil fəaliyyətinin inkişafı üçün lazımi şərait yaradır, bu işin səmərəli təşkili məqsədilə yeni priyomlardan istifadə edirlər. Təlimdə şagird müəllimin rəhbərliyi altında biliksizlikdən bilikliliyə, dəqiq olmayan biliklərdən dəqiq biliklərə doğru gedir. Şagirdin bir dərsdə əldə etdiyi bilik onun üçün müstəqil bilikdir. Sonrakı dərslərdə onun biliyi dəyişir, nisbi həqiqətə çevrilir, lakin yeni biliyi mənimsədikdə şagirdin əvvəlki biliyi yox olub getmir, mütləq həqiqət kimi yeni biliyin tərkib hissəsinə çevrilir. Beləliklə, bu məqsədin tətbiqində müstəqil işlər zamanı nəzərdə tutulmuş materialın ardıcıl, əlaqəli tədrisi unudulmamalıdır. Şagirdlərin oxu dərslərində fəal və yaradıcı iştirakını təmin etmək üçün qabaqcıl müəllimlərimiz evristik müsahibəyə geniş yer verirlər, çünki evristik müsahibə prosesində əlavə suallar vasitəsilə problem qoymaq, problemin həlli üçün yollar araşdırmaq, bu yollardan birinin köməyi ilə problemi həll etmək və nəticə çıxarmaq mümkün olur. Burada evristik müsahibənin əsas vəzifəsi axtarış yolunu müəyyənləşdirməkdən, bu yolun həqiqiliyini sübut etməkdən, onun nümunəsini verməkdən, şagirdləri axtarışa sövq etdirməkdən və onları sistemli mühakimələr yürütməyə alışdırmaqdan ibarətdir. Şagirdlərə suallar verməklə keçən dərsdə müəyyən hadisələri müşahidə etdirmək əsasında yeni biliklər sual-cavabla şagirdlərin özlərinə «tapdırılır» və yekunlaşdırılır.

İzahlı oxu dərslərində şagirdlərə verilən biliklər praktik məsələləri mənimsəmək tələbini ödəməli və nəzəriyyə ilə praktika arasında zəruri olan qarşılıqlı əlaqə haqqında onlarda möhkəm təsəvvür yaratmalıdır.

Təcrübə göstərir ki, müəllimlərin bir çoxu dərsdə daha çox özləri fəal olmağa çalışır, mətnin məzmununu nəql edir, ən yaxşı halda, ətraflı müsahibəyə üstünlük verirlər. Çox vaxt müsahibə metodunu inkişafetdirici metod hesab edir və dərsdə ona üstünlük verirlər. Belələri unudurlar ki, hər hansı müsahibə inkişafetdirici əhəmiyyət daşımır. Müəllimin sualları çox vaxt

dərslikdə mətnlə əlaqədar verilmiş suallardan kənara çıxır. Bu, bir çox hallarda dərsin daha maraqlı keçməsini, şagirdlərin idrak fəaliyyətinin fəallaşmasını, mövzu ilə əlaqədar biliklərinin aşkar çıxarılmasını və daha da zənginləşdirilməsini təmin edir. Bəzi müəllimlərin sinifdə sual-cavab çox sxematik şəkil alır.

Şagird müəllimin sualına məlum, asan, əzbərlənmiş məsələlərə istinadən cavab verir.

İbtidai siniflərdə oxunun tədrisi mahiyyət etibarilə şagirdlərin düzgün və ifadəli oxumalarını, onların nitqinin məzmunlu olmasını və lüğət ehtiyatının zənginləşdirilməsini təmin edən mühüm məsələlərdən biridir. Oxu dərslərində müəllimin düzgün, ifadəli oxuması şagirdləri mütaliəyə həvəsləndirir, onların bədii zövqünü inkişaf etdirir və düzgün oxu texnikasına yiyələnmələrinə müsbət təsir göstərir, lakin çox zaman şagirdlər oxuyarkən eşitdikləri sözləri təsəvvürlərində canlandırmaqda çətinlik çəkirlər. Buna görə də oxu dərslərində oxunan ifadələrin, sözlərin mənasını, onları fərqləndirməyi şagirdlərə düzgün öyrətməyə müəllim ciddi səy göstərməlidir. Oxu dərslərində yeni biliyin şagirdlər tərəfindən şüurlu sürətdə mənimsənilməsində materialın sadəcə olaraq öyrədilməsi kifayət deyil. Bunun üçün materialın hafizədə möhkəmləndirilməsi də tələb olunur. Bu məsələnin həllində ev tapşırıqlarının verilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bəzən yeni materialın çətin olması geniş izahat tələb etdiyi üçün müəllim onu hərtərəfli əhatə edə bilmir, materialın əsas nisbətən çətin hissələrini izah etməklə kifayətlənir. Şagirdlərin bir qismi müəllimin izah etdiyi yeni materialı lazımi səviyyədə mənimsəmir, evdə kitab üzərində ciddi işləməyə ehtiyac hiss edir. Bu isə ev tapşırığı vasitəsilə həyata keçirilir. Şagirdlər müstəqil çalışma bacarığına yiyələndikdə başqasının köməyi olmadan qarşısına qoyduğu suala tez cavab tapır.

Mövcud metodik ədəbiyyatda ev tapşırıqları şifahi, yazılı və praktik olmaqla üç növə ayrılır. Oxunun tədrisi zamanı şifahi və yazılı tapşırıq növlərindən istifadə olunmasını münasib hesab etmək olar. Şifahi tapşırıqların verilməsi yeni sözlərin, terminlərin şagirdlərin lüğət ehtiyatına daxil olmasını və nitq mədəniyyətinin inkişafını təmin edir.

Oxu dərslərində ev tapşırıqları verərkən şagirdlərin yaş və bilik səviyyələrini nəzərə almaq lazımdır, çünki, ev tapşırıqları həcmcə çox və mürəkkəb olduqda şagird çətinlik çəkir. Ev tapşırıqlarının müstəqil şəkildə yerinə yetirilməsi şagirdlərdə həm təlimə maraq oyadır, həm də onlarda müsbət iradi keyfiyyətlərin tərbiyə olunmasına kömək göstərir.

Apardığımız müşahidələr göstərdi ki, bəzi müəllimlər oxuya aid mətnləri tədris edərkən evə tapşırıq verdikdə pedaqoji tələblərə riayət etmirlər. Mətnin xarakterindən asılı olaraq ev tapşırıqları verilərkən tapşırığın icrasını təmin edəcək tələblərə əməl olunur metodik fayda gözlənilmir.

Müəllimlərin əksəriyyəti diqqəti yalnız yeni biliyin möhkəmləndirilməsinə verir. Bu, müəllimin təcrübəsizliyi üzündən irəli gəlir. Bu prosesdə ən həlledici məqamlardan biri odur ki, müəllim tapşırığı verərkən məqsəd aydınlığına xüsusi diqqət yetirməlidir, çünki tapşırığın məqsədi aydın olmadıqda şagird tələb olunan suallara cavab verməkdə çətinlik çəkir: məsələn, müəlim şagirdə yalnız şeri əzbərləməyi və məzmununu nəql etməyi tapşırır. Yaxşı olar ki, əsas məsələnin aşkar edilməsi, qiymətləndirilməsi qaydası başa salınsın.

Qabaqcıl müəllimlər yeni mövzunu sinifdəcə əsaslı şəkildə şagirdlərə mənimsətməyə çalışır, evə mümkün qədər az tapşırıq verirlər. Bu tapşırıqlar şagirddən müşahidə aparmağı, əvvəllər əldə edilmiş bilikləri sistemə salmağı, müəyyən məsələyə dair cavab hazırlamağı və s. tələb edir.

Deməli, şagirdlərin müstəqil fəaliyyəti bir çox hallarda müəllimin bu sahədə işi necə təşkil etməsindən asılı olur. Bəzi müəllimlər şagirdlərin müstəqil işlərini təşkil edərkən qarşılarına aşağıdakı vəzifələri qoyurlar:

1) hadisələrin, anlayışların formalaşmasında şagirdlərin idrak fəaliyyətinə lazımi istiqamət vermək;

2) şagirdləri dərsdə fəallaşdırmaq və onlarda təlim əməyinə məhəbbət, iradə möhkəmliyi və məqsəd aydınlığı tərbiyə etmək;

3) şagirdlərin bacarığının və fərdi yaradıcılıq qabiliyyətinin inkişafına kömək göstərmək.

Bu məqsədlə verilən tapşırıqlar şagirdlərin təlimə marağını, yaradıcılıq həvəsini artırır.

Oxu dərslərində müstəqil tapşırıqların ən sadə növlərindən biri öyrənilən materialda əsas məsələni, onun məgzini tapmağı tapşırmaqdır: məsələn, II siniflər üçün «Oxu» dərsliyindən Ə. Naxçıvanlının «Şəhidlər xiyabanı» şeri oxunarkən şagirdlərə «1990-cı il yanvarın 20-də hansı hadisə baş vermişdir?», «Bu hadisəni kimlər və nə məqsədlə törətmişlər?», «Siz Şəhidlər xiyabanında olmusunuzmu?», «Şair nə üçün «Şəhidlər xiyabanı»nı Məmmədəmin amalına, Əhməd Cavad şerinə bənzədir?» və s. kimi suallarla müraciət etmək lazımdır ki, onları müstəqil düşünməyə təhrik etmək mümkün olsun.

Belə sualların köməyi ilə şagirdlər əsərin ideyasını müəyyənləşdirir və qısaca ifadə edirlər. Dərs ilinin axırına yaxın isə əsərin ideyasını tapmaq tapşırığı xeyli mürəkkəbləşdirir. Şagirdlər artıq bir mövzu ətrafında deyil, müxtəlif mövzuların oxşar və fərqli cəhətlərini, həmin mövzularda təsvir olunan surətləri müqayisə etməyi bacarmalıdırlar. Bu proses, onları mühakimə yürütməyə sövq edər, müstəqil işə alışdırar.

İzahlı oxu dərslərində müstəqil işin təşkili üçün tapşırıqlar frontal, qruplar üzrə və fərdi verilə bilər. İkinci növ üzrə iş aparılarkən şagirdlər qruplara bölünür, hər qrupa ayrı-ayrı tapşırıq verilir. Fərdi tapşırıqlar isə belə ola bilər:

1) Mətndəki mühüm fakt və hadisənin təsvirini ver.

2) Mətndə əşyaların ümumiləşdirilməsi və əlaqəsi haqqında danış.

3) Mətndə iki əşyanın oxşar və fərqli cəhətini müəyyənləşdir.

4) Mətndə iştirak edən surətlərin hərəkətlərini düzgün qiymətləndir.

5) Mətndə təbiət təsvirinin verildiyi yeri tapıb oxu.

6) Oxuduğun mövzuya uyğun material seç.

7) Mətnin əsas ideyasını, məzmununu dəyişdirmədən yığcam nəql et.

8) Mətni səssiz oxu. Ayrı-ayrı sözlərin tələffüzünü öyrənmək və rollar üzrə oxumaq üçün hazırlaş.

9) Oxunmuş mətnə aid kiçik bir hekayə fikirləş.

10) Mətndə baş vermiş hadisənin səbəbini tap və s.

Bu tapşırıqların tətbiqində şagirdlərin hazırlığı nəzərə alınmalıdır.

Artıq mövcüd olan biliklər zəminində yeni biliklərə tələbatın yaranması çox mühümdür. Başlıca məsələ odur ki, şagirdlər bu biliklərin əhəmiyyətini başa düşsünlər, onlara yiyələnərkən idrak çətinlikləri ilə qarşılaşsınlar və bu çətinlikləri aradan qaldırmağa hazır olsunlar. Bunlar isə problem situasiya yaradılmaqla dərsin gedişində şagirdlərin idrak axtarışlarının təşkili ilə, onların fəaliyyətinin qüvvətlənməsinə kömək göstərən müxtəlif məntiqi tapşırıqların verilməsi ilə əldə edilir.

Qabaqcıl müəllimlərin təcrübəsi təsdiq edir ki, dərsdə biliyin müntəzəm və düzgün qiymətləndirilməsi yeni materialın şagirdlər tərəfindən daha yaxşı mənimsənilməsinə kömək edir və nəticədə ev tapşırıqlarının yerinə yetirilməsini asanlaşdırır. Məktəblərimizin bir çoxunda yeni materialın möhkəmləndirilməsi üzrə iş yaxşı getmir. Belə ki, bu iş yenicə eşidilmiş materialın məzmununun bir neçə şagird tərəfindən sadəcə nəql edilməsi ilə məhdudlaşır. Bir çox hallarda formal xarakter daşıyan bu işi şagirdlərin müstəqil işləri ilə əlaqələndirmirlər.

Yeni materialın öyrənilməsi üzrə işin gedişində və ya dərsin sonunda müşahidə apararkən şagirdlərdən əsərin məzmununu sadəcə olaraq təkrarlamağı tələb etmək mənasızdır. Bu, mexaniki yaddaşın təmrinlərinə çevrilməklə şagirdlərin təfəkkürünün fəallaşdırılmasını ləngidə bilər. Doğrudur, bəzi hallarda buna yol vermək faydalı olur, lakin bu zaman mətnin məzmununu bütünlüklə deyil, yalnız onun ən mühüm, ən başlıca məsələlərini əhatə etmək tələb olunmalıdır.

Müəllimin aydın məqsədli fəaliyyəti nəticəsində şagirdlər yeni materialı, əsasən, sinifdə mənimsəyirlər. Bu, şagirdlərin ev tapşırığını azaltsa, yüngülləşdirsə də, heç də onu bütünlüklə əvəz edə bilməz. Ev tapşırığının xüsusi məqsədi və vəzifəsi olur.

Proqram və dərslikdə göstərildiyi kimi, müəllim tədris zamanı şagirdlərin qarşısında birdən-birə yaxşı nəql etmək, düzgün danışmaq tələbi qoymalıdır. Əvvəlcə nəqletmənin ən asan formasından dərslikdə verilən suallara cavabdan, yaxud müəllimin və şagirdlərin müstəqil tərtib etdikləri plan üzrə, danışmaqdan istifadə etmək məsləhət görülür. Nəqletmənin bu növü üzrə işi belə təşkil etmək faydalıdır.

Seçmə nəqletmə mühüm əhəmiyyətə malikdir. Nəqletmənin bu növündə şagird mətnin bütünlükdə məzmununu deyil, onun bu və ya digər hissəsini müstəqil seçib danışmalı olur. Seçmə nəqletmə şagirdlərin plan tərtibi üzrə qazandıqları vərdişlərini inkişaf etdirir. Nəqletmə üzrə iş plan üzrə işlə sıx əlaqədardır. Bir çox hallarda şagirdlər plan üzrə nəql edirlər. Plan tutma bacarığı mətnin məzmununun müfəssəl, ardıcıl nəql olunmasını təmin etdiyi kimi yığcam və seçmə nəqletmə də şagirdlərin plan tutma sahəsində qazandıqları vərdişlərini inkişaf etdirir.

Seçmə nəqletmə II sinifdə geniş miqyasda tətbiq edilməlidir. Bu priyomun köməyi ilə nəqletmədə bir neçə şagird müstəqil işləyir, qalan şagirdlər isə həmin hissələrdən suallar hazırlayıb verirlər. Seçdiyi hissəni nəql edərkən müəllim ona başlıq verməyi, həmin hissədə xarakterik məsələni üzə çıxarmağı tələb etməli, hissəyə hansı şəkli çəkmək lazım olduğunu soruşmalıdır. Hissəni nəql edən şagird, öz həyat təcrübəsini də ona əlavə etməlidir. Belə tələblər şagirdləri müstəqil işləməyə alışdırır.

Müəllim suallar vasitəsilə həm şagirdlərin təlim materialını necə mənimsədiklərini yoxlayır, həm də onların biliklərini dərinləşdirir. Nəzərə almaq lazımdır ki, təfəkkürün özü sualla başlayır. Suala cavab axtarmaq prosesində hər bir şagirdin fikri fəaliyyəti və müstəqilliyi təzahür edir. Sual şagirdin fikri fəaliyyəti üçün siqnal vəzifəsini görür, onu səfərbər edir.

Göründüyü kimi, şagirdlərin müstəqil işlərini təşkil etmək üçün yol və vasitə çoxdur, lakin onların birdən-birə müstəqil işə alışdırmaq olmaz. Bunun üçün onların təfəkkürünü ardıcıl və sistemli şəkildə inkişaf etdirmək lazımdır.

## OXU DƏRSLƏRİNDƏ ƏDƏBİ OBRAZLAR ÜZƏRİNDƏ İŞ

**Nəzakət Hüseynova,**
Sabirabad şəhərindəki N.Z.Tağıyev adına 6 nömrəli orta məktəbinin müəllimi

Şəxsiyyətin humanizm ruhunda inkişafında həlledici rol oynayan fərdi xüsusiyyətlərin nəzərə alınması ən başlıca imkanlardan biri hesab olunur. Şagirdlərin fərdi xüsusiyyətlərini hərtərəfli öyrənmək müəllimin əlində, bir növ, kompas rolunu oynayır. Müəllim həmin kompas vasitəsilə asanlıqla şagirdlərin yaş və psixoloji xüsusiyyətlərini nəzərə ala bilir.

Kiçikyaşlı şagirdlərdə mənəvi saflıq tərbiyəsini formalaşdırmaqda oxu dərsliyinin rolu əvəzolunmazdır. Oxu dərslərində şagirdlərə elə anlayışlar verməyə çalışıram ki, onlar cəmiyyətimizin keçdiyi yolu, müasir həyatımızı aydın və dəqiq dərk etsinlər.

Oxu dərslərində yeri gəldikcə materialların rollar üzrə səhnələşdirilməsi gündəlik işimin əsasını təşkil edir. Ədəbi obrazın timsalında şagirdlərə torpağa və vətənə, ana dilinə məhəbbət hissi aşılamaq, Azərbaycanın ərazi

bütövlüyü, torpaqlarımızın toxunulmazlığı əleyhinə edilən hər hansı təcavüzə qarşı barışmazlıq, qətiyyətlik, müstəqillik, prisipiallıq, mərdlik, xeyirxahlıq, sadiqlik, doğruçuluq və s. kimi keyfiyyətləri hər gün formalaşdırmağa çalışıram.

Şagirdlərə əməkdaşlıq etmək bacarığını öyrətmək, müzakirə etmək, başqasını dinləyə bilmək mədəniyyətini, müqayisəli təhlil və ümumiləşdirmə aparmaq, nəticə çıxarmaq bacarığı və vərdişləri aşılayıram. Şagirdlərdə tənqidi təfəkkür, çətin vəziyyətdə ədalətli qərar vermək, onu müdafiə etmək və əsaslandırmaq keyfiyyətlərini formalaşdırmağa çalışıram. Onlarda valideynlərə, böyüklərə hörmət və ehtiram, kiçiklərə qayğı hissi, qonaqpərvərlik, doğma vətənimizin təbiətini sevmək, onu göz bəbəyi kimi qorumaq, düzlük, qətiyyətlilik, ədalətlilik, xeyirxahlıq kimi müsbət hisslərlə yanaşı, azğın düşmənə nifrət hissini gücləndirməyə də çalışıram.

Oxu dərslərində şagirdlərin şifahi nitqinin inkişafına xüsusi diqqət yetirirəm. Onların şifahi ədəbi nitqini inkişaf etdirmək məqsədilə obrazlı nitqə yiyələnmələrinə, öz fikrini müstəqil ifadə etmək bacarıq və vərdişlərini formalaşdırmağa səy göstərirəm. Bunun üçün oxu dərsliklərində kifayət qədər material var. Bu materiallar onların dünyagörüşünü, ümumi hazırlığını formalaşdırmaqla yanaşı, musiqi duymaq qabiliyyətlərini, estetik zövqlərini də inkişaf etdirir. Həmin materialları tədris edərkən uşaqları adillər və ədalətsizlik, yaxşılıq və pislik, hörmət və hörmətsizlik, doğruçuluq və yalançılıq, canıyananlıq və biganəlik, sadiqlik və satqınlıq və s. kimi insani xüsusiyyətlərlə tanış edir və mövzudan irəli gələn əxlaqi keyfiyyətləri aşılayıram.

İmkan daxilində mövzunu keçərkən rollar üzrə səhnələşdirirəm. Şagirdlər rolları ifa etdikcə həmin rolun xarakterini öyrənir, daxil aləmini duyur, hiss edir, bəzən həyatda təsadüf etmədiyi insan xüsusiyyətləri ilə qarşılaşırlar. Bu da onların bir insan kimi formalaşmalarına, mövzunun şüurlu qavranılmasına təkan verir. Mən də cərəyan edən hadisəni göz önünə gətirməyi tövsiyə edir, özlərini oradakı iştirakçılara bənzətmələrini məsləhət bilirəm. Çox vaxt uşaqlar rolları o qədər məharətlə ifa edirlər ki, həyatda rastlaşdıqları hadisələrin gedişinə həssaslıqla yanaşır və aludə olurlar. Mövzunun təsirindən asılı olaraq gözləri yaşaran, sevinən, əsəbləşən, obrazın halına acıyan da olur.

I sinifdə «Tıq-tıq xanım» nağılını obrazlı şəkildə nəql edir, sual-cavab aparmaqla mövzunu şagirdlərə mənimsədirəm.

- Çoban Tıq-tıq xanıma necə cavab verdi?
- Tülkü onu necə qarşıladı?
- Siçan haraya getdi?
- Uşaqlar, Tıq-tıq xanım nə üçün tək qaldı?
- O, nə etməli idi?
- Nağılda kim daha çox xoşunuza gəldi? Nə üçün?

Uşaqlar sualların köməyi ilə nağılı tamamlayırlar. Onlardan biri Tıq-tıq xanım, o biri çoban, biri tülkü, digəri siçan rolunu ifa edir. Onlar başa düşürlər ki, dostluq etmək istəyənlər bir-birinə hörmət etməli, kömək əlini uzatmalı, deyilən sözü eşitməlidirlər. Daha sonra onlar öz dostları ilə münasibətdən danışır, mövzuya aid şəkil çəkir, atalar sözləri şeirlər söyləyirlər.

Qeyd edim ki, interaktiv dərs zamanı sinif otağındakı partaları «kvadrat» şəklində düzürəm. Belə vəziyyətdə qarşılıqlı əməkdaşlıq, fəaliyyət, müzakirə etmək, başqasını dinləyə bilmək mədəniyyəti, müqayisəli təhlil yaranır. Onlara şərti adlar verirəm. Olduqca fəal keçən dərsin sonunda şagirdlərin biliyini qiymətləndirirəm.

Şeir və hekayələrin, nağılların oxusu zamanı şagirdlərdə əməyin rolu, insanların nailiyyətləri və sülh uğrunda mübarizəsi haqqında, «müstəqillik», «mərdlik», «yaxşılıq», «xeyirxahlıq», «təvazökarlıq» və s. kimi obrazlı təsəvvürlər yaranır. Çalışıram ki, şagirdlərim surətlərin ədəbi nümunəsi əsasında yaşıllığın, quşların, heyvanların dostlarına çevrilsinlər.

II sinifdə H.Ziyanın «Mənim babam» şerini keçəndə motivasiya yaradır, şeri nümunəvi oxuyuram. Sonra şagirdlər şeri rollar üzrə oxuyurlar. Bu zaman onlardan biri baba, o biri nəvə, digəri müəllimin rolunu ifa edir. Sonra qruplarla işə başlayıram. I qrup «Mənim babam» mövzusunda şəkillər çəkir, II qrup bu mövzuya yaxın olan başqa şeir parçaları söyləyir, mahnı oxuyurlar. III qrup kiçik bir inşa yazır, IV qrup meyvə ağaclarının şəkillərini çəkir, onların adlarını, əhəmiyyətini yazırlar. 4-5 dəqiqədən sonra onlar tədqiqatlarını tamamlayır, məlumatın müzakirəsi başlanır. Hər şey şagirdlərə aydınlaşır, hər qrup deyilənləri ümumiləşdirir və nəticə çıxarır:

İnsan yalnız əməklə ucalır, zəhmətsiz həyat ola bilməz.

Hamı torpağın qədrini bilməli, onu zibilləməməli, yararsız hala salmamalıdır. Torpaq yalnız bu gün deyil, sabah da, uzaq gələcəkdə də insan üçün, bütün varlıqlar üçün anadır.

III sinifdə «Cırcırama və qarışqa» təmsilini keçərkən motivasiya yaradır, problem qoyuram.

- İşgüzar, əməksevər, qənaətcil, ağıllı - ?
- Tənbəl, çiçəkdən-çiçəyə qonan, vaxtını boş keçirən, avara - ?

Yazı taxtasında iki vatman kağızı asılıb. Yazılmış sözlərin qarşısında düzbucaqlı çəkmiş və ? işarəsi qoymuşam. ? işarəsinin altında qarışqa və cırcırama haqqında şagirdlərin irəli sürdükləri müxtəlif fərziyyələrin cavabları yazılmışdır. Sonra təmsil əzbərdən söyləyir, ifadəli oxuyuram. Rollar üzrə bölgü aparıram. Şagirdlərdən biri cırcırama, o biri qarışqa, digəri isə müəllifin sözlərini oxuyurlar. Çətin sözlər üzrə iş aparır, şagirdlərlə lüğət üzrə iş aparıram, onların lüğət ehtiyatları da zənginləşir. Daha sonra qruplar fəaliyyətə başlayırlar. I qrup mövzunun məzmunu ilə bağlı atalar sözləri, tapmacalar, şeirlər fikirləşir. II qrup mövzuya aid kiçik bir inşa yazır, inşada ahəng qanununa tabe olan sözlərin altından xətt çəkir. II qrup faydalı və ziyanverici həşəratların adlarını, onların xeyri və zərəri haqqında

yazır. IV qrup isə «Cırcırama və qarışda» mövzusunda şəkil çəkirlər. Tədqiqatlar təqdim edildikdən sonra məlumatlar müzakirə olunur, onların oxşar və fərqli cəhətləri müəyyənləşdirilir. Sonra məlumatlar ümumiləşdirilir və nəticə çıxarılır.

- Cırcırama yayı necə keçirdi?
- Qışda o nə üçün ac qaldı?
- Qarışqa ona necə cavab verdi?
- Siz olsaydınız necə hərəkət edərsiniz?

IV sinifdə şagirdlərə «Qarğa və tülkü» təmsilini keçərkən motivasiya yaradır, problem qoyuram.

- Sizcə, insanda olan pis, xoşagəlməyən xasiyytlər hansılardır?
- Bəs insanda olan yaxşı xasiyyətlər hansılardır?
- Hansı xasiyyətlər insanı hörmətli, ləyaqətli edir, ucaldır?

Şagirdlər müxtəlif fərziyylər irəli sürürlər. Onların dediklərini yazı taxtasına yazır və fərziyyələrin düzgün olub-olmadığını yoxlamağı təklif edirəm.

| | | |
|---|---|---|
| axmaq | hiyləgər | ədalətli |
| kütbeyin | bic | qayğıkeş |
| tərifsevən | yaltaq | hörmətcil |
| lovğa | hər dona girən | qonaqpərvər |

Şagirdlərə təmsilin oxunma nümunəsini verirəm. Onlar təmsili rollar üzrə oxuyurlar. Uşaqlardan biri qarğanın, o biri tülkünün, digəri isə müəllifin rolunu ifa edir. Şagirdlər təmsili o qədər bacarıq və məharətlə ifa etmişdilər ki, uşaqlar mövzuya aludə olduqlarından, hətta, axmaq qarğanın halına acıyan, yaltaq tülküyə hirslənənlər də olmuşdu. Sonra qarğalar fəaliyyətə başlayırlar. «Göyərçin» qrupu meşə və ev heyvanlarının adlarını göstərir, faydası və zərərvericiliyi haqqında yazır. «Dostluq» qrupu «Qarğa və tülkü» mövzusunda şəkil çəkirlər. «Günəş» qrupu çöl və ev quşlarının adlarını, onların faydası və əhəmiyyəti haqqında yazır. «Sülh» qrupu isə mövzuya aid atalar sözləri, şeir parçaları söyləyir, kiçik bir inşa yazır, inşada ahəng qanununa tabe olmayan sözlərin altından xətt çəkirlər. Qruplar tədqiqat aparır, araşdırır, alınmış nəticələri tutuşdurur, oxşar və ya fərqli cəhətlərini müzakirə edirlər.

Alınan nəticələr ümumiləşdirilir:

- Qarğa nə üçün aldandı?
- Tülkü surətində siz hansı adamları təsəvvür edirsiniz?
- Qarğanın vəziyyətinə düşməmək üçün necə olmaq lazımdır?

Oxu dərslərində materiallardakı rolların bölgüsündən istifadə edərkən dərslərim çox fəal keçir. Şagirdlər bir sıra əxlaqi keyfiyyətlər barədə də təsəvvürə yiyələnirlər. Əxlaqi formalaşma ibtidai siniflərdə digər fənlərin-riyaziyyat, musiqi, təsviri incəsənət, fiziki tərbiyə və s. fənlərin tədrisi prosesində də davam edir: məsələn, musiqi və nəğmə dərslərində sülh və zəhmət haqqında nəğmənin məzmunu, bəstəkar haqqında söhbətlər uşaq şəxsiyyətinin inkişafında xüsusi rol oynayır.

Çalışıram ki, hər bir fənni tədris edərkən uşaqları maraqlandıran cəhətləri axtarıb tapım, əsl vətənpərvərlik, humanizm ruhunda tərbiyə edim, onlara Vətənə, torpağa, ana dilinə məhəbbət, düşmənə nifrət hissi aşılayım.

# TƏBİƏTŞÜNASLIQ ÜZRƏ ÜMUMİLƏŞDİRİCİ DƏRSLƏRİN TƏŞKİLİ

**Rüstəm Əşrəfov,**
Sumqayıt Dövlət Universitetinin müəllimi

Ümumiləşdirici dərslər qazanılmış biliklərin təkrarına, möhkəmləndirilməsinə, ümumiləşdirilməsinə, sistemə salınmasına, yoxlanılmasına və qiymətləndirilməsinə xidmət edir. Belə dərslərdə iki məsələyə diqqət yetirilməlidir.

a) Yeni bilik əldə etmək, köhnə bilkləri möhkəmləndirmək üçün şagirdlər hansı işləri görməlidirlər?

b) Əvvəlcədən hansı biliklərə malik olmalı və praktik işlərdə nələri tətbiq etməyi bacarmalıdırlar?

Ümumiləşdirici dərs, müəyyən bəhs başa çatdıqdan sonra aparılır. Belə ki, III sinfin «Təbiətşünaslıq» dərsliyində «Təbiətdə və insan həyatında su» bölməsi üzrə iş başa çatdıqdan sonra ümumiləşdirici dərsin mövzusu yazı taxtasından asılıb, məqsədi izah olundu. Dərsin quruluşu haqqında məlumat verildi. Qeyd olundu ki, stolların üzərində hər bir komandanın nömrəsi, adı yazılmış lövhəciklər var. Hər bir komanda üzvünün cavabı sonda qiymətləndirildi.

**I. Dərsin təşkili:**

1. Sinifdəki şagirdlər təxminən eyni güclü iki komandaya bölünür. (məsələn, «Şərq» komandası, «Şimal» komandası»).

2. Komandaların kapitanlarının seçilməsi (Bu iş şagirdlərin ixtiyarına verilir).

3. Münsiflər heyətinin (fənn müəllimi və hər komandadan bir nəfər) seçilməsi.

4. Bilik yarışının şərtlərinin elan olunması və cavablar üçün qiymətləndirmə qaydasının müəyyənləşdirilməsi.

**II. Dərsin gedişi (mərhələlər üzrə).**

**I mərhələ.** Bu mərhələdə «Təbiət və insan həyatında su» bölməsi ilə bağlı ayrı-ayrı mövzuların suallarına diqqət yetiriləcək, hər komandadan bir nəfər zərfin içərisindən mövzuya aid yazılmış kartoçkalardan birini çıxarır və tələb olunan suallara cavab verir. Ayrı-ayrı mövzularla bağlı suallar belədir:

**I qrup.**

M - Təbiətdə suya haralarda rast gəlirik?

Ş - Təbiətdə suya quruda, havada, hər yerdə rast gəlirik.

M - Təbiətdə və insan həyatında suyun rolu nədən ibarətdir?

Ş - Su olması təbiətdə həyat olmaz, bütün canlılar məhv olar.

M - Təbiətdə suyun neçə halı var?

Ş - Təbiətdə suyun 3 halı var: maye, buxar, bərk.

**II qrup.**

M - Təbiətdə su necə dövran edir?

Ş - Təbiətdə su maye haldan buxara, sonra buxarlanaraq yenidən duman və çən halında olub, yağış, qar, dolu şəklində yerə düşür.

M - Təbiətdə su neçə dərəcə temperaturda donur və neçə dərəcə temperaturda qaynayır?

Ş - Təbiətdə su 0° C-də donur, 100 °C –də isə qaynayır.

Münsiflər heyəti hər iki komandanın cavablarına uyğun qiymətlər verir.

**II mərhələ**. Bu mərəhələ keçilmiş mövzular üzrə kəmiyyət və keyfiyyət xarakterli məsələlərin həllinə və düşündürücü sualların cavablarının tapılmasına həsr olunur. Bu məqsədlə zərfdən xüsusi formada tərtib olunmuş suallar kartı çıxarılır və bütün komanda üzvlərinə paylanır. Komandaların hər bir üzvü kartoçkada ayrılmış hissədə təklif olunan suallara yığcam şəkildə cavablar yazırlar. II mərhələ üçün kartoçkada suallar belə verilmişdir:

**I qrup «Şərq» komandası üçün verilən suallar:**

1) Təbiətdə su dövran etməsə nə baş verərdi?
2) Bulaq nədir? Bulaqlar necə əmələ gəlir?
3) Bulaq suları çay və göllərin suyundan nə ilə fərqlənir?
4) Göl nədir? O necə əmələ gəlir?
5) Yer kürəsində ən böyük göl hansıdır?
6) Xəzərə niyə dəniz deyirlər?
7) Dünyada ən dərin göl hansıdır?
8) Azərbaycanda hansı göllər var?
9) Çay nədir? O necə əmələ gəlir?
10) Çayların başlandığı və töküldüyü yer necə adlanır?
11) Xəzər dənizinə hansı çaylar tökülür?
12) Kür çayı üzərində hansı su- elektirik stansiyaları tikimişdir?

**II qrup «Şimal» komandası üçün verilən suallar:**

1) Azərbaycanda hansı çaylar var?
2) Hansı dağ çaylarını tanıyırsınız?
3) Çayların və göllərin əhəmiyyəti nədən ibarətdir?
4) Yaşadığınız yerlərdə hansı çaylar var?
5) Yaşadığınız yerlərdə içdiyiniz su, hansı çayın suyudur?
6) Dəniz nəyə deyilir?
7) Hansı dənizləri tanıyırsınız?
8) Dəniz suları göl, çay və bulaq sularından nə ilə fərqlənir?
9) Respublikamızın əsas su mənbələri hansılardır? (Göllər və çaylar)
10) Kür və Araz çaylarının uzunluğu nə qədərdir?
11) Kür çayı üzərində hansı şəhərlər tikilmişdir?
12) Kür çayının hansı qolları var? (Şəmkir, Tərtər, Türyan çay, Qanıx və s.)

Ayrılmış vaxtda hər komanda öz yazdığı cavabları ümumiləşdirir. Münsiflər heyəti bu mərhələni də yekunlaşdırır və qiymətləri elan edir.

**III mərhələ**: Bu mərhələdə təklif olunmuş test tapşırıqları üzrə verilmiş suallar əsasında cavablar sütununu doldurmaq tələb olunur. İşin nəticəsi yoxlanılır, doğru və səhv cavablar müəyyənləşdirilir. Qiymətlər elan edilir.

III mərhələdə test tapşırıqları ilə əlaqədar suallar belə verilmişdir:

I qrup «Şərq» komandası üçün verilən **test sualları.**

1) Verilmiş maddələrdən hansılar suyu yaxşı süzür:

a) gil və qum; b) gil və torpaq; c) gil; d) qum və torpaq.

2) Aşağıdakı çayların hansıları Rusiya ərazilərindən başlayıb, Xəzər dənizinə tökülür?

a) Volqa və Araz; b) Volqa və Kür; c) Volqa və Ural; d) Ural və Samur.

3) Kür çayı öz başlanğıcını haradan götürür?

a) Ağrı dağından; b) Şahdağdan; c) Qızılgədik dağlarından; ç) Daşkəsəndən.

4) Araz çayı ilə Azərbaycan hansı dövlətlə həmsərhəddir?

a) Türkiyə ilə; b) İranla; c) Türkiyə və İranla; d) Türkiyə və Rusiya ilə

5) Heyvanların hansıları yalnız suda yaşayır?

a) balıq, delfin, ördək; b) delfin, balıq, suiti; c) delfin, balıq, qaz; d) delfin, balıq, balina.

II qrup «Şimal» komandası üçün verilən **test sualları.**

1) Kür çayı üzərində hansı şəhərlər salınmışdır?

a) Tbilisi və Batumi; b) Bakı və Tbilisi; c) Tbilisi, Gəncə, Bakı, d) Tbilisi, Rustavi, Mingəçevir, Əlibayramlı.

2) Verilmiş sxemə baxın, hansı sətirdə adların düzgün yazıldığını tapın.




a) 1- mənbə; 2- qollar; 3, 4 sol və sağ sahil; 5-əsas çay; 6 –mənsəb

b) 1- mənbə; 2- əsas çay; 3-4 sahil; 5- qol; 6 – mənsəb

c) 1- mənbə; 2- sağ və sol sahil; 3,4- qol; 5- əsas çay; 6 – mənsəb;

d) 1- mənbə; 2 – qollar; 3,4 sahil; 5- əsas çay; 6- mənsəb

3) Dünyada ən böyük göl hansıdır?

a) Xəzər və Baykal; b) Xəzər; c) Baykal; d) Xəzər Mingəçevir su anbarı.

4) Araz çayı ilə hansı düzənliklərin tarlaları suvarılır?

a) Mil və Şirvan; b) Mil və Muğan; c) Mil; d) Muğan.

5) Azərbaycan Xəzər dənizi ilə hansı dövlətlərlə birbaşa əlaqə saxlayır?

a) İran, Rusiya, Türkmənistan, Fransa; b) İran, Qazaxıstan, Türkmənistan, Rusiya; c) İran, Rusiya, Türkmənistan, Çin; d) İran, Özbəkistan, Almaniya, Türkmənistan.

**IV mərhələ**. Bu mərhələdə komandaların üzvləri zərflərdən kartoçkaları götürür və kartoçka üzrə təklif olunan suallara cavab verirlər. Belə ki, 1-ci komandanın suallarına 2-ci komandanın şagirdləri və əksinə 2-ci komandanın suallarına isə 1-ci komandanın şagirdləri cavablar verirlər.

I qrupun sualları aşağıdakı planda verilmişdir:

«Şərq» komandası - Bədəni möhkəmləndirmək üçün nə etməlisiniz?

- Bədəni möhkəmləndirmək üçün vaxtlı - vaxtında su, hava və günəş vannaları qəbul etmək lazımdır. Belə ki, yayda suda çimmək, təmiz havada gəzmək, günəşli havada dərini qaraltmaq lazımdır.

II qrupun sualları aşağıdakı planda verilmişdir:

- Xəzər dənizinin suyunda hansı heyvanlar yaşayır?

- Xəzər dənizinin sularında delfin, suiti, balina, qızılbalıq, xəşəm, nərə, ağ balıq və s. qiymətli balıqlar yaşayır.

Yenə I qrup sual verir:

- Cənubi Qafqazın ən böyük çayı hansıdır və onun uzunluğu nə qədərdir?

- Cənubi Qafqazın ən böyük çayı Kürdür. Onun uzunluğu 1515 km-dir.

**V mərhələ.** Bu mərhələdə komanda üzvləri onlara verilən tapşırıqlar üzrə mətni diqqətlə oxuyur və səhvləri tapıb düzəldirlər. Belə ki, «Təbiətdə və insan həyatında su» adlı ümumiləşdirici bölmədə bu xarakterdən olan tapşırıqları yerinə yetirmək çox vacibdir, çünki belə dərslər dövri və məqsədyönlü təkrar olunduqda, şagirdlərin yaradıcı təfəkkür qabiliyyətlərinin inkişafı üçün zəruri vərdiş yaranır. Belə tapşırıqların bir neçəsinə nəzər salaq:

**Kartoçka № 1**

**İlkin mətn**

Su təbiətdə üç halda olur: maye, buz və qaz halında olur.
Adi halda su boz, iyli və dadlı maddədir.

**Düzəlmiş mətn**

Su təbiətdə üç halda - maye, bərk və buxar halında olur.
Adi halda su şəffaf, iysiz və dadsız maddədir.

**Kartoçka № 2**

**İlkin mətn**

Təbiətdə günəşin istiliyi nəticəsində, məişətdə isə qızdırıldıqda su maye halına keçir. Havada gördüyümüz bulud, çən və duman qaz buxarıdır. Qışda şaxta olanda su donub bərkiyir. Adi su 5°C temperaturda donur, 50° C temperaturda isə qaynayır.

**Düzəldilmiş mətn**

Təbiətdə günəşin istiliyi nəticəsində, məişətdə isə qızdırıldıqda su buxar halına keçir. Havada gördüyümüz bulud, çən və duman su buxarıdır. Qışda

şaxta olanda su donub buza çevrilir. Adi su 0°C temperaturda donur, 100°C temperaturda isə qaynayır.

**Kartoçka № 3**

**İlkin mətn**

Yer kürəsində ən böyük göl Baykaldır. Onun orta dərinliyi 1000 metrə qədərdir. Suyu düzsüz, içmək üçün yararlıdır. Dünyada ən dərin göl Xəzər gölüdür. Dərinliyi 1600 metrdir. Gölün suyu duzlu və şordur.

**Düzəldilmiş mətn**

Yer gürəsində ən böyük göl Xəzərdir. Onun orta dərinliyi 1075 metrə qədərdir. Suyu duzlu, içmək üçün yarasızdır. Dünyada ən dərin göl Baykal gölüdür. Dərinliyi 1600 metrdir. Suyu təmiz, şəffaf və içmək üçün yararlıdır.

**Kartoçka № 4**

**İlkin mətn**

Azərbaycan Respublikasının əsas su mənbələri dəniz və göllərdir. Cənubi Qafqazın ən iri çayı Kür çayıdır. Öz başlanğıcını Daşkəsəndən götürür. Uzunluğu təxminən 1225 km-dir. Araz çayı Kürün qoludur. O, da Ermənistan dağlarından başlayır və Saatlı yaxınlığında Kürlə qovuşur. Onun uzunluğu 972 km-dir. Türkiyə və Rusiya ilə dövlət sərhədlərini təşkil edir. Kür çayı üzərində Ağıstafa və Yevlax su-elektrik stansiyaları tikilmişdir.

**Düzəldilmiş mətn**

Azərbaycan Respublikasının əsas su mənbələri göllər və çaylardır. Cənubi Qayqazın ən iri çayı Kür çayıdır. O, öz başlanğıcını Türkiyənin Qızılgədik dağından götürür. Uzunluğu təxminən 1515 km-dir. Araz çayı Kürün qoludur. O, da Türkiyə dağlarından başlayır və Sabirabad yaxınlığında Kürlə qovuşur. Onun uzunluğu 1072 km-dir. Türkiyə və İranla dövlət sərhədlərini təşkil edir. Kür çayı üzərində Mingəçevir və Şəmkir su-elektrik stansiyaları tikilmişdir.

Təbiətşünaslıq üzrə ümumiləşdirici dərslər təbiətşünaslıq və oxu fənlərinin əlaqəli məzmununun dərk edilməsinə kömək göstərir. Bir fənnin tədrisində verilən bilik başqa bir fənnin öyrədilməsi zamanı möhkəmləndirilir, genişləndirilir, tamamlanır. Beləliklə, təbiətşünaslıq və oxu fənlərinin bir biri ilə qarşılıqlı inteqrasiya olunmuş şəkildə öyrənilməsi, təbiət hadisələrinin təcrid olunmuş halda deyil, vəhdətdə öyrənilməsini təmin edir.

Təbiətşünaslıq dərsliyində «təbiətdə və insan həyatında su» adlı bölmədən sonra verilmiş ümumiləşdirici dərsdə «Təbiətdə suyun üç halı», «Təbiətdə suyun dövranı», «Bulaqlar», «Göllər», «Çaylar», «Dənizlər» və «Respublikamızın əsas su mənbələri» adlı xeyli material verilmişdir. Şagirdlər ümumiləşdirici dərsdə öyrəndikləri bu mövzuları xatırlamaqla geniş məlumata malik olurlar.

Bu mərhələdə dərsi yekunlaşdırarkən şagirdlərin diqqətini onların bir müddət əvvəl oxu fənnindən keçdikləri «Ana Kür», «Ağ su», «Polad

bilək», «Acı su», «Bulaq», «Mingəçevir», «Maye qızıl», «Arazım» və «Atam bunları haradan bilir» mövzularına yönəldirik.

Şagirdlər təlim fənlərinin əlaqələndirilməsi və paralel qarşılaşdırılması zamanı bir daha öyrəndilər ki, biliklərin hər cür mənimsənilməsi, mahiyyət etibarilə şagirdlərin əvvəlki təcrübələrinə daxil olan təsəvvür və anlayışların yeni öyrədiləcək biliklərlə əlaqəsinin yaradılmasından ibarətdir. Buna görə də təlim prosesində yeni öyrədilən bilikləri keçmiş biliklərlə bağlamaq, onların aralarındakı oxşar və fərqli cəhətləri aydınlaşdırmaq zəruridir, çünki belə əlaqə şagirdlərin idrak fəaliyyətini fəallaşdırır, onları şüurlu, müstəqil düşünməyə təhrik edir. Bu zaman şagirdlər həmin zəruri əlamətləri fikrən ayırır, onları qruplaşdırır və hissələrdən tama doğru hərəkət edib, inteqrasiya yaradırlar.

**VI mərhələ.** Bu mərhələ dərsin yekunlaşdırılması mərhələsidir.

- Uşaqlar, gəlin, dərsi yekunlaşdıraq, ümumi nəticə çıxaraq.

1. Böyüyəndə bulaqların, çayların və digər su hövzələrinin qayğısına qalmalıyıq.
2. Bulaqların və çayların ətrafında qırılmış meşə zolaqlarını bərpa etməliyik.
3. Bulaqların, çayların və göllərin çirklənməsinin qarşısını almalıyıq.
4. Bütün vətəndaşlarla birlikdə, dənizə çirkab suların axıdılmasının qarşısını almalıyıq.
5. İçməli su mənbəyi olan «Şollar» bulağı, «Samur» çayı və onun ətrafının qorunması və mühafizəsi qayğısına qalmalıyıq.
6. Şəhərimizin içməli suya olan tələbatını yaxşılaşdırmaq üçün «Ceyranbatan» su hövzəsinə daim diqqət və qayğı göstərməliyik.

Nəhayət, dərs prosesində keçirilən bilik yarışının nəticələri bütün mərhələlər üzrə yekunlaşdırılır və qalib komanda elan olunur. Hər iki komandanın üzvlərinə təhsildə uğurlar arzu edildikdən sonra dərsdə fəal iştirak edənlərə kiçik bayraqcıqlar verilir.

Tədqiqat göstərdi ki, təbiətşünaslıq üzrə ümumiləşdirici dərslərin bu cür təşkili, şagirdlərin idrak fəaliyyətini işə salır, onları müstəqil araşdırmalara istiqamətləndirir, təbiət elmlərinin öyrənilməsinə meyl və marağını artırır, qabiliyyət və istedadının inkişafı üçün əlverişli zəmin yaradır.

* * *

**Çaxmaq daşında od, işıq gizləndiyi kimi hər bir xalqın tərbiyəsi də onun öz təbiətində gizlənmişdir. Zəhmət çəkib özünüz bu ağ daşdan od çıxarıb daxmanızı isidin, işıqlandırın, daha bunun üçün qonşuya getmək lazım deyil.**

*Q.S.Skovoroda*

# QEYRİ-STANDART MÜRƏKKƏB MƏSƏLƏLƏRİN HƏLLİNDƏ QRAFİK TƏSVİRLƏRDƏN İSTİFADƏ

**Mustafayeva Firidə,**
Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı filialının müəllimi

Həlli üsuluna görə məsələlər standart və qeyri-standart olur. Standart məsələlərin həllində hazır düsturlardan, mürəkkəb olmayan mükahimələrdən istifadə edildiyi halda, qeyri-standart məslələrin həllində, onların təhlil edilməsində və situasiyaların modelləşdirilməsində axtarıcılıq, yaradıcı mühakimə tələb olunur. İbtidai siniflərin riyaziyyat kursunda məhz qeyri-standart məsələlərin həllində şagirdlər ciddi çətinliklərlə qarşılaşırlar, lakin belə məsələlərdəki situasiyaların təhlili, həll prosesini əyaniləşdirir və şagirdlər üçün çətinlik yaratmır.

Qeyri-standart məsələlər təlimin müxtəlif mərhələlərində riyaziyyat dərslərində. Ev tapşırığı və sinifdənxaric işlərdə şagirdlərə təklif edilir, lakin onların nəticəsi heç də həmişə yüksək olmur.

İbtidai siniflərdə standart olmayan məsələlərin həlli təliminin səmərəliliyinin yüksəldilməsində aşağıdakı mülahizələrin gözlənilməsi faydalıdır.

1) Məsələlər təlim prosesinə müəyyən sistemlə, çətinlik dərəcəsinin tədricən artırılması ilə daxil edilməlidir. Belə ki, gücə uyğun olmayan məsələ şagirdlərin inkişafına az təsir göstərir;

2) Məsələ həllinin axtarılmasında şagirdlərə maksimum sərbəstlik vermək zəruridir. Şagirdlər səhv yolla axıra qədər getməyə, səhvə inanmağa, nəhayət, başlanğıca qayıdaraq digər yolu, həllin düzgün yolunu axtarmağa imkan verilməlidir;

3) Standart olmayan riyazi məsələlərin həllinin müəyyən üsullarını, priyomlarının, ümumi yanaşmalarını dərk etməkdə şagirdə kömək göstərmək lazımdır.

Qeyri-standart riyazi məsələlərin həllini kiçik məktəblilərə iki mərhələdə öyrətmək lazımdır. Birinci mərhələdə belə məsələlərin həllinə ümumi yanaşmaların çıxarılması və dərk edilməsi üçün müəllim xüsusi iş aparmalıdır. Bu zaman şagirdlər məsələnin həlli prosesi (məsələni oxumaq, nələrin məlum olduğunu, nələri isə axtarmağın lazım gəldiyini ayırmaq və i.a.) mənimsəmələri və məsələnin hər bir həlli mərhələsində iş üsulları ilə tanış edilməlidir (əyani interpretasiyanın növləri, həllin axtarılması, məsələ həllinin yoxlanılması və s.). İkinci mərhələdə şagirdlər konkret məsələlər həllinin müstəqil axtarılması prosesində əldə olunmuş ümumi priyomları tətbiq edirlər.

Birinci mərhələdə işin necə aparılmasını təsvir edək. İşin aparılması metodikasının təsvirində seriya məsələlər ayıracağıq. Bu seriyanın ilk mərhələsi müəllimin rəhbərliyi altında həll edilir. Bu həll digər məsələlərin həllinə kömək eədəcək priyomun və ya üsulun çıxarılmasına xidmət edir. Sonrakı məsələlərdə şagirdlər ifadə olunmuş priyomun tətbiq edilməsi işi ilə

məşğul olur, bu üsulun və ya priyomun hansı hallarda tətbiq edilməsinin əlverişli olduğunu müəyyən etməyə çalışırlar. Fikrimizi bir neçə məsələnin həlli ilə izah edək.

**Məsələ 1.** 12 m uzunluqda tir 6 bərabər hissəyə mişarlanmışdır. Tir neçə yerdən mişarlanmışdır?

Məsələni oxuduqdan sonra şagirdlərə «əvvələr belə növ məsələ həll etmişlərmi?» və «belə məsələlərin həlli üsulu onlara məlumdurmu?» suallarına cavab verməlləri təklif olunur.

Bəzi şagirdlər səhvən bu məsələnin həlli yollarına bələd olduqlarını hesab edə bilərlər: «12m-i 6 bərabər hissəyə bölmək lazımdır». Müəllim nəticəni tapmağa, onu qiymətləndirməyə və səhvə inanmağa şagirdlərə imkan verməlidir (12-ni 6-ya bölməklə biz bir hissənin uzunluğunun 2 m olduğunu tapırıq. Məsələdə isə bir hissənin uzunluğu deyil, tirin neçə yerdən mişarlandığı soruşulur. Aydındır ki, məsələ düzgün həll olunmışdır). Sonra şagirdlər səhv nəticəyə («Neçə hissə varsa, bir o qədər də mişarlanmış yerlər vardır») yenidən qayıda bilərlər. Müəllim şərti şəkil və ya çetryoj çəkməklə tapılan cavabı yoxlamağı təklif edir. Şagirdlər tiri 12 dama uzunluqda düzbucaqlı və ya parça ilə işarə edərək onu şaquli xətlərlə 6 bərabər hissəyə bölürlər. Alınan şaquli xətləri sayaraq şagirdlərin əvvəl hesab etdikləri kimi 6 deyil, 5 mişar yeri olduğuna inanırlar.

Bu məsələ hesab əməlləri yerinə yetirmədən həll edildi, çetyoj (şəkil) qurmaqla cavab alındı. Onun altında şagirdlər cavabı yazırlar.



Beləliklə, şagirdlər aşağıdakı nəticəyə gəlirlər: tanış olmayan məsələnin həllini axtardıqda çertyoj çəkmək faydalıdır. Belə, ki, çertyojlarla iş məsələnin həlli üsulu ola bilər.

Aşağıda göstərilən bir sıra məsələlərin həlli göstərdiyimiz məsələdən alınan nəticənin doğruluğunu təsdiq edəcəkdir. Müəllim şagirdlər qarşısında aşağıdakı tədris problemini qoyur: qrafik təsvir qurmağın köməyi ilə riyazi məsələni həll edin.

**Məsələ 2.** Nərdivanda 9 pilləkan vardır. Nərdivanın ortasında dayanmıq üçün hansı pilləkanda durmaq lazımdır? (Beşinci pilləkanda).

**Məsələ 3.** Azər və Əli elektrik qatarının vaqonunda görüşdülər. Azər həmişə qatarın başlanğıcından beşinci vaqona, Əli isə qatarın sonundan beşinci vaqona oturur. Qatarda neçə vaqon vardır? (9 vaqon).




**Məsələ 4.** Bostanın bir tərəfinin uzunluğu 10 m-dir. Bostanın bir tərəfini dəmir torla bağlamaq üçün bir-birindən 2 m məsafədə neçə tir lazımdır? (6 tir).

Aşağıdakı məsələləri həll etməklə şagirdləri belə bir fikrə gətirmək olar ki, bəzi hallarda verilənlərin bir hissəsini qrafik təsvirlərin (şəkil, çertyoj) köməyi ilə, digər hissəsini isə hesab əməllərinin köməyi ilə tapmaq məqsədə uyğundur.

**Məsələ 5.** Pəncərə üçün pərdənin eni 1 m 20 sm-dir. Birinci və sonuncu halqalar pərdənin kənarına düşməklə bir-birindən eyni məsafədə 6 halqa tikmək lazımdır. Halqalar arasında neçə santimetr saxlamaq lazımdır?

Əvvəlki seriyadan çıxarılan nəticəyə əsasən şagirdlər bu məsələyə aid sxematik şəkil çəkməyə başlayırlar. Onlar parçanın başlanğıcında birinci halqanın yerini qeyd edib, istənilən uzunluqda parça ayıraraq ikinci halqanın yerini qeyd edirlər, birinci ayrılan parça uzunluqda parça ayırıb, üçüncü halqanın yerini qeyd edirlər və 6 halqa yeri qeyd edilənə qədər belə hərəkət edirlər. Alınan sxematik çertyojda 6 halqanın pərdəni böldüyü bərabər hissələri sayırlar.

Məsələnin sualına cavab vermək üçün pərdənin enini 5 bərabər hissəyə bölmək qalır: 120:5=24(sm). Həmin ideya bu seriyanın aşağıdakı məsələlərini müstəqil olaraq həll etdikdə şagirdlər tərəfindən istifadə olunur.

**Məsələ 6.** Qaçış yolunun kənarı ilə bir-birindən bərabər məsafədə kiçik tirlər basdırılmışdır. Birinci tirin yanında start verilmişdir. 12 saniyədən sonra qaçan idmançı 4-cü sütunun yanında olmuşdur. İdmançı bərabər sürətlə qaçarsa, start başlanandan neçə saniyə sonra qaçan 7-ci tirin yanında olacaqdır? (24 saniyədən sonra).

Şagirdlərə göstərmək lazımdır ki, bəzən məsələ həlli prosesində əlavə qurmaları yerinə yetirmək lazımdır. Bu, aşağıdakı məsələlərin həllində mümkündür.




**Məsələ 7.** Qarışqa 30 m dərinlikdə quyunun dibindədir. Gündüzlər qarışqa 18 m yuxarı qalxır, gecələr isə 12 m aşağı sürüşür. Quyunun dibindən çıxmaq üçün qarışqaya neçə gün lazımdır?

Məsələni müstəqil həll edərkən şagirdlər aşağıdakı kimi şəkil çəkməklə onu səhv həll edə bilərlər:

1) 18-12=6 (m) qarışqa bir gündə (gecə və gündüzdə) qalxa bilir.

2) 30:6=5 gün (gecə-gündüz) qarışqanın quyudan çıxa bilməsinə lazım olan vaxt.

Müəllim şagirdlərə təklif edir:

a) qarışqanın hər gündəki vəziyyətini ayrı-ayrı çertyojlarda göstərərək məsələnin həllini yoxlayın;

b) həllin gedişində qarışqanın quyudan çıxmasına neçə metr qaldığını hesablayın.



Beləliklə, şagirdlər göstərirlər ki, 3-cü gün qarışqa 18 m qalxır və quyudan çıxır. Deməli, onlar əvvəlcə məsələni düzgün həll etməmişlər. Düzgün cavabın tapılmasına məsələdə təsvir olunan real situasiyadakı dəyişmələri əks etdirən bir neçə ardıcıl çertyojların qurulması kömək göstərmişdir.




## TƏLİM PROSESİNDƏ AXTARICILIQ FƏALİYYƏTİ


**Lətifə Balakişiyeva,**
Qusar şəhər B.Ağaverdiyev adına 1 nömrəli orta məktəbin müəllimi


Məhəmməd Peyğəmbərin kəlamlarından birində deyilir: «Ən xeyirli sədəqə odur ki, bir müsəlman elm öyrənə və sonra onu öz müsəlman qardaşına öyrədə». Bu baxımdan müəllim həmin vəzifəni yerinə yetirir. Müəllim fasiləsiz müəyyən biliklərə yiyələnir və onu gənc nəslə öyrədir.

O dərs optimal sayılır ki, müəllim tədris vaxtını artırmadan, özünü və şagirdləri yormadan az vaxt içərisində çox və keyfiyyətli bilik versin. Müəllim çalışır ki, dərs səmərəli təşkil olunsun, şagirdlər çox şey öyrənsinlər. Bu, bizdən yüksək pedaqoji ustalıq tələb edir. Hər bir müəllim elmi və metodik cəhətdən hazırlıqlı olmaqla dərslərini yüksək səviyyədə qura bilər. Pedaqoji ustalığı təkmilləşdirmək, hər bir dərsin keyfiyyətinin yüksək olmasının təmin etmək lazımdır.

Y.A. Komenski demişdir: «Bütün bəşəriyyət birinci sinifdən keçir». Belə ki, sinif müəllimlərinin qarşısında çox çətin bir vəzifə – şagirdərin məktəbə, dərsə marağını qoruyub saxlamağa çalışmaq durur. Biz həm də hər an şagirdlərə nümunə olmalıyıq. Təsadüfi deyildir ki, K.D.Uşinski demişdir: «O şagird xoşbəxtdir ki, müəllimi ona ən yaxın, ən təmiz nümunədir. Öz idealının nalayiq hərəkətinin təsadüfən şahidi olduqda şagirdin ümidi boşa çıxır».

Biz bilirik ki, hər hansı qeyri-mütəşəkkil hərəkət, bikarlıq, məqsədsiz vaxt itirmək tərbiyənin, təlimin bünövrəsini dağıdır. Çalışmalıyıq ki, şagirdlərlə aramızda qarşılıqlı anlaşma olsun, şagirdin şəxsiyyətinə arzularına diqqətlə yanaşaq, şagirdlərimiz öz fikirlərini sərbəst ifadə etməyi bacarsınlar, müstəqil olsunlar.

Onu da unutmamalıyıq ki, humanistləşdirmə prinsipini ancaq şagirdlərə mehriban münasibət kimi başa düşmək olmaz. Elə I sinifdən uşaqları ətraflı öyrənir, psixoloji xidməti gücləndirirəm, çünki yuxarı siniflərdə müəllim uşaqlara sualla müraciət edir və uşaqların çoxu cəld cavab verdiyi hal-

da, bəzi şagirdlərin refleksi ləng olduğundan gec cavab verir və nəticədə yaxşı bir riyaziyyatçını və ya ədəbiyyatçını itirmiş oluruq.

Adətən, müəllim dərsi izah edir, şagird məzmununu danışır, qiymət alır. Bu ənənəvi üsul əzbərçiliyə aparır. Bu yoldan imtina etmək üçün biz müəllimlər yaradıcı olmalı, şagirdləri müstəqil işlərə alışdırmalı, düşündürməyə vadar etməliyik. Məni uşağın nələri nə qədər bilməsi yox, onun beyninin, təfəkkürünün necə və nə qədər inkişaf etməsi maraqlandırır. Bütün fəaliyyətimi məhz şagirdlərimin fərdi xüsusiyyətlərini bilməklə, onların təfəkkürünü, təxəyyülünü, hafizəsini inkişaf etdirməyə yönəldirəm. Yəqin etmişəm ki, təfəkkür olan yerdə bilik həmişə olacaqdır. İbtidai təlim şagirdlərin zehni inkişafı və onlarda təhsil əməyi bacarıqlarının formalaşması üçün ən yararlı, əlverişli dövrdür.

Hər birimiz yaxşı bilirik ki, məktəbə şərəf gətirən, onun «üzünü ağardan» məzundur. Onun gələcəyi isə hər pillədə öyrəndiyi bilikdən və İntellektual səviyyəsindən asılıdır. Bizim payımıza ilk növbədə uşaqlara bütün fənləri sevdirmək və onlarda həmin fənləri öyrənməyə həvəs yaratmaq düşür. Mən riyaziyyat fənnini sevdirmək üçün uşaqlara kömək məqsədilə əyləncəli xarakterli məsələlərdən geniş ölçüdə istifadə edirəm:

1) Quzuların və qazların 42 ayağı və 12 başı var. Neçə quzu və qaz var? (cavab: 9 quzu və 3 qaz).

2) Naməlum ədədləri tap:
**** - *** = 1 (Cavab: 1000-999=1)

3) Bir çubuğun iki ucu var? Bəs iki və yarım çubuğun neçə ucu var? (Cavab: 6)

4) A şəhərindən B şəhərinə təyyarə 1 saat 20 dəqiqəyə uçur. Ancaq B şəhərindən A şəhərinə 80 dəqiqəyə uçur. Bu fərqi necə izah edərsiniz? (Cavab: 1 saat 20 dəq. =80 dəq.).

5) Çertyojda neçə kvadrat var? (Cavab: 5)



Hər bir mövzunu şagirdlərə izah edəndə qarşıma məqsəd qoyuram: «Biliyi uşağa necə təqdim edim ki, şagird onu tam mənimsəsin və «Uşaq necə etməlidir ki, bu biliyi tam qavrasın». Bu halda problemli tapşırıqlar təlim prosesində uşağın təfəkkürünü inkişaf etdirən ən lazımlı komponentlərdən biridir. «Cəmin ədədə bölünməsi» mövzusunu keçəndə belə bir sual qoyuram.

«Hər bir sütündakı ifadələr hansı riyazi qaydaya əsaslanmışdır? Onların qiymətini hesabla».

| | |
|---|---|
| 54:9 | 63:9 |
| (36+18):9 | (49+14):7 |
| 36:9+18:9 | 49:7+14:7 |

Əvvələn verilən ifadələr uşaqlara tanışdır və həlli zamanı onlar çətinlik çəkməyəcəklər. Digər tərəfdən uşaqlar sütünlardakı ifadələri təhlil edir müqayisə aparır, nəticə çıxarır və «cəmin ədədə bölünməsi» qaydalarını özləri «kəşf etmiş» olurlar.

İbtidai siniflərdə məsələ həlli bacarıqlarını inkişaf etdirmək ən mühüm problemlərdən biridir. Adətən, sinifdə bir neçə istedadlı şagird olur və onlar məsələni o biri uşaqlardan tez həll edirlər. Belə uşaqlar üçün xüsusi yaddaşdan istifadə edirəm:

1) Məsələni diqqətlə oxu.
2) Şərtini və sualını tap.
3) Verilənlərlə axtarılanlar arasında əlaqə yarat.
4) Məsələni həll etmək üçün sənə kömək göstərə biləcək modeli tərtib et: a) qısa yazılış; b) rəsmini çəkmək; c) sxem; ç) cədvəl.
5) Həllini yaz: a) izahlı həll et; b) suallarla həll et; c) ifadə qur; ç) tənlik qurmaqla həll et.
6) Məsələnin həllini yoxla.
7) Cavabı tam yaz.
8) Tərs məsələ tərtib et və məsələni həll et.
9) Verilmiş məsələyə oxşar məsələ tərtib et.

Bütün bunlar şagirdlərin zehni inkişafına güclü təsir göstərir.

## KİÇİKYAŞLI MƏKTƏBLİLƏRƏ İNFORMATİKA ELEMENTLƏRİNİN ÖYRƏDİLMƏSİ ÜZRƏ TƏCRÜBƏ

**Əliyev Akif,**
ARTPİ-nin dissertantı

İbtidai siniflərdə İnformatika elementlərinin öyrədilməsi problemi ilə əlaqədar ABŞ, İngiltərə, İsrail, Rusiya, Bolqarıstan, Türkiyə və bir sıra MDB ölkələrinin təcrübəsi öyrənilmişdir.

Həmin ölkələrdə problem üzrə aparılan işlərə görə iki istiqamət özünü daha qabarıq göstərir: Rusiya və keçmiş MDB ölkələrində informatika üzrə akademizm istiqaməti, qərb ölkələrində, ABŞ və Türkiyədə texnoloji istiqamət. Biz də daha çox bu ölkələrin təcrübəsini araşdıracağıq.

İngiltərənin ibtidai məktəblərində informasiya texnologiyalarının öyrədilməsinə ciddi fikir verilir. Hər bir məktəbdə və mərkəzi ofisdə iki server İnternetlə əlaqənin yaradılması işləməyə imkan verir. Mərkəzi şəhərlərdəki məktəblərin hər bir sinif otağı, əyalətlərdə isə ayrıca kompüter sinfi olan mərkəzlər fəaliyyət göstərir.

Böyük Britaniyanın Hobbs Hill Wood ibtidai məktəbi Mikrosoft Windows

Server 2003 sisteminin tətbiq olunduğu ilk tədris müəssisələrindəndir. Həmin məktəbdə 476 uşaq oxuyur və məktəbə əyalət təhsil idarəsi rəhbərlik edir. Əvvəllər məktəbdə kompüter siniflərində quraşdırılmış stolüstü kompüterlərdən istifadə edilirdi. Milli təhsil proqramlarının tələblərini ödəmək üçün şəbəkə sisteminə keçilmişdir.Valideynlər üçün İnternet-portal yaradılıb ki, onun vasitəsilə valideynlər öz uşaqlarının nailiyyətləri haqqında məlumat alırlar.

ABŞ məktəblərində etibarlı vahid elektron poçtun yaradılmasına başlanılıb.Əgər indiyədək hər bir məktəblinin öz elektron poçt yeşiyi yox idisə , bundan sonra nəinki pedaqoqların, həm də hər bir şagirdin öz xüsusi elektron poçtu olacaqdır.

Rusiyada informatikanın ibtidai siniflərdən başlayaraq tədris edilməsinə keçən əsrin sonuna yaxın başlanılmışdır. Rusiya Federasiyası ümumi və peşə təhsili nazirliyinin «Rusiya Federasiyası ümumtəhsil məktəblərinin Bazis tədris planının təsdiq edilməsi barədə» 09.02.1998-ci il tarixli 322 nömrəli əmri ilə təsdiq edilmiş Bazis tədris planının izahat vərəqində qeyd edilir ki, informatika «Riyaziyyat» təhsil sahəsinin komponentidir. Tədris planının invariant hissəsinin hesabına X-XI siniflərdə ayrıca fənn kimi keçilir, VII-IX siniflərdə isə variativ hissənin hesabına öyrədilə bilər. Maddi-texniki baza imkan verdikdə məktəblər öz tədris planlarına I-VI siniflərdə propedevtik, VII-IX siniflərdə əsas, X-XI siniflərdə isə profil kursu daxil edə bilərlər. Təhsil Nazirliyinin 29.05.95-ci il tarixli 115/28 nömrəli «Ümumtəhsil məktəblərində informatikanın tədrisi strukturunda dəyişikliklər haqqında» metodik məktubunda qeyd edilir ki, məktəblərə təklif edilən strukturda informatikanını tədrisinə Bazis tədris planının variativ hissəsində fakültativ, fərdi və qrup məşğələlərinə, eyni zamanda invariant hissədə informatika fənninə ayrılan saatların hesabına vaxt verilməsi tövsiyə olunur.

I-VI siniflərdə propedevtik (hazırlıq) kursun əsas məqsədi şagirdlərdə informatika və informasiya texnologiyalarının insanın həyati fəaliyyətində əhəmiyyəti və yeri haqqında ilkin təsəvvürlərin, həmçinin sadə informasiya texnologiyalarından nəinki informatika, həm də digər fənlərin öyrədilməsində istifadə bacarıqlarının formalaşdırılmasıdır.

İlkin kurs Rusiya Təhsil Nazirliyi tərəfindən tövsiyə edilən aşağıdakı proqram məzmununa, tədris-metodik komplektinə əsaslanırdı:

1. Qoryaçev A.V. və başqaları. İnformatika məsələ və oyunlarda. Dəftər-dərslik. I-IV sinif-M: Ballas LTD 1997.

2. Pervin Y.A. və başqaları. İnformasiya mədəniyyəti. I-VI sinif –M: Drofa, 1997.

3. Semyonov A.L. və başqaları. Alqoritmika V-VI sinif-M: Drofa, 1996-1997.

Tədrisdə əsas diqqət informatika kursunun ümumtəhsil əhəmiyyətinə xüsusi əhəmiyyət verilirdi. Kursun əsas məzmunu Federal ekspert şurası tərəfindən bəyənilmiş «İnformatika üzrə təhsilin məzmununun məcburi minimumları» sənədində əksini tapıb.

2002-ci ildə II sinifdən başlayaraq informatikanın tədrisi üzrə eksperimentlərə başlanılıb. 2003-cü ildə Rusiyada təhsilin informatlaşdırılması Proqramının reallaşdırılması ilə əlaqədar olaraq ibtidai siniflərdə aparılan bu eksperimentin şərtləri bir qədər dəyişdirildi. Həmin dövrdə məktəblərə yeni kompüterlər verildi, elektron dərsliklər seriyası hazırlandı, məktəblərin bir qismi internetə qoşuldu, İnternet şəbəkəsində Rusiyanın təhsil portalı formalaşdı. Məhz buna görə də ibtidai siniflərdə informatikanın tədrisində informasiya və kommunikasiya texnologiyalarının daha fəal tətbiqinə şərait yarandı.

Rusiyada informatikanını ibtidai siniflərdə 3 illik təlim dövrü şagirdlərin informatika dərslərində aldıqları bilik, bacarıq və vərdişlərin İKT-nin tətbiqi ilə digər fənlərdə tətbiq bacarıqlarının formalaşdırılmasına yönəldilmişdi.

Burada şagirdlər II sinifdən informasiya ilə bəzi fəaliyyətlərlə: informasiyanın toplanması, informasiyanın axtarışı, saxlanılması, ötürülməsi ilə tanış edirlər. Kompüter texnologiyası ilə ilkin tanışlıq əsas xarici qurğularla, oyun xarakterli sadə öyrədici proqramlarla işə başlayırlar. Şagirdlər klaviaturanın yazı elementləri, düymələri ilə tanış olur, mausdan istifadə etməyi öyrənir, informasiya obyektlərini tanımağa başlayırlar. Bu zaman hər dərsdə müntəzəm İKT vasitələrindən istifadə etmək tələb olunmur. Məşğələlərin əsas hissəsi texniki təlim vasitələrindən istifadə etməklə tapşırıqlara ayrılır. Kompüterdən yalnız lazım olduqda istifadə edilir.

Rusiyada ibtidai siniflərdə informatika təliminin əsas xüsusiyyətlərindən biri də pillə-pillə kompüter xəttinin daha da artırılmasıdır.

III sinifdə uşaqlar artıq müəllimin köməyilə informatika və digər fənlər üzrə dərslərdə İKT vasitələrindən istifadə etməyə hazırdırlar. Ona görə də III sinifdə informatika təlimində təlimin texniki vasitələrindən istifadə etməyi davam etdirməklə aşağıdakı mövzuların öyrədilməsi məqsədəuyğun sayılır:

1. İnformasiyaların toplanması, yazılması, prezentasiyalar.

**Avadanlıqlar:** televizor, maqnitofon və ya pleer, foto aparat, videokamera, audiomaqnitofon, diktofon, proyeksiya aparatı.

Sadalanan bu qurğular ətraf mühitdəki informasiyaları, eləcə də şagirdlərin dərsdəki fəaliyyətini yazmaq üçündür.

2. İnformasiyanın axtarışı, təşkili.

**Avadanlıqlar:** tədris oyunları (məsələn, loto), ensiklopediya, lüğətlər, maqnit lövhə və kartoçkalar, flomaster üçün lovhə, cədvəl və sxemlər, atlas və kartlar, videoteka, audioteka.

Sadalanan bu qurğular şagirdləri informasiyanın müxtəlif təsvir vasitələri ilə tanış etmək, informasiyaları təşkil etmək üçündür.

3. İnformasiyaların tədqiqi və araşdırılması, konstruksiyalaşdırma və modelləşdirmə.

**Avadanlıqlar:** tərəzi, həcm, uzunluq və temperatur ölçən, mikroskop, konstruktorlar, sadə çertyoj alətləri, materiallar (plastilin, rənglər, fırca, kağız, yapış-

qan, qayçı, ip və sap),

Musiqi alətləri, səs sintezatoru .

III sinifdə tədris kompütersiz və kompüterli olmaqla iki hissədən ibarətdir. Kompütersiz hissə məntiqi və alqoritmik təfəkkürün inkişafına istiqamətləndirilmiş tapşırıqların icrasına, kompüterlə bağlı hissə isə informasiya və kommunikasiya texnologiyalarından istifadə ilə informasiyalarla işləmək vərdişlərinin fəallaşdırılmasına yönəldilir.

İnformatika kursunun kompütersiz hissəsinin əsas mövzuları aşağıdakılardır:

- İnformasiyanın növləri: işarələr, söz, cümlə, mətnlər, şəkillər, illüstrasiyalar, audio-video yazılar.
- İnformasiya mənbələri: müşahidə, kitablar, qəzet, jurnal, radio, televiziya, audio-video yazılar və s.
- İnformasiyanın təşkili: əlifba sırası, kitabın əsas hissələri və onun vəzifələri, kataloq, məlumat kitabları.
- İnformasiyanın axtarışı və təhlili. İnformasiya axtarışı həcminin genişləndirilməsi və daraldılması. Axtarış planı. İnformasiyanın təhlili.
- İnformasiyanın tətbiqi. Yeni informasiya obyektlərinin yaradılması. İnformasiya mübadiləsi.
- Informasiyanın təsviri. Əşyaların təsviri. Hərəkətlərin təsviri. Alqoritm və onun icrası.
- Sxemlər, cədvəllər, qrafalar.
- Məntiqin əlifbası, mühakimələr.

***İnformatika kursunun kompüterli hissəsinin əsas mövzuları aşağıdakılardır:***

- İnformasiyanın qəbulu, ötürülməsi, saxlanması və emalının texniki vasitələri.
- Kompüter və onun əsas hissələri. Kompüterlə iş qaydaları və kompüter sinfində özünü aparma qaydaları.
- Klaviatura ilə iş qaydaları.
- Mətndə açar sözlərə görə axtarış. Kompakt diskdə informasiyanın axtarışı.
- Kompüterdə informasiya obyektlərinin (mətn, rəsm və s.) yaradılması.

Qeyd edək ki, Rusiyada yuxarıda qeyd edilən proqram üzrə III sinifdə İKT-dən istifadə etməklə aparılan tədris layihələri, praktik işlərin həcmi artırılır.

Kursun kompüterli və kompütersiz hissələri arasında balans yaratmaq məqsədilə həm həftədə 1 saat olmaqla informatika dərslərindən, həm də digər fənlər üzrə dərslərdən istifadə etmək tövsiyə olunur.

Burada kompütersiz mövzular ayrıca informatika dərsi kimi bütün sinfə (yarımqruplara ayrılmadan) həm sinif müəllimi, həm də informatika müəllimi tədris edə bilər.

Dərsi aşağıdakı mərhələlərə bölmək tövsiyə olunur:

- ev tapşırıqlarının yoxlanması (5 dəqiqəyədək);
- yeni mövzunun öyrədilməsi (texniki təlim vasitələrindən istifadə etməklə təxminən 7 dəqiqə);

- materialın möhkəmləndirilməsi (7 dəqiqə);
- praktik və ya layihə tapşırığının icrası (texniki təlim vasitələrindən, sinifdə 1 kompüterdən elektron lövhə kimi istifadə etməklə təxminən 10 dəqiqəyədək);
- nəticələrin müzakirəsi (5 dəqiqə);
- dərs müddətində idman gimnastikası (1-3 dəqiqə) edilməlidir.

Əgər kursun məzmunu digər fənlərin daxilində ayrıca blok kimi öyrədilirsə, layihə formasında işlərdən istifadə edilməsi tövsiyə olunur. Belə məşğələlərin heç olmasa ən azı 3 ədəd kompüteri olan kabinetdə aparılması məqsədəuyğun sayılır.

Layihə tapşırıqları informatika kursu blokunun daxil edildiyi tədris fənninin məzmunu ilə əlaqəli olmalıdır. Belə dərslərin həftədə 2 saatdan çox olmamaqla aparılması həmin dərsləri müvafiq hazırlığı olan, həmin sinifdə dərs deyən sinif müəlliminin aparması tövsiyə olunur.

Belə məşğələlərin 1-ci hissəsi bütün sinfin şagirdlərinə öyrədilir. Praktik işlərdə isə sinif qruplara (briqadalara) ayrılır və kompüterlə təchiz edilmiş kabinetdə aparılır. Briqadaların hər birinə bir kompüter və 3 nəfər şagird təhkim edilir.

Qruplarda praktik iş (15 dəqiqəyədək) kompüterli və kompütersiz fəaliyyətin növbələşməsi ilə reallaşdırılır və o layihə tapşırığının icrası və nəticələrinin müzakirəsi məqsədilə aparılır. Hər bir şagird həm kompütersiz (10 dəqiqə) həm də kompüterli fərdi tapşırıq alır. Kompütersiz tapşırığa dəftərdə iş, konstruktor materialı, bədii yaradıcılıq materialı, lüğət və ensiklopediyalarla iş, tapşırığın kompüterlə bağlı hissəsinə kompüter mühitində mətn, qrafika, səs, mövzuya aid öyrədici oyunlar mühitində yaradıcı iş daxil edilir.

Kompüter kabineti olan ümumtəhsil məktəblərində ibtidai siniflərdə informatika dərslərinin kompüterli hissəsi həmin kabinetlərdə keçilir. Bunun üçün sinif 2 qrupa bölünür. Dərsin kompüterlə bağlı hissəsini informatika müəllimi əvvəlcə 1-ci qrupa, sonra isə 2-ci qrupa (hər qrupda 15 dəqiqə olmaqla) keçir. Bu zaman sinif müəllimi digər qrupa kompütersiz hissəni tədris edir. Beləliklə, bir dərs çərçivəsində qrupların fəaliyyət növü dəyişir. Onu da qeyd edək ki, belə dərslərin aparılması o halda mümkün olur ki, bir dərs çərçivəsində iki müəllimə əmək haqqı verilməsi nəzərdə tutulsun.

Şagirdlərin dərs yükünü artırmamaq məqsədilə ev tapşırıqlarının həcmini nizamlamaq tövsiyə olunur: məsələn, ev tapşırığı kimi, gəzinti zaman müşahidə aparmaq və onların gördükləri haqqında bir fraqment hazırlamaq, iş dəftərindəki 1-2 tapşırığı icra etmək, hansısa informasiyanı toplamaq təklif edilir. Burada ev tapşırığının əsas məqsədi digər fənlər üzrə tapşırıqların icrası zamanı informasiya fəaliyyət üzrə qazanılmış bilik və bacarıqlardan istifadə etməkdir.

İnformatikanın tədrisində İKT vasitələrindən istifadə üçün əvvəlcədən müəyyən hazırlıqların aparılması tövsiyə olunur.

İnformatika dərsi müxtəlif məqsədli otaqlarda da keçilə bilər.

**Sinif otağında informatika dərsi**

Sinif otağında bir kompüter və ona qoşulmuş multiproyektor və ya televizor

quraşdırılır. İmkan daxilində printer, qrafik planşet, səs kalonkaları da olsa yaxşı olar. Rəqəmli fotoaparat, videokameradan istifadə tədrisdə əyaniliyi daha yaxşı təmin edərdi. Belə ki, onların vasitəsilə ətraf aləmdən məktəb həyatından, dərslərdən fraqmentlər, uşaq işlərinin kolleksiyasının kompüterdə yaradılması mümkün olar.

### Kitabxananın oxu zalında informatika dərsi

Belə dərslərdə, adətən, digər fənlərin öyrədilməsi zamanı və layihələr üzrə təlim təşkil edilir. Bu o zaman mümkün olur ki, oxu zalı 3-5 kompüterlə təchiz olunur və onlar məktəbin lokal şəbəkəsinə birləşdirilir. Videomaqnitofonu olan televizor, multimedia proyektoru tədrisi mühazirə və layihələrin kollektiv müzakirəsi şəklində aparmağa imkan verir. Bu zaman zalda boş olan kompüterlərin iş stollarının, kollektiv müzakirə üçün (müəllimlə) kompütersiz hissənin tapşırıqlarının icrası üçün şərait yaradılır. Oxu zalında məktəb mediatekası, videomateriallar yerləşdirilir. Belə bir təchizatla kitabxananın oxu zalı həm də müəllimlər üçün tədrisdə İKT-dən istifadə üzrə məsləhət mərkəzi, metodik kabinet funksiyasını öz üzərinə götürə bilir.

### Məktəbin akt zalında informatika dərsi

Məktəbdə akt və ya videozal varsa, onu kompüter mühazirə avadanlıqları, yəni, kompüter, səs sistemi uzaqdan idarə olunan multimedia proyektoru, televizor, videomaqnitofon ilə təchiz etməklə informatika dərslərini, tərbiyəvi xarakterli tədbirləri, kompüter səyahətlərini, tamaşa tədbirlərini orada keçirmək olar.

### Kompüter kabinetində informatika dərsi

Kompüter kabinetində informatika və digər fənlərdən dərsləri aparmaq üçün aşağıdakı əlavə avadanlıqlar da bu işə cəlb edilməlidir:

- multimedia proyektoru;
- rəngli printer;
- skaner;
- səs kalonkaları;
- şəkil üçün qrafik planşet;
- rəqəmli fotoaparat və ya videokamera;
- musiqili klaviatura (melodiyaları çevirmək imkanı olan).

Mətnləri yaratmaq və redaktə etmək üçün maqnit kartokalar, lövhə, ştamp, trafaretlər, qələm, flamesterlər, mətn redaktoru proqramı, klaviatura trenajoru olsa daha yaxşı olar.

Beləliklə, III sinifdə informatikanın tədrisi şagirdləri tədris prosesində informasiya mənbələrindən sərbəst istifadəyə, o cümlədən məktəb kitabxanası və mediatekasının resurslarından istifadəyə hazırlayır, İKT sahəsində onların dünyagörüşünü, anlayışlarını genişləndirir.

Burada əsas məqsəd odur ki, şagirdlər III sinifdə İKT-nin tətbiqi ilə yerinə yetirdikləri praktik iş və layihələri IV sinifdə digər fənlərdə də oxşar hallara tətbiq etmək üçün təcrübə qazansın.

1998-ci ilin avqustunda Bolqarıstanda ibtidai siniflər üçün IKT üzrə tədris planı işlənib. Onun əsas məqsədi həm dərslərdə, həm də əlavə məşğələrlədə uşaqlara kompüterdən istifadə imkanlarını verməkdir. Həmçinin yeni informa-

siya texnologiyalarından istifadə hər hansı peşə vərdişləri deyil, uşaqların fərdi inkişafına təkan verməyə yönəldilmişdir.

Tədris planında əsas məqsədlərin bəzısı uşaqlarda ətraf aləmə maraq, biliyə cəhd, yaradıcı fəaliyyət vərdişləri və tənqidi təfəkkürün formalaşdırılması açıq verilib. Sonuncu məqsədlərə işlərin planlaşdırılması və strukturlaşdırılması, informasiyaların axtarışı və ondan istifadə, müxtəlif situasiyalarda qərar qəbul edilməsi, müxtəlif sahələrdən olan məsələlərin həlli üçün müxtəlif yanaşma və alətlərin tətbiqi, eləcə də müəllimin köməyi və istiqamətləndirməsi ilə sərbəst eksperimentlər aparılması daxil edilmişdir.

Bu məqsədlərin reallaşdırılması üçün bütün tədris prosesinə layihə-orientasiya yanaşmasından istifadə edilir. Uşaqlar qarşılarına müəyyən məqsədlər qoyaraq öz praktik təcrübələrinə, həyati hadisələrə istinadən layihələrdə öz ideyalarını həyata keçirirlər. Hər layihədə məktəbin tədris planında qarşıya qoyulan müxtəlif tip tapşırıqların icra edilməsi başa düşülür.

Bolqarıstanda ibtidai siniflər üçün hazırlanmış informatika proqramı aşağıda sadalayacağımız bir sıra fəaliyyət növlərini, müasir kompüter sistemlərinin əsas istifadə sahələrini əhatə edən 11 vahid tədris modulunda verilir.

Uşaqlar ətraf aləm haqqında vizual təsəvvürlər əsasında kompüterdən bir vasitə kimi istifadə etməklə şəkil çəkməyə başlayırlar. Müxtəlif rənglər, xətlər, hazır forma və şəkillərlə iş uşaqlarda estetik zövq və təəssüratların inkişafını stimullaşdırır.

Mətni informasiyalarla iş oxu və yazı təliminə kömək edir. Bu modul uşaqları əsas fəaliyyət növləri – oxu, yazı, mətnin yoxlanılması və redaktə edilməsi üzrə tapşırıqların daha maraqla icrasına həvəsləndirir. Ənənəvi tapşırıqları qeyri-ənənəvi vasitələrin köməyi ilə icra edərkən uşaqlar düzgün yazmağın, mətnin estetik tərtibatının vacibliyini dərk edirlər.

Kompüterin səs imkanları kiçikyaşlı uşaqların musiqi ifası və danışıq nitqindən fəal istifadə etməyə imkan verir.

Animasiya və video ilə işləyərkən uşaqlar sadə multfilm fraqmentləri yaradırlar. Bu isə yeni və orijinal ideyalar axtarıb tapmağa təkan verir.

Ümumiyyətlə, belə tip tədris planı bir çox ölkələrdə işlənmişdir: məsələn, Böyük Britaniyada ibtidai siniflər üçün IKT üzrə belə bir tədris planı http: //www.ba-education.demon.co.uk/break/ed/neur.html [53] saytında verilmişdir.

İbtidai siniflərdə informatika elementlərinin öyrədilməsi üzrə dünya təcrübəsinin təhlilini belə ümumiləşdirmək olar:

1. Problem üzrə dünya ölkələrində axtarışlar, eksperimentlər daim davam edir.

2. Bir qrup ölkələrdə ibtidai siniflərdə informasiya texnologiyalarının öyrədilməsinə daha çox fikir verilir.

3. Digər qrup ölkələrdə nəzəri informatikanın elementlərinin (akademizm) öyrədilməsi üstünlük təşkil edir.

4. 2-ci qrup ölkələrdə də son illər informasiya texnologiyaları üzrə mövzuların həcmi artır.

5. İldən-ilə informatikanın fasiləsiz tədrisi (1-ci sinifdən başlayaraq) ideyası reallaşır.

# İNTEQRASİYANIN DƏRSİN KEYFİYYƏTİNƏ TƏSİRİ

**Çimnaz Əliyeva,**
Əzizbəyov RTŞ-nin metodisti

XXI əsrin məktəbi ötən əsrdə təhsil sahəsində əldə olunmuş uğurları saxlamaq, onun strukturunda, məzmununda, metodlarında, prisiplərində təkmilləşmələr aparmaqla yeniliklər gətirməyi tələb edir. Bu gün həyata keçirdiyimiz təhsil islahatında müxtəlif yeniliklərlə qarşılaşırıq. Yeniliklərdən biri də pedaqoji mətbuatda tez-tez rast gəldiyimiz «inteqrasiya»dır. İnteqrasiya termininin nəzəri, elmi izahı təbiətin bütövlüyü, insanın da təbiətin ayrılmaz bir hissəsi olması, həmin bütövlüyün olduğu kimi qavranılmasının zəruriliyi ilə əsaslandırılır.

İnteqrasiya fənlərin tədrisində istifadə edilməsi zəruri hesab edilən ən mühüm prinsipdir. Leksik cəhətdən inteqrasiya /latınca inteqer/ tam deməkdir.

Hazırda inteqrasiya anlayışı həm çox geniş, həm də dar mənada işlənir. Biz təhsil sistemimizin Avropa təhsil sistemi ilə inteqrasiya, asılı olmayan ölkələrin təhsil sistemləri ilə inteqrasiyası, müxtəlif ölkələrin dövlət təhsil sistemləri arasında inteqrasiya haqqında ideyalarla rastlaşırıq. Bu mənada inteqrasiya heç də tam birləşməyə, vahidliyə, eyniliyə aparmır.

Dar mənada inteqrasiya dedikdə, tədris proseində fənlərarası əlaqənin ən yüksək, yeni keyfiyyət qazanmış formasını nəzərdə tuturuq. Bu baxımdan inteqrasiyanın ən real tələbi tədris planında qohum fənlərin daha da yaxınlaşdırılaraq şagirdlərə təbii əlaqələr şəraitində ümumiləşdirilmiş biliklərin verilməsidir.

Bu zaman inteqrasiya müəllim tərəfindən yaradılır. Dərsə hazırlaşarkən müəllim mövzuların mahiyyətini şagirdlərin hərtərəfli əlaqələr şəraitində, təbii vəhdətdə dərk etmələri üçün digər fənlərə /elmlərə/ də müraciət edir. Belə olduqda inteqral yanaşma təlimin fənni sistemini heç də inkar etmir, lakin ona mühüm dəyişikliklər gətirir.

İnteqrasiya müəllimin nəzəri, pedaqoji, psixoloji hazırlığından, ümumi hazırlığından, erudisiyasından, dərsə hazırlaşarkən işini necə planlaşdırmasından, dərsdə təfəkkürünün itiliyindən asılı olur. Bu keyfiyyətlərə yiyələnməmiş müəllim nümunəvi inteqrativ materialı şagirdlərə mənimsədə bilməz. Deməli, müəllimdə inteqrasiya haqqında dərin elmi bilik və metodik vərdiş olarsa, o, pərakəndə şəkildə verilmiş, ilk baxışda bir-biri ilə əlaqələrin görünmədiyi materiallar əsasında da inteqrasiya yarada bilər.

İnteqrasiya təlimdə nailiyyətlərin əldə olunmasında, az vaxtda daha çox biliklərin aşılanmasında özünü göstərir.

İnteqrativ təlim heç də yeni şey deyil. Elə bir fənn, hətta mövzu tapılmaz ki, onu digər fənlərdən, mövzulardan təcrid edilmiş halda tədris etmək mümkün olsun. Təlimin bu növü tarixən ibtidai təlimdə özünə yer tapmışdır.



Görünür, bütün fənlərin bir müəllim tərəfindən tədris edildiyi ibtidai siniflərdə fənlərin inteqrasiyası daha təbiidir. Bu mərhələdə ana dili fənni öz təbiəti etibarilə inteqrativdir. Deməli, təbii inteqrasiyanın ünvanı ilk növbədə ibtidai təlimdir.

Yeniləşdirilmiş «Oxu», «Riyaziyyat» dərsliklərində inteqrativ təlim üçün geniş imkanlar var ki, bu da təlimdə yüksək keyfiyyət əldə olunmasına kömək edir. Sözün tərkibinin öyrədilməsində inteqrasiyadan necə istifadə edirəm.

Yazı taxtasında bir neçə söz yazıb, sual-cavab aparıram:

Top, yarpaq, canavar, ağcaqanad.

Top nədir? /Top oyuncaqdır/

Yarpaq nədir? /Yarpaq budağın hissəsidir./

Canavar nədir? /Canavar vəhşi heyvandır./

Ağcaqanad nədir? /Ağcaqanad həşəratdır./

Sözlərin hər birində neçə heca, neçə hərf, neçə səs və sait olduğunu nəzərdən keçiririk.

| Sözlər: | Top | Yarpaq | Canavar | Ağcaqanad |
|---|---|---|---|---|
| Heca | 1 | 2 | 3 | 4 |
| Hərf | 3 | 6 | 7 | 9 |
| Səs | 3 | 6 | 7 | 9 |
| Sait | 1 | 2 | 3 | 4 |

Şagirdlər sözlərin tərkibinə aid suallarıma cavab verirlər: «top» sözündə 1 heca, 3 səs, 3 hərf, və 1 sait var. Onların cavablarını müqayisə edib, bərabərlik şəklində göstərirlər:

| | Sait | | Heca | Hərf | | Səs |
|---|---|---|---|---|---|---|
| Top | 1 | = | 1 | 3 | = | 3 |
| Yarpaq | 2 | = | 2 | 6 | = | 6 |
| Canavar | 3 | = | 3 | 7 | = | 7 |
| Ağcaqanad | 4 | = | 4 | 9 | = | 9 |

Nəticə: Sözdə neçə sait varsa, o qədər də heca olur; bir çox hallarda sözdə neçə hərf olursa, o qədər də səs olur.

Daha sonra verilmiş 4 sözdən cansız əşya seçilir (top), canlı bitki və heyvanlar, həşərat, vəhşi və yırtıcı heyvanlar ətrafında sorğu aparılır. Bu zaman dərs daha maraqlı keçməklə təlim daha keyfiyyətli nəticəsi silə fərqlənir.

İnteqrativ dərslərdə əldə edilmiş bilikləri şagird tək-tək informasiyalar kimi deyil, ətrafdakılar, yaxın fənlərlə əlaqəli qavrayır, praktikaya tətbiq edə bilir, uzun müddət unutmur, az vaxtda daha çox şey öyrənir ki, bu da təlimdə yüksək keyfiyyət əldə etmək istyən müəllim üçün ən səmərəli metoddur.

İnteqrasiya tərbiyə prosesində heç də təlim prosesindən az əhəmiyyət kəsb etmir. Adətən, tərbiyənin ayrı-ayrı sahələri üzrə (kiçikyaşlı məktəblilərin şüurlu intizam tərbiyəsi, düzlük və doğruçuluq tərbiyəsi, nəzakətlilik tərbiyəsi və s.) tədqiqatlar aparılmış, tərbiyə işi təşkil olunmuşdur. Belə olduqda bütövlükdə insani keyfiyyətləri formalaşan şəxsiyyətin – əsl insanın yetişdirilməsi unudulur. Tərbiyədə kompleks yanaşma ideyası məhz insani mənəvi cəhətdən saf, hərtərəfli inkişaf etmiş əsl vətəndaş kimi formalaşdırmaq üçün tərbiyə anlayışına daxil olan komponentlərin vəhdətdə götürülməsini – inteqrasiyasını tələb edir.

* * *

Əmək nəzəriyyə ilə təcrübənin canlı vəhdətidir.

*Aristotel*

Əkməmiş biçmək təmənnasında olma.

*Əvhədi*

Xoşbəxtliyi ancaq zəhmətlə əldə etmək olar.

*Saib Təbrizi*

Əmək bütün arzuların açarı, həyatın rəmzidir.

*Arif Ərdəbili*

Köksüz ağac olmadığı kimi, əməksiz, zəhmətsiz də səadət ola bilməz.

*M.M.Nəvvab*

İnsanın ləqayəti onun əməyi ilə müəyyən olunur.

*R.Vaqner*

# DİYARŞÜNASLIQ İŞİNİN YARANMASI TARİXİNDƏN

**Zülfiyyə Kərimova,**
Azərbaycan Müəllimlər İnstitutunun baş müəllimi

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi təhsil sisteminin qarşısında duran mühüm vəzifələrdən biridir. Bu vəzifəni yerinə yetirməyin çətinliyi məktəbin və müəllimlərin üzərinə düşür. Problemin həlli üçün ilk növbədə milli dəyərlərimizdən və tarixi ənənələrimizdən geniş istifadə olunmalıdır.

«Özündə vətənpərvərlik hissini, cəmiyyətə xidmət etmək meylini və ləyaqətlə yaşamaq bacarığını necə formalaşdırmalı?» sualı şüurlu həyata qədəm qoyan və həyatını ağıllı surətdə qurmağa çalışan hər bir gənci düşündürməlidir. Kiçik yaşlardan bu suala düzgün cavab tapmaqda gənclərə kömək göstərmək həyatın tələbidir. Həmin işin məsuliyyəti hər kəsdən artıq müəllimin, tərbiyəçinin üzərinə düşür. Məktəb diyarşünaslığı müəllimə, tərbiyəçiyə bu məsələni yerinə yetirməkdə yaxından kömək edə bilər.

Diyarşünaslıq işi pedaqoji anlayış olmaqla, XIX əsrdə formalaşmağa başlamışdır. XIX əsrin əvvəllərində İ.H.Pestalossi bu məsələnin üzərində ümumi şəkildə dayanmış, K.D.Uşinski isə rus pedaqoji fikir tarixində həmin problemi ilk dəfə nəzəri cəhətdən əsaslandırmışdır. Demək olar ki, məktəb diyarşünaslığının tarixi K.D.Uşinskinin yaradıcılığı ilə bağlıdır.

1880-cı ildən etibarən Qafqaz təlim dairəsi «Qafqaz mahallarının və tayfalarının təsviri üçün materiallar məcmuəsi» nəşr etməyə başlamışdı. Həmin məcmuə Qafqaz xalqlarının tarixinə, dilinə, mədəniyyətinə, ölkənin təbiətinə, təsərrüfatına və s. dair elmi cəhətdən son dərəcə əhəmiyyətli məlumatlara rast gəlmək mümkündür. Diyarşünaslıq işində fəal və planlı surətdə iştirak etsinlər deyə, geniş tərtib olunmuş «Qafqazın müxtəlif yerləri və onlarda yaşayan tayfalar haqqında məlumat toplamaq proqramı və daha sonralar doğma yeri təsvir etmək planı» Qafqazda çalışan bütün müəllimlərə çatdırılmışdı. Proqramda aşağıda göstərilən məlumatların verilməsi nəzərdə tutulurdu:

1) şəhərin, kəndin adı, adının mənşəyi və təsvir edilən yerin tarixi; 2) yerin xarakteri, böyüklüyü, xarici görünüşü, evlərin arxitekturası; 3) yerin coğrafi vəziyyəti; 4) iqlimi; 5) yerin geoloji tərkibi; 6) bitkilər aləmi; 7) heyvanat aləmi; 8) təsvir edilən yerin əhalisi; 9) əhalinin həyat tərzi; 10) tərbiyə; 11) inzibati idarə.

Müəllimlərə qədim sikkələri, silahları, kənd təsərrüfatı alətlərini, musiqi alətlərini, nağıl və əfsanələri toplamaq məsləhət görülürdü. Azərbaycanda

məktəblərin sayının az olmasına baxmayaraq, müəllimlərdən bir qisminin bu işdə iştirak etməsi və onların bir çox əsərlərinin nəşr olunması əhəmiyyətlidir. Həmin əsərlərdə Azərbaycanın 40-a yaxın kənd və şəhəri təsvir edilir, bu yerlərin tarixinə aid məlumatlar verilirdi.

Bakı quberniyasının Göyçay qəzası Lahıc kənd məktəbinin müəllimi Məmmədhəsən Əfəndiyev Lahıc kəndi haqqında diyarşünaslıq materialı toplayaraq nəşr etdirmişdir.

«Qafqaz mahallarının və tayfalarının təsviri üçün materiallar məcmuəsi»ndə əvvəlcə Yelizavetpol quberniyası, Nuxa qəzası Qutqaşen kənd məktəbinin müəllimi, sonralar isə Zaqafqaziya Müəllimlər Seminariyasının müəllimi olmuş Rəşid bəy Əfəndiyevin 2 əsəri çap edilmişdir.

Adı çəkilən əsərlərdə Qəbələ mahalı haqqında elmi əhəmiyyəti olan məlumata rast gəlinir. Qəbələnin coğrafi mövqeyinin təsvirindən sonra mAhalın qədim abidələrindən danışılır.

Həmin dövrdə şifahi xalq ədəbiyyatının toplanmasında və tarixi məlumatların yazılmasında müəllimlər səmərəli fəaliyyət göstərmişlər. Onlar Bakı quberniyasının Göyçay və Şamaxı qəzaları əhalisinin söylədikləri zərbməsəlləri toplamışlar. Həmin materialların qələmə alınmasında müəllimlərdən M.Mahmudbəyov (Göyçay məktəbi), S.M.Qənizadə (Bakı rus-tatar məktəbi), Kalvin (zemstvo məktəbi), N.Əlibəyov, S.Hacıbəyov (Məlik kənd məktəbi) yaxından iştirak etmişlər.

Azərbaycanda diyarşünaslığın inkişaf etdirilməsində Həsən bəy Zərdabinin də böyük əməyi vardır. Görkəmli maarifçi-təbiətşünas alimin redaktor olduğu «Əkinçi» qəzetində Azərbaycanın təbiəti geniş şəkildə təsvir edilmişdir. N.B.Zərdabi meşələrimizi ilk növbədə onları mühafizə etməyə borclu olan çinovniklərdən qorumağın lazım gəldiyini göstərirdi.

Hələ 1890-cı ildə Haşım bəy Vəzirov «Qarabağ türk dövləti», «Ermənilərin Qarabağda ruslar tərəfindən yerləşdirilməsi» və s. elmi məqalələr yazmış, «Qafqaz mahallarının və tayfalarının təsviri üçün materiallar məcmuəsi»ndə onların nəşrinə nail olmuşdu. Yerli diyarşünaslığa aid gerçəkliyi əks etdirdiyinə və ermənilərin alçaq siyasətini açdığına görə o, təbii ki, təqiblərə məruz qalırdı. Həmin materialların nəşrindən sonra ermənilərin tələbinə əsasən çar hökuməti N.Vəzirovu tutduğu vəzifədən, sui-istifadə etmək adı ilə damğalamış, şovinist pantürkist ittihamı irəli sürərək, onu 5 il müddətinə Stavropola sürgün etmişdi.

Buna baxmayaraq, o zamanlar müəllimlər özləri diyarşünaslıq işləri ilə məşğul olmaqla yanaşı, şagirdlərində də bu sahəyə maraq yaratmağa çalışırdılar. Nəticədə Qori Müəllimlər, Seminariyasının tələbələri, məktəb şagirdləri folklor nümunələrini, etnoqrafik tarixi materialları toplayır və öyrənirdilər.

Diyarşünaslıq sahəsində Qafur Rəşad Mirzəzadənin (1894-1943) də əməyi böyükdür. Onun bir sıra əsərləri bu baxımdan qiymətlidir. BunLardan

«Qafqaz coğrafiyası», «Azərbaycan coğrafiyası» və s. əsərlərinin adlarını çəkmək olar ki, bu kitablar ölkəmizdə diyarşünaslığın inkişafında mühüm rol oynamışdır. Diyarşünaslıq materiallarının tətbiqi şagirdlərin fənlərə marağını artırır, dərsi daha da əyaniləşdirir.

Sonralar Məhəmmədhəsən Baharlının (1896-1943) diyarşünaslığa aid materialları özündə birləşdirən diyarşünaslıq prinsipi əsas götürülməklə qələmə alınmış «Azərbaycan» (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizəm) kitabı 1921-ci ildə Azərbaycan və rus dillərində işıq üzü görmüşdü.

Burada müəllif Azərbaycanın real mənzərəsini vermiş, onun təbii şəraitini, relyefini, faydalı qazıntılarını, sərhədlərini, sularını, əhalisinin etnik tərkibini, sənaye və kənd təsərrüfatını zəngin materiallarla əks etdirmişdi. Azərbaycan reallıqdarını gözü götrməyən bədxahlarımızın səyi nəticəsində kitab uzun müddət (50 ildən artıq) qadağan olunmuşdur. Həmin kitabda «İran və Qafqaziya Azərbaycanın müttəhid (birgə) xətirəsi»nə də rast gəlmək mümkün idi. Xəritə Azərbaycanın doğma dilimizdə nəşr edilən birinci xəritəsi sayılır. M.Baharlı şəxsiyyətə pərəstiş illərinin qurbanı olmuşdur.

## NİTQ MƏDƏNİYYƏTİ

**Emiliya Kərimova,**
pedaqoji elmlər namizədi

Dil bəşər tarixinin, insan dühasının ecazkar və hikmətli kəşflərindəndir. Milyon illər əvvəl insanın mağaralardan çıxaraq yavaş-yavaş inkişaf edib, bugünkü mədəniyyət zirvəsinə gəlib çatmasında dilin rolu böyükdür. Dil anadır, analarımızın namusu, qeyrətidir, dil xalqdır, onun varlığıdır, nəsillərin daimi ünvanı, mənəvi pasportudur.

Hər bir xalq öz hisslərini və fikirlərini, təbiəti və cəmiyyəti dərketmə nəticəsindəki kəşflərini dil vasitəsilə ifadə edir və başqa xalqlara çatdırır. Eyni zamanda dil vasitəsilə onların kəşflərini öyrənir. Beləliklə, dil xalqlar arasında mənəvi rabitə yaradır, onları yaxınlaşdırır. Mahiyyət etibarilə hər bir dil ümumbəşəri hadisədir. Bütün dillərin təbiətində humanist məna, insaniyyət ruhu gizlənir.

Dil olmasaydı, bəşəriyyətin fəxri olan şifahi və yazılı ədəbiyyat xəzinəsi olmazdı. Dil olmasaydı Aristotel, Homer, Esxil, Nizami, Dante, Füzuli, Şekspir, Puşkin, L.Tolstoy, Nəsimi, S.Vurğun olmazdı. Onların sehrkar söz sərvəti yaranmazdı və nəsillərdən nəsillərə çatmazdı, insanın mənəvi aləmi qapalı qalardı, təbiətin sirlərini açmaq mümkün olmazdı... Ölməz elmi və bədii əsərlərin hansı dildə yaranmasının, varlığın bu və ya digər sirrini hansı dildə açılmasının fərqi yoxdur. Bunlar bütün xalqların, bütün bəşəriyyətin şərəfi və şöhrətidir. Bu cür əsərlər əvvəl-axır hamının malı olmuş, hamıya xeyir vermişdir. Uzun inkişaf yolu keçmiş Azərbaycan dili qədim dillərdəndir.

Bəşəriyyətin işıqlı gələcəyi uğrundakı mübarizədə təhsilə, biliyə, yüksək mədəniyyətə, habelə onun ayrılmaz tərkib hissəsi olan zəngin nitq mədəniyyətinə yiyələnmək zəruri şərtlərdən biri olmuşdur.

Nitq mədəniyyəti dedikdə, hər şeydən əvvəl, nitqin normativliyi, onun aydınlığı düzgünlüyü, məntiqiliyi, dəqiqliyi, obrazlılığı, cəmiyyətin tələblərinə cavab verməsi nəzərdə tutulur. Müasir elmi-texniki inqilab dövründə, insan zəkasının, azad və yaradıcı əməyin xariqələr yaratdığı şəraitdə kütlə qarşısında çıxış edən natiqin də, vətənin səadəti, xalqın rifahı naminə yeni-yeni ixtiralar edən alimin də, uşaqlara elmlərin əsaslarını öyrədən, onların hərtərəfli inkişafı ilə məşğul olan müəllimin də, sənaye müəssisələrində, tikinti obyektlərində, bu gün parta arxasında həyata hazırlanan şagirdlərin də qüdrətli nitq silahına yiyələnməsi, aydın, səlis və gözəl danışıq qabiLiyyətinə, fikri sadə və rəvan, dəqiq və sərrast ifadə etmək məharətinə – nitq mədəniyyətinə malik olması çox vacib və təxirəsalınmaz bir vəzifə kimi qarşıda durur.

Orta təhsilin təkmilləşdirilməsinə, yeniləşdirilmiş tədris proqramının tətbiqinə, müasir dərsə verilən tələblərin möhkəm yer tutmasına, gənc nəslin zəmanəmizin yüksək tələblərinə cavab verə biləcək səviyyədə böyüməsinə nail olmaq üçün şagirdlərin nitq mədəniyyətinə mükəmməl yiyələnməsi müstəsna əhəmiyyət kəsb edir. Nitq mədəniyyəti ilə əlaqədar qarşıda duran vəzifələrin müvəffəqiyyətli həlli üçün hər cür şərait vardır. Məktəblərin maddi-tədris bazası ildən-ilə yaxşılaşır. Tədris müəssisələri ali təhsilli müəllim kadrları ilə təmin olunur. Dil proqramları və dərslikləri təkmilləşdirilir. Son zamanlar televiziya ekranlarında, radioda təlim prosesinə kömək məqsədilə verilişlər təşkil olunur. Metodik ədəbiyyatın nəşri geniş vüsət alır. Müəllimin öz nitqi üzərində işləməsinə və onu şagirdlərə təqdim etməsinə əlverişli şərait yaranır.

Müəllimin şəxsi nümunəsi bu sahədə əvəzsiz rol oynayır. Gözəl danışıq qabiliyyətinə malik olan müəllim nitqin sadəliyinə və səlisliyinə, düzgünlüyünə və kəskinliyinə, aydınlığına və dəqiqliyinə, kömək edən əlamətlərə – fasilə və intonasiyaya, normal sürətə, ahəngə ciddi diqqət yetirir, sinonimlərdən, sabit söz birləşmələrindən, frazoloji tərkiblərdən, atalar sözü və zərb məsəllərdən yerində istifadə etməklə bir tərəfdən söhbətinin təsirliliyini artırır, fikrin məktəblilərə dəqiq çatmasına nail olur, digər tərəfdən isə şagirdləri də məhz bu cür danışmağa ruhlandırır.

Yalnız humanitar fənlərdən dərs deyən müəllimlər deyil, digər fənləri tədris edən müəllimlərin də nitq mədəniyyəti ilə ciddi məşğul olması, bu məsələyə diqqət yetirmələri, vahid nitq rejimini, orfoqrafiya ilə orfoepiya arasındakı qarşılıqlı münasibəti gözləmələri, hərfi tələffüzə, dialekt və şivə xüsusiyyətlərinə yol verilməməsi üçün səy göstərmələri, nitq mədəniyyəti ilə

əlaqədar sinifdən və məktəbdənkənar tədbirlərin fəal iştirakçısı olmaları vacibdir.

Yüksək nitq mədəniyyəti təkcə təlimin keyfiyyətinin yaxşılaşmasına deyil, şagirdlərin tərbiyəsində, mədəni davranışına müəllim-şagird münasibətlərinin yaxşılaşmasına da güclü təsir göstərir. Qabaqcıl müəllimlər yüksək nitq mədəniyyətindən gənc nəslin təlim-tərbiyəsində, dünyagörüşünün formalaşdırılmasında ümumi inkişafında mühüm vasitə kimi istifadə edir, onlara bir sıra zəruri praktik vərdişlərin aşılanmasına nail olurlar;

Bütün bunlarla yanaşı, respublikamızın ümumtəhsil məktəblərində, məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələrində çalışan müəllim-tərbiyəçilərin nitqində ciddi qüsurlar, narahatlıq doğuran hallar da müşahidə olunur. Vahid nitq rejiminə, ədəbi dil və tələffüz normalarına riayət etməyən, danışığında yerli dialekt-şivə xüsusiyyətlərinə yer verən müəllim-tərbiyəçilər şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrinə mənfi təsir göstərir, bu istiqamətdə aparılan işlərin kəsərsizliyinə, zəifləməsinə zəmin yaradırlar. Körpələr evi və uşaq bağçalarında işləyən tərbiyəçilərin qüsurlu nitqi bu baxımdan daha çox ziyan vurur, balacaların düzgün danışıq vərdişlərinə yiyələnmələrində xeyli çətinliklər törədir. Cümlədə sözlərin yerində işlənməməsi, intonasiyanın gözlənilməməsi, ədəbi tələffüz normalarına fikir verilməməsi, ifadələrin təhrif olunması, sadəliyin, dəqiqliyin nəzərə alınmaması, sözdə hərf və hecaların buraxılması, uşaqların yerli şivə xüsusiyyətləri ilə dindirilməsi və s. tərbiyəçilərin həm də sinif müəllimlərinin xeyli hissəsi üçün səciyyəvi xarakter daşıyır.

Nitq mədəniyyəti məktəbdə, digər tərbiyə müəssisələrində təlim-tərbiyə işlərinin səviyyəsinin yüksəldilməsində, şagirdlərin müstəqil fəaliyyətində, söz ehtiyatlarının zənginləşməsində, mütaliə ilə ciddi məşğul olmalarında, radio və televiziya verilişlərini yaradıcı şəkildə dinləmələrində, yoldaşlarının danışığına tənqidi yanaşmalarında, mənəvi zənginliklərində, kamil bir şəxsiyyət kimi formalaşmalarında son dərəcə böyük rol oynayır. Təhsil işçiləri, hər bir müəllim-tərbiyəçi bu xüsusiyyətləri daim diqqət mərkəzində saxlamalı, zəngin nitq mədəniyyətinə yiyələnməli, gözəl, düzgün, səlis və rəvan danışıqları ilə gənc nəslə nümunə olmalıdırlar.

Bu gün dilimiz müstəqillik yoluna qədəm qoymağımızla əlaqədar olaraq yeni inkişaf mərhələsindədir. Dilimiz çoxlu yeni sözlər, terminlər, ifadələr və tərkiblərlə zənginləşir. Azərbaycan dili fikir və hissiyyatın ən incə çaLarlarını ifadə etməyə qadirdir. İndi dünyada elə mürəkkəb, elə dərin elmi, fəlsəfi, iqtisadi və s. əsərlər tapılmaz ki, onu dilimizə tərcümə etməkdə çətinlik çəkək.

Atalar bizə «Dilini, elini qoru!» vəsiyyətini ediblər. Son bir neçə ildə, daha doğrusu, müstəqil olduqdan sonra dünya ilə əlaqələrimiz genişləndiyindən dilimizdə bəzi yabançı sözlər də artıb. Balalarımızın erkən xarici dilə

maraq göstərmələri, bəzi məktəblərdə I sinifdən həmin dildə təhsil almaları da bu prosesi gücləndirir. K.D.Uşinski «Ana dili» məqaləsində yazmışdır: «Ən böyük müəllim hər kəsin öz ana dilidir. Uşağı ana dilini öyrənməkdən məhrum etmək və bunun əvəzində xarici dili öyrənmək bağışlanılmaz nöqsandır». (Seçilmiş pedaqoji əsərlər. Bakı, 1953, səh. 115). Akademik L.B.Şerba haqlı olaraq qeyd edirdi ki, ana dilini tədrisdən kənar etmək olar, lakin onu şagirdlərin beynindən çıxarıb atmaq olmaz.

Yenilikləri layiqincə qiymətləndirməklə bərabər, müasir dil qurucuLuğunda irəli çıxan problemlərə və qüsurlara da göz yuma bilmərik. Dildə gedən proseslər həyatla, canlı insanın fəaliyyəti ilə bağlı olduğu üçün mürəkkəb proseslərdir. Dilin nəinki böyük məsələləri, hətta ayrı-ayrı sözlər, ifadələr və terminlər barədə əmələ gələn müxtəlif fikirlərdən ən doğrusunu seçmək dil inkişafının mühüm şərtlərindəndir. Bunun üçün də mümkün qədər geniş müzakirələr aparmaq, müxtəlif rəyləri səylə öyrənmək, diqqətlə tutuşdurmaq, təcrübədə yoxlayıb, ən doğrusunu qəbul etməkdən başqa yol yoxdur.

Mənə elə gəlir ki, ilk növbədə mətbuatın, elmi və ədəbi əsərlərin, bir sözlə, yazılı ədəbiyyatın, radio və televiziya verlişlərinin dilinə diqqəti artırmaq lazımdır. Onların dili gözəl və nümunəvi olmalıdır. Axı dil yalnız insanların şüuruna, fikrinə təsir etmir, ürəyinə, hissiyyatına da işləyir. Söz bizi ruhlandıra da bilər, həvəsdən sala da bilər, güldürə də bilər, ağlada da, cəsarətli də edər, qorxaq da, mərd də edər, namərd də... Sözün bu qüdrətini, insana dərin təsirini xalqımız çox gözəl ifadə edir: «Qılınc yarası sağalar, söz yarası sağalmaz».

Gözəl danışan bir insan yaxşı sənətkar kimi bizi valeh edir. Kamil ədəbi əsərlər bütün başqa məziyyətləri ilə bərabər, gözəl dili ilə də bizi sehirləndirir. Mənə belə gəlir ki, dil mədəniyyətinin ayrılmaz ünsürlərindən biri də dilin gözəlliyidir və hamı buna meyl etməlidir, xüsusən mətbuat! Təəssüf ki, hazırda sayı-hesabı bilinməyən qəzetlərin əksəyriyyətində dil qüsurları da çox olur. Unudulur ki, mətbuat, radio və televiziya kütləvi təsir, tərbiyə vasitələridir. Hər gün yüz minlərlə insan qəzet, jurnal və kitab oxuyur, Radioya qulaq asır və ya televiziya verilişlərinə baxır. Bütün bunlar adamların dilinə də təsir göbstərir. Yaxşı yazı, mənalı veriliş gözəl danışmaq, gözəl yazmaq həvəsi oyadırsa, pisi də pis vərdişlər aşılayır, doğma dilə laqeyd münasibət yaradır.

Bu baxımdan dərsliklər də nöqsanlıdır. Məktəb elə dərslik gözləyir ki, müəllimlər onunla yaxşı öyrədə, uşaqlar isə yaxşı öyrənə bilsinlər. Ona görə də dərslik hər bir şagird üçün dili öyrənmə prosesini maksimum dərəcədə asanlaşdırmalı, cəlbedici olmalıdır. Dərsliyin məzmunu və forması şagirdlərin təlim tapşırıqlarını sinifdə müəllimin rəhbərliyi altında və evdə müstəqil yerinə yetirmələrinə imkan verməli, tədris prosesində şagirdlərin təşəbbüskar fəallığını təmin etməlidir.

# ŞAGİRDLƏRİN YARADICILIQ QABİLİYYƏTİNİ İNKİŞAF ETDİRƏK

**Esmira Ağayeva,**
İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın
ibtidai siniflər üzrə direktor müavini

«Hər bir uşaq kəşf olunmamuş dünyadır» deyənlər haqlıdırlar. Müşahidələr göstərir ki, uşaqlar dünyaya gəldikləri gündən ətraf aləmə böyük maraq göstərirlər, gördüklərindən istifadə etməyə çalışır və erkən yaşlarından bədii yaradıcılıq qabiliyyətləri ilə diqqəti cəlb edirlər.

Hələ məktəbəqədər dövrdə uşaqların bir qismi şəkil çəkməyə, mahnı oxumağa, rəqs etməyə, musiqi bəstələməyə, şeir yazmağa böyük maraq göstərirlər. Onlar bu həvəs və bu qabiliyyətlərlə də məktəbə gəlirlər.

Uşaqların həyatında, estetik – emosional aləminin zənginləşməsində təhsilin ibtidai mərhələsi mühüm rol oynayır. Buna görə də müəllimlər I sinifdən başlayaraq hər bir uşağın incəsənətə olan meylinin, bacarıq və qabiliyyətlərinin səviyyəsini müəyyənləşdirmək, onlara lazımi istiqamət vermək, onları həvəsləndirmək lazımdır.

İbtidai siniflərdə müəllim kimi fəaliyyətə başladığım andan daim fərqlənən hər bir şagirdin istedadını, qabiliyyətini aşkara çıxarmaq yollarının axtarışında olmuşam. Ətrafdakı hadisələri hiss etmək, duymaq, gözəlliklərdən zövq almaq keyfiyyətlərini şagirdlərdə inkişaf etdirilməyə çalışmışam.

Oxu dərslərində, sinifdənxaric tədbirlərdə hər hansı bir əsəri səhnələşdirəndə müşahidə etmişəm ki, rollar bölüşdürülərkən kənarda qalan şagirdlər incik düşürlər. Belə dərslər şagirdlərdə böyük maraq yaradır. Onların hər biri öz rolunu hiss edir, duyur, yaşayır. Onların belə fəallığı, həvəsi məni dərslərə daha məsuliyyətlə hazırlaşmağa vadar edir.

Hər hansı mövzu üzrə dərsə hazırlaşarkən şagirdləri düşündürən, fəallaşdıran, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən metod və vasitələrdən istifadə edirəm.

Allah insana qarşısıalınmaz bir yaradıcılıq həvəsi verir. Bəzən biz özümüz mahiyyətinə varmadan sözün geniş mənasında çox şey yaradırıq: məsələn, vərəq götürüb xəyalımızda yaratdığımız bir mənzərə şəklini çəkirik, yaxud bir bənd şeir yazırıq, mahnı bəstələyirik, xalça toxuyuruq. Bu duyğuların, hisslərin bizə haradan gəldiyini belə izah edə bilmirik.

Şagirdlərimdə yaradıcı qabiliyyətləri inkişaf etdirməyə nail olanda çox sevinirəm. Bu gözəl balaların şeir hekayə yazmaq, şəkil çəkmək, bacarıqlarını inkişaf etdirdikcə bir daha əmin oluram ki, hər bir şagird bir aləmdir. Biz müəllimlər bu istedadlara çox incə, həssas, zərif,

mülayim bir pedaqoji ustalıqla yanaşmalıyıq. Onların təlim prosesində fəallaşmaları üçün hər bir şagirdə fərdi yanaşmağa, onun gücünə, marağına, bacarığına uyğun tapşırıqlar verməyə çalışmalıyıq.

Daim şagirdlərimdə vətənə, anaya, ataya, məhəbbət hissini, insanları sevmək, təbiətin gözəlliklərini, musiqini duymaq və qiymətləndirmək kimi hissləri inkişaf etdirməyi qarşımda məqsəd qoyuram. Onlarda böyüklərə hörmət və ehtiram, kiçiklərə kömək etmək kimi hissləri gücləndirməyə çalışıram. Hər bir şagird dərk edir ki, vətəninin kədəri onun kədəridir, vətəninin ağrısı, dərdi, onun ağrısı, dərdidir!... Hər bir qaçqının faciəsi, kədəri onun kədəridir. Xocalı faciəsini özümüzün faciəmiz, çadır şəhərciklərində yaşayan insanların çətinliklərini, hər birimizin çətinliyi kimi birlikdə hiss edirik, duyuruq.

Bu mövzularda səhnəciklər hazırlayırıq. Şagirdlər bu hadisələrlə əlaqədar şeirlər, hekayələr yazırlar: məsələn, Məmmədov Mübarizin "Şəhidlər", "Xocalı faciəsi" şeri, Bəşirin, Elnizin, Şakirin, Semralın "Xocalım" rəsmlərini buna misal göstərmək olar.

Şagirdlərin yaradıcılıq qabiliyyətinin inkişafında estetik tərbiyənin rolu çox böyükdür.

Tez- tez ekskursiyalar təşkil etməklə uşaqlarda təbiətə məhəbbət, hissi, duymaq, diqqətli olmaq, müşahidə etmək qabiliyyətini inkişaf etdirməyə çalışıram:

A) hər hansı əşyanın formasının müşahidə edilməsi: məsələn, müxtəlif ağacların yarpaqlarının formaca bir–birindən fərqlənməsinə diqqət yetirmək; səmadakı buludları rənginə, formasına görə bir–birindən fərqləndirmək, bu gözəllikləri müşahidə etmək;

B) meyvələrin, tərəvəzlərin, giləmeyvələrin rəngini, dadını, formasını müəyyən etmək, onların hər birinin hansı fəsildə yetişməsini müşahidə etmək;

C) rəngləri müşahidə etmək, səmanı, buludları, günəşi, suyu, çayı, dənizi, çiçəkləri, ağacların rənglərindəki şuxluğu, gözəlliyi müəyyən etmək;

Ç) səsləri hiss etmək; qızıl payızın şən səsini hiss etmək, son payız günlərinin vida melodiyası kimi yağan yağışın səsini, küləyin uğultusunu, çəmənlərin, çöllərin musiqisini, ayaqlarımız altında xışıldayan yarpaqların səsini duymaq, quşların vida mahnısını eşitmək;

D) təbiəti hiss etmək: meşənin gözəl ətrini, bahar çiçəklərinin incə nəfəsini, bahar fəslində bağlarımızı, parklarımızı bəzəyən ağacların cazibəsini, müxtəlif bitkilərin yarpaqlarının gözəlliyini: çobanyastığı, kəklikotu, yarpız, quşüzümü, ətirşah, nanə, reyhan, itburnu və s.

Bunları hiss etdirməyə çalışdıqca, görürəm ki, şagirdlərin estetik dünyagörüşü, zövqü, duyğuları sürətlə inkişaf edir. Onlar yaxşını pisdən, gözəli çirkindən, xeyirxahı zülmkardan fərqləndirmək bacarığına yiyələnirlər.

Şagirdlərimin yaradıcılıq qabiliyyətlərini daha da inkişaf etdirmək məqsədilə dərslərimdə istifadə etdiyim oyunlardan bir neçəsini oxuculara təqdim edirəm ("Uşaqlarımızın istedadına diqqətli olaq" Bakı, 2000. Ağababa İbrahimov, Yeganə Cəfərova).

**1) "Həm yaxşı, həm pis"** - oyunu eyni əşyada əks xüsusiyyətləri görmək bacarığının inkişafına, ziddiyyətləri tapmaq, eyni hadisəyə müxtəlif nöqteyi-nəzərdən yanaşmağa imkan verir.

Uşaqlarla keçirdiyimiz bu oyunda müxtəlif təbiət hadisələrini, fəaliyyət və əşyaları ifadə edən anlayışdardan istifadə olunur:

1) qış, yay, payız, yaz;
2) yağış, qar, günəş, külək, od;
3) yemək, yatmaq, meşədə gəzmək, dağa dırmaşmaq;
4) dərman içmək, idman etmək, yuyunmaq;
5) bıçaq, boşqab, şüşə, ütü.

Bir neçə nümunəni nəzərdən keçirək.

Yay: yaxşı tərəfi – yayda havalar isti olduğu üçün çimmək, günəş vannası qəbul etmək mümkündür, çox geyinmək lazım olmur. Pis tərəfi – çox isti olur, tez – tez susayırsan, günəşin altında çox qalanda ziyan olur və s.

Od: yaxşı tərəfi – isindirir, yeməyi bişirir, işıq verir, çay hazırlayırlar; pis tərəfi –dərini yandırır və ondan yanğın törəyə bilər.

Bıçaq: yaxşı tərəfi – əşyaları kəsirik, iti olanda yaxşı kəsmək olur; pis tərəfi –ehtiyatsızlıq etsək əlimizi kəsər.

Uşaq göstərilən hadisələrin, fəaliyyət və əşyaların müsbət və mənfi cəhətlərini tapdıqdan sonra ona istədiyi əşyalarda əks xüsusiyyətləri tapıb qiymətləndirməyi təklif edin.

**2) "İxtiraçı".** Oyunun ləvazimatı müxtəlif əşyalar ola bilər. Hər hansı bir əşyanı deyir və uşağa daha çox variant seçməyi təklif edirsiniz. Ona izah edin ki, oyunda qeyri – adi variantlar da seçə bilərsiniz: məsələn, kitab – oxumaq üçündür, ondan yük kimi də istifadə etmək olar (iki əşyanı yapışdırmaq üçün kitabı onların üstünə qoyurlar; kitabdan içərisində məktub, pul gizlətmək üçün də istifadə etmək olur).

**3) "Bacarıqlı əllər"** oyunu əvvəlkinə bənzəyir, lakin burada elə ləvazimat götürülür ki, ondan müxtəlif əşyalar düzəltmək mümkün olsun. Belə ki, siz əşyanı deyirsiniz, məsələn, ağac. Uşaq həmin əşyadan nə düzəltmək mümkün olduğunu söyləyir. Ağacdan düzəltmək mümkün olan məmulatların siyahısı: stol, karandaş, şkaf, kitab rəfi, pəncərə, qapı və s. yaxud başqa sözlər götürün: parça, metal, şüşə, plastmas, su,… Bacarıqlı əllər onlardan nə düzəldə bilər?

**4) "Zəkalılar üçün him – cim"** oyunu fikirlərin yenidən dəyişməsini, həmçinin him –cim, işarə və hərəkətlərlə idarəetmə bacarığını inkişaf etdirmək üçün nəzərdə tutulub. Oyun üçün heç bir əlavə ləvazimat lazım deyil. Başlanğıc üçün uşağa sizin göstərəcəyiniz pantomimaları tapmağı təklif edin: məsələn, ovçudan qaçan tülkünü, bataqlığa düşən xoruzu, bananı görüb sevinən şən meymunu, balı acgözlüklə yeyən ayı balasını, ağacdan meyvə dərib yeyən adamı və s. təsvir etməyə çalışın. Uşaq diqqətlə baxaraq sizin nə göstərdiyinizi müəyyənləşdirməlidir. Əgər uşaq çətinlik çəkirsə, ona kömək məqsədilə göstərdiyiniz hərəkət və işarələri təhlil etməlisiniz.

Elə ki, uşaq azacıq da olsa göstərdiyiniz pantomimlərinizi başa düşə bildi, ona əsas rolu oynamağı təklif edin. O, fikirləşdiyini sizə göstərsin, siz isə nə olduğunu tapın. Oyundan sonra uşaqla birgə nəyin alınıb – alınmadığını müzakirə edin.

Uşaqlar arasında "kim daha çox pantomim tapacaq" yarışı keçirmək də mümkündür.

**5) "Bəs sonra?"** oyunu uşağın yaradıcı təxəyyülünü və ədəbi qabiliyyətlərini inkişaf etdirir. Oyun üçün müxtəlif maraqlı süjetli şəkillərdən istifadə etmək olar. Uşağa şəklə baxmağı təklif edin və soruşun: "Bu süjetdəki surətlər sonra nə edə bilər?" Uşaq hər hansı bir əhvalat fikirləşib danışmalıdır. Uşağın diqqətini şəkildəki ikincidərəcəli detallara yönəldin. Qoy o öz hekayəsində bunlardan istifadə etsin.

**6) "Əhvalat fikirləş"** oyununda uşaq əhvalatı şəklə baxmadan fikirləşməlidir. Uşağa qeyri – adi mövzuda əhvalat fikirləşməyi təklif edin: məsələn, təpəgözün mars planetinə uçması və yaxud Cırtdanın pəhləvan olmaq istəyi barədə və s. Əgər oyunda bir neçə uşaq iştirak edirsə, onda hər kəs öz əhvalatını danışandan sonra ən maraqlısı seçilir.

Çox zaman uşaqlar olduqca sadə süjet fikirləşirlər (nağıldan, cizgi filmindən və s.). Əsərin maraqlı olması üçün verilmiş surətlər müxtəlif gözlənilməz vəziyyətlərdə olmalıdır. Daha da orijinal olması üçün personajı nağılın ikincidərəcəli üzvünə çevirmək lazımdır.

**7)"Buludlara səyahət"** oyunu yaradıcı təxəyyülün inkişafına aid yeni bir oyundur. Oyun üçün heç bir xüsusi ləvazimat hazırlamaq lazım deyil. Onu təbiət özü yaradıb: buludlar, qayalar, divarlardakı ləkələr, ağacın budaqları və s.

Yayda açıq səma altında dincələrkən və ya gəzinti zamanı uşaqlardan diqqətlə müşahidə aparmağı xahiş edin: məsələn, buludlara baxaraq onların nəyə oxşadığını müəyyənləşdirsin. Bu zaman heyvan, quş, nağıl qəhrəmanlarının surətlərini və s. görmək olar. Burada da orijinal fikirlərin çoxluğu yaxşı nəticədir.

**8) "Rəssama kömək edək"** oyunu sizə birgə yaradıcılıq sevinci gətirəcək. Bunun üçün kağız üzərinə insanın cizgi ilə təsvirini çəkib hazırlayan. Uşağa rəngli karandaşlar və flomasterlər verin. Uşağa deyin ki, "bir rəssam bu şəkli çəkib, ancaq sona çatdıra bilməyib. İndi biz onu tamamlamalıyıq". Siz uşağınızın bu insan haqqında uydurarak dediyi hər bir şeyi çəkin. "Burada kimin şəkli çəkiləcək (oğlan, yoxsa qız)? Gözləri hansı rəngdə olacaq? Saçları nə rəngdədir? Geyimi necədir? (Hamısını ətraflı surətdə müzakirə edin) və s." suallarla uşağa kömək edin. Həmçinin insanın əlində bir şey olub – olmadığını, yanında kimin və nəyin olduğunu fikirləşib çəkmək olar. Şəkil çəkilib qurtardıqdan sonra uşaqla birlikdə fikirləşmək olar ki, bu insanın adı nədir, o haraya gedir, getdiyi yerdə nə baş verəcək və s.

Müxtəlif sxematik təsvirlər, məsələn; qatar və ya maşın, ağac və ya güllər, ümumiyyətlə, istədiyiniz hər bir şeyi çəkməklə oyunu dəfələrlə təkrar etmək olar.

Bu oyun özünə inamı az olan uşaqlar üçün daha yaxşı nəticə verir. Oyunda uşaq üçün belə bir imkan yaranır ki, o hər şeyi deyir, böyük isə yerinə yetirir. Böyüklərin həvəslə onların dediklərini qəbul etdiyini gördükdə, əksər uşaqlar hər dəfə çox həvəslə və cəsarətlə yeni cavablar təklif edirlər. Bu oyun özünü hər şeyi bilən kimi göstərən uşaqlara başqalarının fikirlərini dinləməyi tərbiyə edir. Onlarla birlikdə cavabları müzakirə etmək, məsləhətləşmək olar; məsələn, qızın mavi gözlərinə hansı bant yaraşar? Qəhvəyi, yoxsa mavi? Onun çəkməsi nə rəngdə olsa yaxşıdır? və s.

Çox vacibdir ki, siz uşaqla birlikdə bir şəkil çəkəsiniz və bu şəkil haqqında yaratdığınız nağılda gözlənilməyən məqamlar olsun. Məlumdur ki, çox vaxt uşaq nağılları standart olur; məsələn, "Bu qız Leyladır. O gəzməyə gedir. O, gəzəcək, yemək yeyəjək və yatacaq". Bax burada siz uşağa nağılın məzmununu başqa istiqamətə yönətməyi təklif edin. "Leyla gedir və yolda danışan pişiklə rastlaşır...", lakin bu zaman uşağa kömək etmək lazımdır ki, o çox da öz xəyal dünyasının dərinliklərinə varmasın, çünki o hələ təxəyyülünü bir o qədər də idarə edə bilmir. Buna baxmayaraq, siz uşaqla birlikdə kiçik, lakin tamamlanmış bir nağıl quraşdırın.

Bu oyunun daha sadə üsulundan da istifadə edə bilərsiniz. Bunun üçün vərəq, flomaster və ya rəngli qələm lazımdır. □, △, o fiqurlarını çəkin və onlara oxşar müxtəlif şəkillər çəkməyi uşağa tapşırın.

Mən öz şagirdlərimə şəxsiyyət kimi yanaşıram. Onlara müstəqil işləmək, fikir söyləmək imkanları yaradıram. Bir də həmişə söyləyirəm siz hamınız gözəlsiniz, ağıllısınız, bacarıqlısınız. Hər bir işin öhdəsindən gələ bilərsiniz. Çalışıram ki, hər bir şeyə, hadisəyə yaxşı tərəfdən (prizmadan) yanaşsınlar, həmişə gülümsəsinlər, insanlara, yoldaşlarına xoş sözlər desinlər, heç kəsin qəlbini qırmasınlar.

Bəlkə də elə bu diqqətin, iş tərzinin nəticəsidir ki, çalışdığım sinif istedadlar sinfi adlandırırlar. Hazırda dərs dediyim sinifdə şagirdlərin əksəriyyəti, musiqiyə, rəsmə, şerə, rəqsə böyük maraq göstərir. Günay yaxşı mahnı oxuyur, Çinarə, İlahə gözəl rəqs edir, Çinarə həm də şeir yazır. Elniz, Elçin, Fərid şeir həvəskarıdırlar. Ülfətlə Mübariz isə sinfin kiçik şairləridir. Müxtəlif mövzulara müraciət edirlər. Fevralın 21 –də gimnaziyamızda "Ana dili" gecəsi ·keçirildi. Mübariz burada öz şeirlərini söylədi. Ülfətlə Elçin isə gecənin fəal iştirakçıları idilər. "Ana dilinə" həsr olunmuş tədbirlər Azərbaycan Dövlət televiziyasında da işıqlandırıldı.

# DƏRSDƏNKƏNAR ƏMƏK TƏDBİRLƏRİNDƏN İSTİFADƏNİN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

**Gülarə Kərimova,**
Bakı Dövlət Universitetinin müəllimi

Kiçikyaşlı məktəblilərin fərdi fizioloji, psixoloji xüsusiyyətləri, fiziki keyfiyyətləri, onların fəaliyyətlərinin bütün sahələrində dərin iz qoyur.

Təəssüf ki, şagirdlərin dərsdənkənar əməyinin əxlaqa təsirinin psixoloji məsələləri, xüsusilə, kiçikyaşlı məktəblilərlə iş prosesinin xüsusiyyətləri lazımi səviyyədə öyrənilməmişdir. Görkəmli alim D.İ.Feldşteynin tədqiqatı əməyin tərbiyəyə təsirinin ümumi psixoloji problemlərinə həsr edilmişdir. O, xüsusi şəraitdə – internat məktəblərində ictimai-faydalı əməyin əxlaqa təsirinin psixoloji məsələlərini ətraflı tədqiq etmiş və bu gün də öz əhəmiyyətini itirməyən elmi fikirlər irəli sürmüşdür. Yeniyetmələrin ictimai-faydalı əməkdə tərbiyəsinin pisxoloji problemləri də D.İ.Feldşteynin araşdırdığı sahələrdəndir.

Azərbaycanda əməyin əxlaqa təsirini tədqiq edən alimlərdən S.H.Məcidov və S.Əhmədov məsələyə pedaqoji cəhətdən yanaşmış, onun psixoloji əsaslarını işləməmişlər. Halbuki, dərsdənkənar vaxtlarda təşkil olunan əməkdən kiçikyaşlı məktəblilərin əməksevərlik tərbiyəsində istifadə üçün onun psixoloji cəhətlərini nəzərə almaq çox vacibdir. Kiçikyaşlı məktəblilərin əməyi psixoloji amilləri nəzərə almadan təşkil edildikdə, o nəinki tərbiyə məktəbinə çevrilmir, əksinə, uşaqlarda əməyə mənfi münasibət yaradır. Kiçikyaşlı məktəblilər üçün, təlimi dövrünün ilk mərhələsi, yeniliklərlə doludur. Burada uşaqlar üçün hər şey təzədir: yoldaşları da, müəllimləri də, oxuduqları sinif də, idman zalı da, bir sözlə, hər şey onları maraqlandırır. Hadisələr, əşyalar gözləri qarşısından sürətlə fırlanan kino lenti kimi gəlib keçir.

*Təlimdənkənar tədbirlər – müsabiqələr,* əl işlərindən ibarət sərgilərin təşkili və s. birincilərin qəlbində silinməz izlər buraxır. Budur, müəllim sinfə uşaqları həyəcanlandıran bir təkliflə gəlir:

Uşaqlar, bu gün mən yaxınlqdakı bağçaya getmişdim, balacalarla görüşdüm. Oradan çox həyəcanlı gəlmişəm. Son dövrlərdə bağçaya bir dənə də təzə oyuncaq alınmayib. Uşaqlar da deyirlər ki, oyuncaqları azdır. Hamısına çatmır. Nə deyirsiniz? Biz onlara kömək edə bilərikmi?

Uşaqlar sanki qulaqlarına inanmırlar. Axı, çox da uzaq olmayan keçmişdə onlar da oyuncaqlarla əylənirdilər. Ən böyük arzularından biri də elə çoxlu oyuncaq əldə etmək idi.

Kimsə yerindən deyir:

- Müəllim, biz onlara oyuncaq alaq. Mən anamdan pul istəyərəm, verəcək. Sonra o uşaqlara oyuncaq alarıq.

Yerbəyerdən səslər eşdilir:

- Hə, alarıq, alarıq!

Müəllim uşaqları diqqətlə dinləyir. Sinifdə sakitlik yaranan kimi, sözə başlayır:

- Uşaqlar, çox sağ olun. Mən də belə fikirləşərdim. Amma başqa bir fikir də var. Gəlin, özümüz həmin bağçanın uşaqlarına oyuncaqlar hazırlayaq. Siz necə bilirsiniz, hansı yaxşı olar? Hazır oyuncaqlar alıb vermək, yoxsa düzəltmək?

Sinifdə pıçıltılar eşidilir. Şagirdlərdən biri:

- Siz düz deyirsiniz, müəllim, düzəltmək yaxşıdır, bu onların daha çox xoşuna gələr.

Müəllim bunun üçün nə etmək lazım olduğunu izah edir. Uşaqlara tapşırıq verir. İmkan daxilində uşaqların hər birinin oyuncaq düzəltmək üçün gətirəcəyi şeylər müəyyənləşdirilir. Hansı gün, nə vaxt işə başlanılacağı da elan edilir.

Əlbəttə, burada uşaqların cəlb edildikləri əmək prosesində yaradılan əlverişli şərait başlıca məqsəddir. Yeri gəlmişkən, qeyd edək ki, belə şərait uşaqları daha həvəslə çalışmağa ruhlandırır, əmək onların əməksevərlik tərbiyəsinə daha güclü təsir edir. Biz bu kontekst daxilində əməyin əməksevərlik təsirini, uşaqların növbəti günlərdə yeni əmək tədbirlərinə münasibətlərini öyrənməklə müəyyənləşdirməyə çalışdıq.

Maraqlı cəhət budur ki, təqdim olunan şəraitdə çalışan şagirdlərin böyük əksəriyyəti yerinə yetirmək üçün «yeni iş sahələri» axtarır, öz aralarında və evdə bu barədə danışır, gördükləri işdən aldıqları sevinci bir-birləri ilə, valideynləri ilə bölüşür, müxtəlif təkliflərlə müəllimə müraciət edirlər.

Uşaqların görəcəkləri işə psixoloji cəhətdən düzgün hazırlanmaları əməyin uşaqların əməksevərlik tərbiyəsinə təsirini artıran mühüm amildir. İbtidai sinif şagirdlərinin dərsdənkənar vaxtlarda təşkil edilən əməyinin psixoloyi məsələləri dedikdə, ilk növbədə hazırlıq mərhələsinin psixoloji yararlılığı, ictimai-faydalı əməyin şagirdlərin əməksevərlik tərbiyəsinə təsiri baxımından əlverişli psixoloji şərait yaradılmasına görə belə qruplaşdırmaq olar:

1) işin sadəliyindən və ya mürəkkəbliyindən asılı olmayaraq uşaqların yaş, fizioloji, güc imkanlarına uyğun zəruri vasitələrin əldə edilməsi;

2) bu vasitələrlə işə düzgün rəhbərliyin olması;

3) iş prosesinin səmərəli təşkili;

a) işin metodikası (mərhələlər, icra mexanizmi);

b) işdə müəllim (tərbiyəçi) – şagird-müəllim-şagird münasibətinin səmərəliliyi.

Yeri gəlmişkən, qeyd edək ki, təkcə məktəbdə, məktəblilərə yox, istehsal sahələrində də münasibətlər nəticəyə ciddi təsir göstərir. Kiçikyaşlı məktəblilər bu münasibətlərə daha həssasdırlar. Onlar həmişə bu münasibətləri izləyir, fəaliyyətlərini o əsasda qurmağa çalışırlar. Bu isə ibtidai sinif şagirdlərinin əməksevərlik tərbiyəsində mühüm vasitə olduğunu sübut edir.

Əməyin yekunlaşdırılması onun əməksevərlik tərbiyəsinə təsirini artırmağa əlverişli şərait yaradan amil kimi qiymətləndirilir. Şübhəsiz, burada uşaqların diqqətinin öz zəhmətləri ilə əldə etdikləri uğurları cəlb edilməsi başlıca məqsəddir. İlk baxışda bəlkə də bir o qədər əhəmiyyətli görünməyən «Baxın, yadınıza salın. Siz işə başlamazdan əvvəl bu yerlər necə idi, indi necədir?», «Sağ olun, mən sizi elə belə təsəvvür edirdim: səliqəli, işgüzar uşaqlarsınız» kimi ifadələrin əməyin nəticəsinin psixoloji cəhətdən yekunlaşdırılmasında da rolu böyükdür.

Nəzərə almaq lazımdır ki, həm birinci, həm də ikinci amil (mərhələ) konkret olaraq yaxın perspektivdə yerinə yetiriləcək ictimai-faydalı əmək tədbirlərinin psixoloji cəhətdən əlverişliliyinə şərait yaratdığı halda, üçüncü amil (mərhələ) həm də nisbətən daha sonralar üçün nəzərdə tutulan ictimai-faydalı işlərə səmərəli şərait yaradır. Özü də bu xüsusiyyət təkcə «növbəti tapşırıqlar», «sonrakı il», «yuxarı siniflər» amilləri ilə bağlı deyil. İşin yekunlaşdırılması şəraiti psixoloji cəhətdən əlverişli olduqda uşaqların qəlbində daha silinməz izlər qoyur və bu günün uşağı sabah müstəqil həyata atılanda, istər icraçı, istərsə də rəhbər olsun, o əmək şəraitinin psixoloji cəhətlərini həmişə yadda saxlayır. Məktəblilərin əmək həyatına bütün göstəriciləri üzrə hazırlanmasının vacibliyi ondadır ki, indi məktəbdə uşağın əməyi üçün əlverişli psixoloji şərait yaratmaqdan söhbət gedirsə, yaxın gələcəkdə bu, uşaqların həmin şəraiti istehsalat sahələrində yaradacıqları şübhəsizdir.

Bütün bunlarla yanaşı, ictimai-faydalı əmək prosesində kiçikyaşlı məktəblilərin əməksevərlik tərbiyəsindən bəhs edəndə əməksevərliyin necə zəruri bir keyfiyyət olması ilə bağlı uşaqlarda inam yaradılmasından yan keçmək olmaz. İctimai-faydalı əmək prosesində iştirak uşaqlarda əməksevərliklə sıx bağlı olan əxlaqi şüurun yaranmasına kömək edir. Uşaq tədricən əməksevərliyin mahiyyətini dərk edir. İctimai-faydalı əmək uşağı sabahkı günün sosial həyatına psixoloji cəhətdən hazırlayır. İctimai-faydalı əməyin psixoloji təsirindən danışanda onun əxlaqi şüurla, demək olar ki, paralel formalaşmasına təsirini unutmaq olmaz.

Kiçikyaşlı məktəblilər üçün ictimai-faydalı əməyin əməksevərlik tərbiyəsinə psixoloji təsirinin əhəmiyyəti daha böyükdür, çünki müdriklərin dedikləri kimi, kiçik yaşlarda uşaqlara göstərilən təsirin izi daha silinməzdir, möhkəmdir. İctimai-faydalı əmək bir yandan əməyin əhəmiyyəti, əməyi sevməyin zəruriliyi barədə təsəvvür yaradır, digər tərəfdənsə, praktik fəaliyyət bu təsəvvürləri möhkəmləndirir. Müxtəlif əmək əməliyyatlarını müntəzəm yerinə yetirmək vərdişləri (bacarıqları) yaradır, onları möhkəmləndirir. Nəticədə qarşısına çıxan çətinliklərin aradan qaldırılması uşağın iradəsini möhkəmləndirir. İradə, anlayışlar, adətlər qarşılıqlı formalaşdığından ictimai-faydalı əməyin təsiri də güclüdür.

# TƏRBİYƏÇİLƏRİN UŞAQLARA MÜNASİBƏT FORMALARI

**Leyla Cahangirova,**
Yasamal Rayon Təhsil Şöbəsinin metodisti

Gənc nəslin azad düşüncəyə malik elmi dünyagörüşlü, yüksək mənəviyyatlı, vətəndaşlar kimi tərbiyə edilməsi müstəqil Azərbaycanın gələcək tərəqqisini təmin edəcək başlıca amildir. Bu baxımdan təhsil sistemində differansallaşdırma, fərdiləşdirmə və s. prinsiplərin ön plana çəkilməsi, tərbiyə işinin insanpərvərlik ideyaları əsasında qurulması vacib məsələlərdəndir.

Psixoloq və fizioloqların fikrincə, anadan olduğu vaxtdan məktəbə qəbul olunanadək keçən dövr uşağın fiziki və psixi inkişafının ən sürətli dövrüdür. Məhz bu dövrdə onda bütün həyatı boyu lazım olacaq insani keyfiyyətlər formalaşır, gələcəkdə müəyyən bir ixtisas almaq üçün bilik və vərdişlərin, müxtəlif fəaliyyət növlərinin bünövrəsi qoyulur. Şübhəsiz, bu problemin həllində əsas məsuliyyət tərbiyəçinin üzərinə düşür.

Tərbiyəçi – öz ixtisasını dərindən bilən, idrak nəzəriyəsini və pedaqoji elmləri mükəmməl əxz edən, uşaq şəxsiyyətinin formalaşması məqsədilə müxtəlif komunikativ vasitələrdən istifadə etməyi bacaran bir şəxs olmalıdır. Onun uşağa bir şəxsiyyət kimi hörmət və qayğısı, özünəməxsus ustalıqla uşaq aləminə, uşaq psixologiyasına daxil ola bilməsi yüksək nailiyyətlər qazanmasına, uşağın sevimlisinə çevirilməsinə imkan yaradır.

Hamıya məlumdur ki, son illər uşaqların bağçalara davamiyyəti gündəngünə azalır, onların bağçaya olan marağı sönür. Əlbəttə, bu, sosial-psixoloji, iqtisadi haldır və həmin problemlərin sözsüz ki, obyektiv və subyektiv səbəbləri var. Bir sıra subyektiv səbəblərdən biri də tərbiyəçi şəxsiyyəti, onun uşaqlarla işləmə metodudur.

Belə bir mənzərəyə nəzər salaq. Qrupda iki tərbiyəçi işləyir. Onlardan biri uşaqların sevimlisi, dostudur. Həmin tərbiyəçi günün birinci yarısında işləyəndə həmin gün uşaqların sayı əvvəlki günə nisbətən çox olur. Valideyn ilə qrup otağına daxil olan uşaq – Sona müəllim gəlibmi? – deyə salam əvəzinə səhər fəaliyyətini sual ilə başlayır. Müşahidələrdən göründüyü kimi, bu gün hansı tərbiyəçinin işləməsi uşaq üçün əhəmiyyətsiz deyil.

Təhsil şöbəsində metodist işlədiyim 6 il müddətində bu cür halların səbəbini araşdırmaq məqsədilə müşahidələr apararaq belə bir qənaətə gəldim ki, ümumiyyətlə, uşaq bağçalarında tərbiyə prosesinin müvəffəqiyyəti və uşaqların davamiyyəti uşaq bağçası rəhbərlərinin mədəniyyətindən, iş metodundan, demokratik idarəetmə qaydasından, tərbiyəçilərin birgə əməkdaşlığından və başqa faktorlardan asılıdır, lakin bütün bu faktolardan ən başlıcası, deyərdim ki, tərbiyəçilərin seçdikləri effektli təsir forması, təlim prosesinin humanist prinsiplər əsasında qurulmasıdır. Tərbiyəçilər uşaqların yaş xüsusiyyətlərinə uyğun fəaliyyət növünü seçərkən onun istək və arzusunu, ona qayğını ön plana çəkməlidir. Belə pedaqoji proses aşağıdakı tələblərə cavab verməlidir:

1) Qarşılıqlı hörmət, ünsiyyət atmosferində uşaq özünün lazımlı olduğunu duysun, başa düşsün ki, onu görür qiymətləndirirlər.

2) Yüksək mənəvi və əxlaqi hisslər əsasında qurulan pedaqoji proses uşaq kollektivini birliyə daxilən həmin hissələri duymağa, qayğıkeşliyə çağırsın.

3) Hər bir uşağın təbii imkanlarına istinad edərək onları yaradıcı axtarışlara sövq etsin, fəaliyyət növünü sərbəst seçməyə imkan yaratsın.

Təcrübələrdən və müşahidələrdən belə qənaətə gəldim ki, tərbiyəçilərin uşaqlara münasibətlərini şərti olaraq iki tipə ayırmaq olar:

1) tədris-intizam metodu;

2) şəxsiyyətə bələdlik (pedaqoji əməkdaşlıq) metodu.

Tədris-intizam metodunu əsas tutub işləyən tərbiyəçinin şüarı belədir: «Mənim kimi et!»

**Ünsiyyət forması:** məcburetmə, izah, qadağan, tələbkarlıq, cəza vermə, uzun-uzadı əxlaqi söhbətlər, qışqırmaq və s;

**Taktikası:** himayə və himayədarlıq;

**Mövqeyi:** proqramı yerinə yetirmək, müdiriyyətin, yoxlayanların rəğbətini qazanmaq, onların tələblərinə riayət etmək.

Bu üsulla işləyən tərbiyəçilər üçün metodik göstərişlər qanuna, uşaq təsir göstərmə obyektinə çevrilir. Tərbiyəçi, əsasən, frontal iş formasından istifadə edir, məşğələni dərs kimi keçirir. Belə şəraitdə uşağın fəallığı basılır, formal intizam yaranır, uşaq yaradıcılığı qəlibə salınır. Nəticədə böyüklər və uşaqlar arasında yadlıq, biganəlik yaranır. Adətən, belə uşaqlar çox qeyri-fəal olur, böyüklər olmayan yerdə özlərini tamamilə başqa tərzdə aparırlar, nəticədə ikiüzlülük yaltaqlıq, əsəbilik yaranır, uşaq «özü» üçün və «başqası üçün», «xalq üçün» standartı ilə yaşayır və çox vaxt bağçaya getmək istəmir.

Şəxsiyyətə bələdlik modeli ilə işləyən tərbiyəçilərin şüarı belədir: «Birgə edək».

**Ünsiyyət forması:** uşaq üçün psixoloji müdafiə iqlimi yaratmaq, sülhə, dostluğa, ədalətliliyə inamı artırmaq, uşağın psixoloji və fiziki sağlamlığını, fərdiliyini inkişaf etdirmək, sərbəst şəxsiyyət kimi yetişdirmək, özünə güvənmək hissi yaratmaq.

**Taktikası:** əməkdaşlıq, dostluq;

**Mövqeyi:** Bu, uşaqların marağından irəli gəlir onun inkişafı üçün şərait yaradır, sərbəstliyə, yaradıcılığa daha çox yer verir. Belə tərbiyəçilər uşağın daxili aləminə diqqət yetirir, valideynlərlə sıx əlaqə saxlamaqla uşağın meyl və marağının inkişafına səy göstərir, daim öz üzərində işləməklə professionallığını təkmilləşdirir. Nəticədə uşağın sərbəstlik dərəcəsi onun qabiliyyətlərinin və istedadının inkişafı üçün geniş imkanlar yaradır. Eqoistlik, şəxsiyyətsizlik aradan qaldırılır, dostluq, qarışıqlı əməkdaşlıq, qayğıkeşlik kimi yüksək mənəvi keyfiyyətlər üstünlük təşkil edir.

Ürək yanğısı və böyük təəssüf hissilə qeyd etmək istəyirəm ki, şəxsiyyətə bələdlik metodu ilə işləyən tərbiyəçilərimiz azlıq təşkil edir.

Pedaqoji proses zamanı uşağın inkişafını ziqzaqabənzər (əyri-üyrü, dolambac) xəttə oxşatmaq olar. Hər bir ziqzaq çətinlikdir və bir çətinliyi aradan qaldıran uşaq yeni çətinliklə qarşılaşır və əlbəttə, tərbiyəçinin qarşılıqlı münasibəti, qayğısı, fərdi yanaşma tərzi sayəsində uşaq çətinlikləri qət edir: məsələn, rəsm çəkə bilməyən uşaq rəsm məşğələsi olacağını eşidəndə həyəcan *keçirir, məyus olur, lakin uşağa məşğələdə fərdi yanaşan «Sən əlbəttə*

bacararsan əgər yaxşı çalışsan, mən də sənə kömək edəcəyəm» - deyən tərbiyəçi uşaqda öz qüvvəsinə inam yaradır, rəsmin alınmasına kömək edir və nəticədə təlim prosesinə maraq itmir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq tərbiyəçilərə uşaqlarla iş zamanı aşağıdakı vəzifələrə diqqəti artırmağa tövsiyə edirəm:

1) uşaq üçün əhəmiyyət kəsb edən və onun üçün daha maraqlı olan fəaliyyət növünü müəyyən etmək.

2) həmin fəaliyyət növünün inkişafı üçün şərait yaratmaq.

3) həmin fəaliyyət növünün inkişaf xarakterini daim diqqət mərkəzində saxlamaq.

4) həmin fəaliyyət növünün inkişaf prosesini həyata keçirmək.

Yuxarıda qeyd etdiyim kimi şəxsiyyətə bələdlik metodu ilə işləyən tərbiyəçilər oyuna geniş yer verirlər. Oyun uşaqların əsas faəliyyət növünə çevrilir. Onun köməyilə uşaq müxtəlif həyat hadisələrini dərk edir və ona münasibətini bildirir: məsələn, «Həkim» və ya «Xəstəxana» oyunu zamanı, adətən, uşaqlar «Həkim» və ya «xəstə» olmaqla bu peşənin professional xüsusiyyətlərini öz oyunlarında əks etdirir «xəstə» qulaq asmaq, iynə vurmaqla öz vəzifələrini bitmiş hesab edirlər, lakin bu zaman tərbiyəçi oyuna müdaxilə edir və «həkim» xəstə üçün «mərdlik», «cəsarətlilik» hədləri həmçinin bəzi «xəstə»lər üçün xəbərçiliyə yaltaqlığa, qorxaqlığa qarşı müxtəlif «dərmanlar» qəbul etməyi tövsiyə edir.

Tərbiyəçinin oyuna müdaxilə etməsi həm oyunu canlandırır, həm də bir sıra müsbət insani keyfiyyətlərin formalaşması üçün zəmin yaradır, uşağı düşünməyə sövq edir. Məşğələni daha canlı keçmək üçün tərbiyəçilər də oyun priyomlarından istifadə edirlər: məsələn, tərbiyəçi 4 dairəsində say zamanı 1-ci uşaqların sevdikləri «Turp» nağılı və onun personajlarından istifadə edərək həm miqdar, həm də sıra sayını möhkəmləndirir- Nəvə neçəncidir? (dördüncü), 4 rəqəmini kim gəlib nəvənin yanına qoyar? Bu yolla tərbiyəçi məşğələlərarası əlaqə yaradır, uşaqların yaddaşını möhkəmləndirir.

Digər bir misal. Təbiət hadisələrinə böyük maraq göstərən bitkilərə qulluqdan həzz alan uşaqlarda canlı aləmə və bitkilər aləminə marağı daha da gücləndirmək məqsədilə bir neçə təcrübə aparırlar. Belə ki, uşaqlarla birgə bitkinin böyüyüb, artması üçün lazım olan amillərin (hava, su, işıq və s.) təsirini təcrübədə əyani olaraq uşaqlara göstərmək məqsədilə 4 dibçəkdə eyni vaxtda baş soğan əkirlər. Dibçəyin birini vaxtı-vaxtında sulayıb torpağını yumşaldır, digərini qaranlıq bir yerdə qoyur, üçüncünü soyuducuda yerləşdirir və dördüncünü isə sulamayırlar. Nəticədə uşaq hər gün qulluq etdiyi soğanın zolaqlarının əmələ gəlməsinin və gündən-günə artdığının, digər bitkilərin isə artmadığının, solduğunun şahidi olurlar.

Bundan başqa uşaqlar qrupda olan canlılara-balıqlara quşlara qulluq etdikcə müxtəlif əmək vərdişlərinə yiyələnməklə eyni zamanda onlarda bitki və heyvanlara həssaslıq nəvaziş, qayğıkeşlik kimi insani keyfiyyətlər formalaşır. Belə təcrübələr maraqlı mübahisələrə səbəb olur, uşaqları məntiqi nəticəyə gəlməyə, mühakimələr yürütməyə sövq edir.

Yuxarıda qeyd etdik ki, uşaq şəxsiyyətinə hörmət edən tərbiyəçilərimiz hər bir uşağın fərdi xüsusiyyətlərini bilmək, daxili aləminə diqqət yetirmək

üçün psixoloji xidmətlərinin artmasına geniş yer verir, müxtəlif test və anketlərdən istifadə edirlər.

Təcrübə göstərir ki, uzunmüddətli müşahidələr və valideynlərlə birgə sorğulardan, anketlərdən istifadə edən və humanistlik prinsiplərini əsas tutan, şəxsiyyətə bələdlik metodu ilə işləyən tərbiyəçilərin uşaqların həssas qəlbli, gözəlliyə, təbiətə, musiqəyə, sənət əsərlərinə marağı olan hər şeyi bilmək istəyənlər kimi böyüyürlər.

## DEKORATİV RƏSM MƏŞĞƏLƏSİNDƏ MÜASİR YANAŞMA

**Xalidə Balayeva,**
Xətai rayonundakı 236 nömrəli körpələr evi –uşaq bağçasının müdiri



Məktəbəqədər dövrdə uşağın psixi həyatının bütün tərəfləri, demək olar ki, oyun prosesində formalaşır. Müasir inkişaf mərhələsində təhsil sisteminin ən aktual problemi hər bir uşağın şəxsiyyət kimi formalaşdırılması, milli ənənələrə sadiq, ümumbəşəri dəyərlərə söykənən, xalqına, vətəninə bağlı vətənpərvər vətəndaşlar tərbiyə etməkdir. Məşğələ zamanı uşaq düşünür, məsləhətləşir, cavab verir və təlim-tərbiyə prosesində ona bərabər hüquqlu subyekt kimi baxılır. Məşğələləri uşaqların meyli, marağı və potensial imkanları əsasında qurmağı əsas tuturam.

Məşğələni oyun üslubunda quranda, yəni motivasiya verəndə uşaqların meylləri, maraqları müəyyənləşir və yeni bir formada mənimsənilir: məsələn, mən dekorativ rəsm verərkən motivasiyanı əsas tuturam. Azərbaycan xalq nağılının qəhrəmanı «Tıq-tıq xanım»ı məşğələyə daxil edirəm və bu zaman uşaqlarda məşğələyə maraq oyadıram. Bu konsepsiya əsasında uşaqlarda oyunu təsviri fəaliyyət prosesi ilə birləşdirib, onların estetik tərbiyəsini, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirirəm.

Nağılın qəhrəmanı ilə uşaqlar arasında yaradılmış obrazlı münasibət məşğələnin gedişinə təkan verir. Azərbaycan milli naxışı butanın bəzədilməsini verərkən, xalq tətbiqi sənət nümunələrindən olan naxışlı qablara, xalça illüstrasiyalarına baxış təşkil edirəm. Burada «Tıq-tıq xanımın paltarındakı naxışlar da diqqətdən kənarda qalmır. Butanın nümunələri ilə uşaqları tanış etdim və onların görünüşünü, yəni küsülü və mehriban formasını izah edirəm. Bu zaman uşaqları qruplara bölürəm, diqqətlərini buta şəklində kəsilmiş qırmızi, mavi fonlu vərəqlərə yönəldir və onlara seçim aparmağı təklif edirəm. Bütün uşaglar üçün dərketmə bacarıqlarına uyğun şərait yaradıram və mövzunu onlara çatdırıram. Hər bir uşağa fərdi yanaşaraq kömək göstərir, diqqətli olmağa çağırıram.

Fərdi yanaşma yolu ilə uşaqlarda öz yoldaşlarına hörmət, qayğı və diqqəti tərbiyə edirəm. Yoldaşlarına mane olmamaq üçün sakit işləməyi öyrədirəm. Diqqətimi ilkin istedada yönəldirəm:

- Afərin Anaxanım, sən daha yaxşı çəkirsən.

Elçin rəsmi çəkmir. Fərdi yanaşıram, məsləhət verirəm, naxışı çəkmə yolunu yada salır, bir daha başqa vərəqdə göstərirəm. Uşaq çəkməyə başlayır və işi sərbəst başa vurur.

Differensiasiya və fərdi yanaşma metodundan geniş istifadə edirəm.

Məşğələ zamanı «Tıq-tıq xanım» nağılının qısaca uşaqlarla səhnələşdirdik. Bu, uşaqları diskussiya aparmağa, dilin və beynin inkişafına, sərbəst fikir yürütməyə həvəsləndirir, onlara bir sıra müsbət vərdişlər aşılayır. Məşğələnin əsas amili kimi mən tərbiyəçi-uşaq əməkdaşlığından istifadə edirəm. Çox maraq kəsb edən bir mühit alınır, əqli yorğunluq aradan götürülür.

Məşğələnin sonunda, rəsm işləri qiymətləndirilərkən Tıq-tıq xanım öz kəlağayını yerə salıb, uşaqlardan onların əl işləri ilə bəzədilməsini xahiş edir. Uşaqlar böyük bir həvəslə kəlağayının üzərində mənimlə birlikdə butalarla gözəl bir mənzərə yaratdılar. Qiymətləndirmə zamanı uşaqlar çox fəal idilər. Hansı rəsmi yaxşı və nə üçün çəkdiyini təhlil edə bilirdilər. Yekunlaşdırmaq üçün mən Tıq-tıq xanımla birgə onlara «Çox sağ olun» dedim. Tıq-tıq xanım Novruz bayramında belə gözəl kəlağayı ilə bayramı qarşılayacağına çox sevindi və uşaqları «Nəlbəki» musiqi sədaları altında rəqsə dəvət etdi. Mən, Tıq-tıq xanım və uşaqlar rəqs edirik. Bununla məşğələ başa çatır.

Bu məşğələni kompleks şəklində qurmuşdum. Burada mən müasir texnologiya və interaktiv təlim metodlarından istifadə edərək, uşaqların idrak fəallığının, diqqətinin, təxəyyülünün, təfəkkürünün inkişafına yönəltmişəm. Uşaqlar sərbəst və yaradıcılıq mühiti yaradaraq özlərinə inam hissi tərbiyə etmək, tədqiqatçılığa, təşəbbüskarlığa, yaradıcılığa maraq oyada bildim. Ümumiyyətlə, mən tərbiyə və təlim keyfiyyətinin yüksəldilməsində, müasir yanaşmaların bütün metodlarından istifadə etməyə çalışıram.

Məşğələnin təşkilini nəzərdən keçirək:

Proqrom məzmunu:

Uşaqların Azərbaycanın milli naxışları ilə tanışlığını davam etdirmək, onların buta formasında kəsilmiş vərəq üzərində dekorativ naxışı təsvir etmə bacarığını möhkəmləndirmək. Uşaqların estetik duyumunu, rənglərdən düzgün istifadə etmə qaydasını, fırçadan düzgün istifadə edərək dalğalı və düz xətləri yerinə yetirmək qabiliyyətini inkişaf etdirmək. Uşaqların kompozisiya duyumunu inkişaf etdirmək. Uşaqlarda xalq yaradıcılığına hörmət və məhəbbət hissini aşılamaq. Müvəffəqiyyətlə başa vurulmuş tapşırıqdan aldıqları əhval-ruhiyyəni yüksəltmək. Lüğət fondunu zənginləşdirmək «kəlağayı» sözünü öyrətmək. Müasir yanaşma metodlarından geniş istifadə etmək.

Metodik yollar:

Xalq tətbiqi sənət nümunələrindən olan naxışlı qablara, xalça illustrasi-

yalarına baxış. Milli naxışlar (paxlava, buta, dalğalı, dairəvi naxışlar) haqqında müsahibə. Kağız üzərində müxtəlif variantlarla naxışların salınması.

Buta nümunələrinin nümayişi və onların görünüşünə (küskün və mehriban formasına) baxış.

Azərbaycan xalq nağılının əsas qəhrəmanı «Tıq-tıq xanım»ın məşğələyə daxil olması.

Söz uslubundan istifadə edərək naxışın çəkilmə qaydasının nümayişi.

Vəsait:

Buta şəklində kəsilmiş qırmızı və mavi fonlu vərəqlər (uşaqların sayına görə); fırçalar, ağ quaş, stəkanlar, salfetlər, irihəcmli rəsm nümunəsi.

Məşğələnin gedişi:

Zınqırovun köməyi ilə uşaqların diqqətini özümə cəlb edirəm:

- Uşaqlar, bu gün mən qonaqla gəlmişəm. Bu Azərbaycan xalq nağılından gəlmiş, özünə dost axtarıb tapa bilməyən qəhrəmandır. Tapın görək kimdir o?

**Tıq-tıq xanımın mahnısını oxuyuram:**

Sürmə çəkdim gözümə,
Düşdüm çölün düzünə,
Dost axtardım özümə,
Dost gəl hardasan?
Tez gəl hardasan?
Tıq, tıq, tıq, tıq!

- **Salam uşaqlar! (Salam)**
- İndi siz məni tanıdınız? (bəli, Tıq-tıq xanım)
- Afərin!

**Tərbiyəçi:**

- Uşaqlar, baxın Tıq-tıq xanımın nə gözəl yaylığı, paltarı var? Görün paltarda nə gözəl naxışlar var? Kim deyər bu naxışın adı nədir? (buta) Suala cavab verən uşaqları ulduzla mükafatlandırıram. Sualı tapmadıqda isə onlara Azərbaycan tətbiqi sənətinin milli naxışlarından olan butadan söhbət açıram. Bu ornament öz gözəlliyi və zərifliyi ilə məşhurdur. Butadan milli qabların, xalçaların paltarların bəzədilməsində və bir çox memarlıq sənətində istifadə olunur.

Butanın bir neçə forması var. İki butanın bir-birinə qarşı dayanıb, başları bir-birinə dəyirsə- o barışan, dostlaşan, mehriban butalardır. Əgər butalar üzlərini o biri yana çeviriblərsə, küsəyən butalardır. (göstərmək)

Sonra uşaqlara müraciət edirəm. Bu zaman Tıq-tıq xanım mənim qulağıma nə isə deyir. Mən bu sözləri uşaqlara çatdırıram:

- Ay uşaqlar, Tıq-tıq xanım zənbilindəki örpəyi çıxarmasını xahiş edir.

Zənbildən örpəyi çıxarıb, açıram və onun böyük bir kəlağayı olduğunu uşaqlara göstərib deyirəm:

- Uşaqlar Tıq-tıq xanım bu kəlağayını «Novruz» bayramı üçün bəzədilməsini bizdən xahiş edir. Necə bilirsiniz bəzəyə bilərikmi bu kəlağayını?

- Bəli!

- Bizim masaların üstündə qırmızı və mavi fonlu buta şəklində kəsilmiş vərəqlər, ağ quaş, fırça və rəsm üçün lazım olan vəsaitlər qoyulub. İndi stullarınızı götürərək, istədiyiniz rəngi seçib, masanın arxasına oturun. Uşaqlara naxışın çəkilmə qaydasını nümayiş etdirirəm. İrihəcmli rəsm nümunələri göstərirəm. Başa salandan sonra uşaqlardan işə başlamalarını təklif edirəm. Uşaqlara diqqətli olmalarını, fikirləşmələrini, sərbəst olmalarını təklif edirəm.

Əvvəlcə məsləhətlə, sonra isə praktik yolla kağızın üzərində çəkib, ona göstərirəm. O biri uşaqlara mane olmamağı tapşırır, sərbəst çəkən uşaqları sakit tərifləyirəm. Məşğələnin sonunu əvvəlcədən uşaqlara xəbərdarlıq edirəm.

Məşğələdən sonra uşaqların rəsmləri quruyanacan xalçanın üstündə dairəvi oturub «Tıq-tıq xanım»ın nağılını yada salmağı təklif edirəm. Burada uşaqlar özləri rolları sərbəst seçirlər.

«Tıq-tıq xanım»ın rolunu oynayaraq mahnı oxuyuram, uşaqlar da mənə kömək edirlər. Bu nağılın qəhrəmanları maskalarını taxıb, yüksək əhvar-ruhiyyə ilə nağılı səhnələşdirirlər. Sonda uşaqlarla gəlağayını yerə sərir və uşaqlara öz əl işlərini gətirməyi təklif edirəm. Uşaqlar öz əl işlərini kəlağayının üzərinə tərbiyəçi ilə düzüb gözəl bir kompozisiya qururlar. Mən uşaqlara «kim daha gözəl, səliqəli çəkib?» sualı ilə müraciət edirəm. Uşaqların yaxşı işləri seçirlər və nə üçün seçdiklərini əsaslandırırlar. Bir neçə uşaq öz fikrini dedikdən sonra mən öz fikrimi izah etdim və uşaqların hamısına minnətdarlığımı bildirdim ki, belə gözəl rəsmlər çəkmişlər və belə həvəslə kəlağayını bəzəmişlər. Tıq-tıq xanım uşaqlara çox sağ olun deyib, onları «Nəlbəki» rəqsinə dəvət edir. Uşaqlar musiqi sədaları altında Tıq-tıq xanımla, tərbiyəçi ilə rəqs edirlər. Məşğələni tamamlayıram.

Beləliklə, uşaqları dekorativ rəsm sahəsində fəal yaradıcılığa yönəldirəm.

## MÜASİR TƏLİM TEXNOLOGİYALARI VƏ METODLARINDAN İSTİFADƏ OLUNMASINA RƏHBƏRLİK

**Sədaqət Rəhimova,**
Xətai rayonundakı 240 nömrəli körpələr evi-uşaq bağçasının müdiri

Azərbaycan Respublikasının bütün sahələrində olduğu kimi, təhsil sahəsində də genişmiqyaslı islahatlar aparılır. Azərbaycan təhsili qarşısında çox möhtəşəm vəzifələr durur.

Müasir inkişaf mərhələsində təhsil sisteminin ən aktual problemi hər bir uşağın şəxsiyyət kimi formalaşdırılması, əsl vətəndən yetişdirilməsindən ibarətdir. Şəxsiyyətin formalaşmasının bünövrəsi uşaq bağçasında qoyulur.

Məktəbəqədər ictimai tərbiyə təhsil sisteminin ilkin pilləsi olub, körpəlik və bagça yaşı dövründə uşaqların şəxsiyyətinin formalaşmasına, onların hər-

tərəfli tərbiyəsinə, inkişafına və məktəbə hazırlanmasına xidmət edir. Bu, artıq ölkəmizdə həyata keçirilən islahat proqramında öz əksini tapmışdır.

Milli ənənələrə sadiq, ümumbəşəri dəyərlərə söykənən, xalqına, vətənə, dövlətə və dövlətçiliyə bağlı vətənpərvər vətəndaşlar tərbiyə edilməsində uşaq bağçasının rolu təkzibedilməzdir.

Uşaq kollektivinin fəaliyyətinin bir növü onların məşğələdə təlimidir. Məşğələ zamanı uşaqlar düşünür, məsləhətləşir, cavab verirlər.

Bu gün təlim-tərbiyə prosesində dünya təcrübəsində geniş yayılmış yeni pedaqoji informasiya texnologiyalarından, interaktiv təlim metodlarından geniş istifadə olunur.



Hər bir müəssisə rəhbəri yaradıcı qabiliyyətə, dərin təfəkkürə malik olmalıdır. Müdir həm də bağçanın metodistidir, onun fəaliyyəti çox- cəhətlidir. Mən bir müəssisə rəhbəri kimi çalışıram ki, günün yarısını uşaqların təlim-tərbiyəsinə həsr edim, metodik göstərişimi daim lazımı səviyyədə həyata keçirirəm. Metodik iş kompleks şəkildə aparılan yaradıcı fəaliyyətdir. Təlim-tərbiyə prinsiplərinə əsaslanan metodik işlərin həyata keçirilməsi çox geniş və əhəmiyyətlidir. Ona görə də hər bir uşaq bağçasında elmi-metodik mərkəz fəaliyyət göstərir ki, tərbiyəçilərin nəzəri və metodik səviyyəsinin aşağı düşməsinə imkan verilməsin, əksinə onları müasir biliklərlə hərtərəfli silahlandırmaq mümkün olsun. Bu məsuliyyətli iş də müəssisə rəhbərinin üzərinə düşür.

Bu məqsədlə mən bir müdir kimi tərbiyəçiləri vaxtaşırı günün tələblərinə cavab verən biliklərlə silahlandırıram, tərbiyəçilərimiz uşaqlarla apardıqları təlim-tərbiyə prosesində uşaqlara müasir təlim metodları və pedaqoji texnologiyalardan istifadə etməklə təlim işləri aparırlar. Pedaqoji kollektivimiz məşğələ və məşğələdənkənar fəaliyyət prosesində fəal təlim metodlarından istifadə etməklə müasir dövrün tələblərinə cavab verən bilikləri uşaqlara çatdırırlar.

Uşaq bağçasında pedaqoji kollektivlə aparılan metodik işin əsas formaları aşağıdakılardan ibarətdir:

1) kadrlarla iş;
2) pedaqoji şuralar;
3) metodkabinetdə işin təşkili;
4) pedaqoji proseslərə baxış (açıq məşğələlər; kollektiv qarşılıqlı baxış);
5) seminar-praktikum;
6) məsləhət;
7) qabaq təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi, tətbiqi və yayılması;
8) tərbiyə-təlim işinə nəzarət (tematik yoxlama; frontal yoxlama).

Hər bir uşaq bağçasının müdiri çalışmalıdır ki, kadrlarla aparılan işi düzgün təşkil etsin, kadrların seçilməsi və yerləşdirilməsinə xüsusi diqqət yetirsin. Bu zaman təlim-tərbiyə prosesi müvəffəqiyyətlə həyata keçirirlər. Müdir tərbiyəçilərdə tapşırılan iş üçün məsuliyyət hissini formalaşdırmağı və fəallığı inkişaf etdirməyi bacarmalıdır.

Tərbiyəçiləri vaxtı-vaxtında RTŞ-də və rayonun uşaq bağçalarında keçirilən metodbirləşmələrə, seminarlara, açıq məşğələlərə cəlb edirəm. Eyni zamanda kadrların ixtisasının yüksəldilməsi məqsədilə ixtisasartırma kurslarına göndərirəm. İxtisasartırma, tərbiyəçilərin təlim və tərbiyə sahəsindəki müasir tələbləri aydın başa düşmələrinə, elmin və qabaqcıl təcrübənin ən yeni nailiyyətlərindən öz işlərində istifadə etmələrinə kömək göstərir.

Təlim də, tərbiyə də şəxsiyyətin hərtərəfli inkişafına xidmət edir. Təlim başlıca olaraq mənəvi zənginliyə, tərbiyə isə əxlaqi saflığa, fiziki kamilliyə xidmət edir.

Tərbiyəçilərimiz təlimin ənənəvi metodları ilə yanaşı, fəal təlim metodlarından da geniş istifadə edirlər. İnteraktiv təlim metodları və priyomlarının tətbiqi tədris prosesini xeyli intensivləşdirir. İnteraktiv təlim metodu üçün aşağıdakılar səciyyəvidir:

- uşağın fəal fəaliyyəti;
- tərbiyəçinin uşaqlarla və uşaqların bir-biri ilə əməkdaşlığı;
- didaktik oyunlardan geniş ölçüdə istifadə olunması;
- uşaqların qrupda qeyri-ənənəvi yerləşdirilmələri.

Rəhbərlik etdiyim kollektivdə iş təcrübəmizdə interaktiv təlim metodlarına geniş yer veririk. Bu metodlarla aparılan məşğələlərdə proqram materiallarının bütün uşaqlardan soruşulması və onların biliyinin bir məşğələdə qiymətləndirilməsi həm tərbiyəçinin, həm də uşaqların məsuliyyətini artırır. Bu metodun tətbiqi tədris prosesini xeyli intensivləşdirir və məşğələdə uşaqların fəallığı maksimum dərəcədə atrır. Nəticədə mövzu onlar üçün maraqlı olur.

Məşğələ zamanı istifadə etdiyimiz «söz assosiasiyası», «cütlər və qruplar», «fəallaşdırma məşqi», «əqli hücum», «rollu oyunlar», «diskussiya», «beyin həmləsi», və s. üsullar uşaqları müstəqil, azad, sərbəst hərəkət

etməyə, fikir yürütməyə həvəsləndirir. Bu zaman uşaqların şəxsiyyətinə ləyaqətnə hörmət edilir, onlar şəxsiyyət kimi qiymətləndirilirlər. Uşaqların biliklər qazanmalarına, onların bacarıq və vərdişlərinin möhkəmləndirilməsinə çox geniş imkanlar yaranır. Tərbiyəçi məşğələnin əsas amili kimi əks əlaqəyə girərək tərbiyəçi-uşaq əməkdaşlığında iştirak edir. Fəal təlim zamanı uşaqlar təlim prosesinin tamhüquqlu iştirakçıları olur və bilikləri fəal axtarış və kəşflər zamanı mənimsəyirlər. Uşaqlar tərəfindən biliklərin əldə edilməsi prosesində tərbiyəçi bələdçi, uşaqlar isə tədqiqatçı rolunu yerinə yetirirlər.

Fəal təlim metodlarına aşağıdakı xüsusiyyətlər aiddir:

- uşaqların fəal öyrənmə mövqeyi;
- təfəkkürün müstəqilliyi və sərbəstliyi;
- əməkdaşlıq – qrupda qarşılıqlı fəaliyyət;
- həyati məqsədlərə nail olmaq üçün biliklərin yaradıcı tətbiqi.

Məşğələlərin müvəffəqiyyətli keçməsi üçün tərbiyəçilərimiz iki əsas şərti gözləyirlər:

1) məşğələdə iştirak etmə mədəniyyəti: diqqətlə dinləmə vərdişi; fəallıq; qarşılıqlı fəaliyyət; şən əhval-ruhiyyə;

2) fəal təlim üçün mühit: interaktivlik; uyğunluq; əyanilik; yaradıcılıq; səmərəlilik; ardıcılıq; təlimin müxtəlif vasitələrindən istifadə.

Pedaqoji kollektivimiz təlim zamanı daha çox «açıq» suallara üstünlük verirlər. «Bu düzdür, elə deyilmi?», «hə», «yox» kimi suallar uşaqların fəallığını azaldır və onları tərbiyəçi ilə razılaşmağa vadar edir.

«Açıq» suallar isə qrupun fəallığını artırır və uşaqların müxtəlif istiqamətlərdə fikirləşmək qabiliyyətini stimullaşdırır. Bu suallar uşağı dərin düşünməyə vadar edir, onu hadisələrə öz münasibətini bildirməyə, öz fikrini sərbəst ifadə etməyə yönəldir.

«Açıq» suallarda tez-tez «nə?», «hansı?», «necə?», «nəyə görə?» sözlərinə müraciət olunur.

- Sən bu məsələ haqqında nə fikirləşirsən?
- Nəyə görə sən belə fikirləşirsən?
- Bu problemi necə həll etmək olar?
- Bu çox maraqlıdır, bəs sonra?
- Bu düzgündürmü? Aydınlaşdır.
- Bu ədalətlidirmi? Nəyə görə?
- Sən necə hərəkət edərdin?

Rəhbərlik etdiyim pedaqoji kollektiv təlim metodlarından istifadə etmək uşaqların fiziki, intellektual imkanlarını üzə çıxarır, hər bir uşaqla onun pisxologiyasına uyğun rəftar edir.

Pedaqoji prosesdə məşğələləri müşahidə edərkən, məşğələnin təhlilini 3 tipdə aparılır: tam, istiqamətli və müxtəsər.

Məşğələnin tam kompleks təhlili onun məqsəd, məzmun, didaktik psixoloji tərbiyəvi metodik və təşkilati aspektlərin ümumilikdə və qarşılıqlı əlaqədə hərtərəfli araşdırılması nəzərdə tutulur.

Məşğələnin istiqamətli təhlili onun hər bir aspekti üzrə dərindən təhlilini nəzərdə tutur (tərbiyəçinin təşkilati fəaliyyətinin təhlili, tərbiyəçinin təlim fəaliyyətinin təhlili, məşğələnin psixoloji təhlili).

Məşğələnin müxtəsər təhlili onun elmi-nəzəri və metodik vəziyyətinin qiymətləndirilməsi məqsədilə aparılır (Tərbiyəçi məqsədinə nail olubmu? Planda nəzərdə tutulan həyata keçirilibmi?).

Məşğələnin nümunəvi sxem üzrə təhlili müasir tələblərə cavab verir və konkret parametrlər üzrə aparılmalıdır. Bir sıra ölkələrdə təlim prosesi 28-40 parametrlər təhlil olunur. Artıq, bizim rayonumuzun məktəbəqədər müəssisələrinin çoxunda bu qayda ilə iş aparılır.

Məşğələnin təhlili 4 əsas istiqamətdə (aspektdə) aparılır:

1) tərbiyəçinin təşkilati fəaliyyəti;

2) tərbiyəçinin təlim fəaliyyəti;

3) tərbiyəçinin tərbiyəvi fəaliyyəti;

4) uşaqların fəaliyyəti.

Tərbiyəçinin qarşıya qoyduğu məqsəddən asılı olaraq məşğələnin tam təhlilinə və təlim fəaliyyətinin keyfiyyətinin öyrənilməsinə imkan yaranır. Bu iş usulu nümunəvi xarakter daşıyır və məqsəddən asılı olaraq dəyişə bilər.

Təlim prosesində məşğələnin 15-20 dəqiqəsini şagird fəal fəaliyyətdə olmalıdır. Tərbiyəçi izaha-suallara-düzəlişlərə 8-10 dəqiqə vaxt ayırmalıdır. Belə məşğələdə tərbiyəçi gərgin əmək sərf edir, uşaqlar arasında differensiallaşdırma aparır və fərdi məşğul olur, hər bir uşağın konkret fəaliyyət dairəsini müəyyənləşdirir.

Məşğələdə uşaqlarla əks əlaqə yaradılır, məşğələ tərbiyəçi-uşaq, uşaq-uşaq əməkdaşlığı şəraitində qurulur. O, məşğələ prosesində fərdi və qruplarla işi izləyir və istiqamətləndirir.

Müasir təlim yaradıcı, ilhamverici müsbət emosiyalarla zəngin olmalı, tərbiyəçi-uşaq təbəssümü ilə başa çatmalıdır.

Hər bir parametr 3 bal sistemi ilə qiymətləndirilir:

2 – bütün tələblər tam yerinə yetirilir;

1 - tələblər qismən yerinə yetirilir;

0 – tələblər ya tamamilə yerinə yetirilmir, ya da qeyri- qənaətbəxşdir.

Bu sxem üzrə işləyənlərin müasir təlim prosesinə yiyələndiklərini, bütün parametrlərin üstün və zəif cəhətləri aşkar olunur. Bu sxem üzrə məşğələ dinləmək bir sıra üstünlüklərə malikdir. Məşğələnin bu şəkildə dinlənilməsi müsabiqələrin nəticələrini bilmək, qabaqcıl təcrübəni öyrənmək, tərbiyəçilərin attestasiyası prosesində təlim-tərbiyə ilə bağlı zəngin məlumat bankının yaradılmasına, müvafiq təhlillərin aparılmasına imkan verir. Belə nümunəvi təhlili sxem nümunəvi xarakter daşıyır. Müasir təlim

texnologiyalarının, informasiya texnologiyalarının, kompüter texnikasının və s. pedaqoji prosesin geniş tətbiq ediləcəyini proqnozlaşdırır.

Müasir təlim-tərbiyə prosesinin vəhdətdə aparılması uşaqlarda müstəqillik, prinsipiallıq, qətiyyətlilik keyfiyyətlərini formalaşdırır. Tərbiyəçi öz mənəvi keyfiyyətləri ilə uşaq üçün şəxsi nümunəyə çevrilir.

Müəssisənin idarə olunmasında inzibati amirlik metodlarından əl çəkilib, ciddi nizam-intizam şəraitində demokratik iş üslubu yaradılmışdır.

Proqramın yerinə yetirilməsinə nəzarəti həyata keçirərkən pedaqoji prosesi müşahidə edirəm, uşaqlarla söhbət apararaq, onların işlərini təhlil edirəm. İnteraktiv təlim metodlarının təşkilində çətinlik çəkən tərbiyəçilərə məsləhətlər verirəm.

Son illərdə belə nəticəyə gəlmişəm ki, müasir təlim metodlarından istifadə etməklə uşaqlarımızda sərbəstlik, müstəqillik, fəallıq, azadfikirlilik, millilik və s. kimi müsbət keyfiyyətlər aşılamaqla, gələcək nəslin əsil vətəndaşların yetişdirilməsi sürətlənir.

## ZOLAQLARLA İŞLƏMƏK ÜÇÜN HAZIRLIQ ÇALIŞMALARI

**Xuraman Səlimova,**
Təhsil Problemləri İnstitutunun əməkdaşı

Zolaqlarla işləməzdən əvvəl «Barmaqlar salamlaşır» və «Salam, əllər» hazırlıq çalışmalarını yerinə yetirmək çox xeyirlidir. Tərbiyəçi uşaqlara xatırladır:

- Hər səhər siz uşaq bağçasına gəldikdə böyüklər və uşaqlarla salamlaşırsınız. Qrupa qonaqlar, yaxud oyuncaqlar gəldikdə, onlarla da salamlaşırsınız. Bu çox qədim ənənədir. Barmaqlar da salamlaşa bilirlər (sağ əlin baş barmağı növbə ilə şəhadət, orta, adsız və çeçələ barmağın uclarına toxunur). Çalışıb hər bir barmaqla salamlaşın: «Salam, barmaq!».

Sizin ovuclarınız da salamlaşa bilir. Ovuclarınızı aralayın və birləşdirin: «Salam, əllər!». Baxın biz onları necə bərabər birləşdiririk. Əgər hansısa əl yuxarı sürüşsə, barmaqlar bir-biri ilə salamlaşa bilməyəcək. Bir daha yoxlayın: «Salam, əllər!».

Bu çalışmalar barmaq gimnastikası zamanı iki-üç gün təkrar ediləcək. Sonralar uşaqlar zolaqlarla işlədikdə onları əlləri-barmaqları kimi təsəvvür edirlər. Bu, yeni materialın qavranmasını asanlaşdırır və zolaqlarla işləmə alqoritmini dərk etməyə kömək göstərir.

### Əmək təlimi üzrə ekoloji məzmunlu açıq kompleks məşğələnin konspekti

**Proqram məzmunu:** əşyada əlamətləri müəyyən etmək bacarığını formalaşdırmaq; uşaqları tanış olmayan nağıla qulaq asmağa həvəsləndirmək; müşahidəçilik qabiliyyətini əşyaya ardıcıl baxmaq bacarığını inkişaf etdirmək; uşaqları dovşanların həyat tərzi ilə tanış etmək, onların həyatında baş

verən mövsümi dəyişikliklər barəsində məlumat vermək; zolaqları ortadan qatlamaq, böyük və kiçik əşyaları ayırmaq bacarığını möhkəmləndirmək.

**Nümayişetdirici material:** yumşaq dovşan oyuncağı, konfet, kök, kələm, küknar budağı və qozası, kağızdan ağcaqayın yarpağı, yeni il yolkası təsvir olunmuş şəkil, tülkü maskası.

**Lazım olan vəsait:** qalın ağ kağızdan 1x19 sm ölçülü üç zolaq yapışqan, qələm, kağız salfet.

Məşğələ başlamazdan əvvəl uşaqlar yerdə xalçanın üstündə yarım dairə şəklində otururlar. Onlardan bir neçə metr aralı üzərində əl əməyi üçün materiallar qoyulmuş stollar düzülür.

**Məşğələnin gedişi:**

Tərbiyəçi:

- Uşaqlar, bu gün bizim bağçamıza qonaq gəlib. Onlar meşədən bu gözəl kisəni gətiriblər. Kisəni açmaq üçün bu tapmacanın cavabını tapmaq lazımdır.

Qulaqları dik olur,
Quyruğu gödək olur.

Uşaqlar «dovşan» cavabını verdikdən sonra tərbiyəçi kisəni açıb, içindən dovşanı çıxarır:

- Baxın, onun necə gözəl kürkü var. O nə rəngdədir? Yayda dovşanın kürkü boz idi. Boz rənglə kölgədə kolların altında gizlənmək rahat olurdu. Qar yağdıqda isə dovşan ağ kürkünü geydi ki, onu tülkü tapa bilməsin. Tülkü onun ardınca qaçdıqca, o çalışır ki, izlərini gizlətsin. Dovşan kötüyün üzərinə atılıb, gözünü yumub, qulaqlarını özünə tərəf sıxıb, büzüşüb, səssiz oturur. Elə bil kötüyün üzərinə qar yağıb. Tülkü uzun müddət dovşanın izləri ilə qaçır, amma onu tapa bilmir. O, yorulur və geri qayıdır. Bəs biz tlüküdən gizlənə bilərikmi? Gəlin yoxlayaq.

<u>Hərəkətli oyun «Tülkü və dovşanlar».</u>

1. Dovşanlar otlaqda atılıb-düşürlər.
2. Tülkü oyanır. Dovşanlar çömbəlib, oturaraq gizlənirlər.
3. Dovşanlar tülküdən qaçırlar.

Dovşan:

- Siz tülküdən gizlənirsiniz. Bəs mən nə edim? Axı qar yoxdur. Qara yaş yolda o mənim ağ kürkümü görən kimi məni tapıb yeyəcək (ağlayır).

Tərbiyəçi:

- Ağlama, dovşan. Konfet istəyirsənmi?

Dovşan:

- Xeyr. Dovşanlar konfet yemirlər.

Tərbiyəçi - Bəs dovşanlar nə yeyirlər?

Dovşan – Kök, kələm.

Tərbiyəçi - Ağlama, dovşan. Biz sənə kömək edərik. Biz sənə qar dənəcikləri düzəltməyi öyrədərik. Uşaqlar stolların arxasında əyləşirlər.

Tərbiyəçi:

- Dovşan, diqqətlə bax və yadda saxla. Əvvəlcə bütün zolaqları qatlayıb ortasını tapmaq, qələmlə nişanlamaq lazımdır ki, yapışdıranda itməsin. Əvvəlcə Məstan pişiyin bığı kimi iki zolaq, ortasına daha bir zolaq yapışdırırıq. Bax, dovşan, bu da sənin qar dənəciklərin.

Dovşan – Necə soyuqdurlar. Hətta lampalar da dondular.

Bədən tərbiyəsi dəqiqəsi. «Qızınaq».

Dovşan qar dənəciklərinə görə uşaqlara təşəkkür edir.

Tərbiyəçi:

- Tezliklə bizdə Yeni il bayramıdır. Gəlin dovşanı qonaq dəvət edək.

Uşaqlar:

- Dovşan, bayramda bizə qonaq gəl!.

Dovşan:

- Gələrəm, hədiyyə gətirərəm. Sizə meşədən nə gətirim?

Uşaqlar:

- Küknar ağacı.

Dovşan:

- Mən hələ balacayam və heç vaxt küknar görməmişəm. Bu nədir? (ağacı göstərir).

Uşaqlar:

- Bu ağacdır.

Dovşan:

- Meşədə ağac çoxdur. Mən necə bilim ki, bunlardan hansı küknar ağacıdır?

Uşaqlar:

- O, iynəyarpaqlıdır, yaşıldır və qozaları var.

Tərbiyəçi:

- Bəli, onun yarpaqlarının yerində yaşıl tikanlardır. Bilirsən niyə? Onda nağıla qulaq as.

Tərbiyəçi:

- Sən bilirsənmi, qışda ağaclar yatır. Yatmamışdan qabaq isə, payızda soyunur, yarpaqlarını tökür. Ancaq küknar öz yarpaqlarını soyunmaq istəməyib. O, onları nazik yaşıl borucuqlara çevirib. (Kağız yarpaqda göstərir). Yarpaqlar donub iynəyə çevrilib. Beləcə küknar yayda da, qışda da iynə paltarındadır. Onun haqında xalq arasında belə deyirlər:

- Qışda və yayda – eyni rəngdə, həmişə yaşıldır.

Yazda ağaclar oyanıb, yeni yarpaqlardan paltar geyinəndə küknar yenə də öz köhnə paltarında qalır. Yeni ildə o ən bəzəkli ağaca çevrilir. Onu parlaq oyuncaqlar, muncuqlar, rəngli fənərlərlə bəzəyirlər. Onu nə üçün bəzəməyin səbəbini isə dovşan küknar gətirəndə danışacağam. İndi isə dovşanın meşəyə, bizim isə gəzintiyə getmək vaxtımızdır.

Bununla tərbiyəçi məşğələni yekunlaşdırır.

**Qar dənəcikləri**

Nümayişetdirici material. 1 x 19 sm ölçülü qalın ağ kağızdan kəsilmiş 3 zolaq.

İş üçün material: stolun üzərində 1x19 sm ölçüsündə müxtəlif rəngli qalın kağızlardan kəsilmiş zolaqlar (hər bir uşağa eyni rəngli üç zolaq).

Tapşırığın yerinə yetirilməsi. Uşaqlar bığ düzəldib ona şaquli zolaq yapışdırırlar. Qar dənəciyi hazırdır.



Qar dənəcəyi, bığ, gözlük, karnaval eynəyi

Kukla Leyla yada salır ki, gəzinti vaxtı uşaqlar qar adamı rəngləmişdilər. O, qar dənəciklərini də rəngləməyi məsləhət görür. Uşaqlardan hər biri 3 ağ zolaq götürüb, qar dənəcəyi düzəldir. Dənəciklərdən hazırlanmış zəncirlə qrupu bəzəyib, bayrama hazırlaşırlar.

**Karnaval gözlüyü**

İş üçün material. 1x 19 sm ölçülü eyni rəngli 2 zolaq, qələm.

Oyunun məzmunu. Tezliklə Yeni ildir. Uşaqlar bayrama hazırlaşırlar. Nağılda hər birinin rolu var. Onlar Yeni il maska və kostyumlarını müzakirə edirlər. Məstan pişik heyvanların karnavalına hazırlaşır. Uşaqlardan karnaval gözlüyü istəyir. Qrupda belə şey yoxdur. Həkimin gözlüyü yaramaz. Onlar müalicə etmək üçündür. Onu oyun üçün taxmaq olmaz. Telefonla kukla Leyla Cırtdandan öyrənir ki, belə gözlüyü sehrli zolaqlardan düzəltmək olar. Özü də təkcə Məstan pişik üçün deyil, bütün uşaqlar üçün.

Çalışmanın yerinə yetirilməsi. Uşaqlar əvvəlcə bığı yapışdırır, sonra isə zolaqların yaxın ucları damcı şəklində birləşdirib, gözlük forması alırlar. Birləşdirmə üsulunu əvvəlcə əllə göstərmək lazımdır.

**Svetofor**

Nümayişetdirici material: yol hərəkəti qaydaları haqqında olan məşğələlər üçün vəsait.

İş üçün material: qırmızı, sarı və yaşıl rəngli kağızdan 1x 19 sm ölçülü, hər rəngdən iki zolaq, 1x 19 sm ölçülü qalın ağ kağızdan kəsilmiş 1 ədəd zolaq.



Svetofor

Oyunun məzmunu. Cırtdan itib. O nə qrupda, nə də bağçanın həyətində yoxdur. Kukla Leylaya zəng edib bildiriblər ki, o yolu düz keçməyib və maşın altına düşüb. İndi o xəstəxanadadır. Bir neçə gündən sonra Cırtdan başı *sarınmış* halda gəlir. O uşaqlara danışır ki, yolu necə qaçıb və maşını görməyib. Aydın olur ki, Cırtdan yol hərəkəti qaydalarını bilmir və svetoforun siqnallarını başa düşmür. Uşaqlar, ona piyada keçidinin harada olduğunu və svetoforun rənglərinin mənalarını izah edirlər. Cırtdan uşaqlardan xahiş edir ki, ona svetofor bağışlasınlar.

Tapşırığın yerinə yetirilməsi. Uşaqlar üç kürədən svetofor düzəldirlər. Qırmızı rəngə qarmaq yapışdırırlar ki, əldə tutmaq və yaxud asmaq rahat olsun.

# MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRİN İDMAN AVADANLIQLARI VƏ QURĞULARI

**Şövkət Abdullayeva,**
ARTPİ-nin elmi işçisi

Məktəbəqədər müəssisələrdə hərəkətlərin inkişafı üzrə məşğələlərin təşkilinə xidmət edən idman avadanlıqları və qurğuları geniş tətbiq olunur. Bu, uşaqların hərəkət bacarığı və vərdiş ehtiyatlarının kifayət qədər genişlənməsinə imkan verir, onların fiziki inkişafına müsbət təsir göstərir.

Avadanlıqlardan idman məşğələlərində səmərəli istifadə olunması uşaqların orqanizmində fiziki yükü tənzim edir.



Şəkil 1. İlişgənli gimnastika skamyası

Avadanlığı elə yerləşdirmək lazımdır ki, uşaqlar lazım gəldikdə onları yerinə qoya bilsinlər. Zalın istifadə olunan sahəsini idman avadanlıqları ilə həddindən artıq yükləmək olmaz. Onlar divara möhkəm bənd olunmalı, məşğələ vaxtı təhlükəsizlik təmin edilməlidir.

İlişkənli gimnastika skamyası (şəkil 1) uzunluğu 2,5-3m, eni 25-30sm. Skamyanın uzunluğu bu və ya digər hərəkətləri daha çox yerinə yetirmək imkanı verir. Skamya bir tərəfdən hamar, o biri tərəfdən iki arxdan ibarətdir. Skamyanın dirəkli oturacağı bu arxların üzərinə qoyulur.

Adi gimnastika skamyası uşaqların istirahəti, həmçinin gimnastik hərəkətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulur. Skamya 2 dayaqda (hündürlüyü 30 sm) birləşdirilmiş oturacaqlardan (uzunluğu 3 m, eni 24 sm) və dayaqları birləşdirən brusun (uzunluğu 2 m 99 sm, eni 14 sm) ibarətdir. Skamya taxta məmulatlardan hazırlanır və rəngsiz lakla laklanır.

Gimnastika divarı üç-dörd halqadan ibarət ola bilər. Dırmanma vərdişlərinin təkmilləşdirilməsi üçün nəzərdə tutulur.



Şəkil 2. Gimnastika bölmə-divarı

Gimnastika bölmə-divarı (şəkil 2) dırmanmaq və gimnastik hərəkətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulur. Tək və dəstin tərkibində istifadə oluna bilər. Hündürlüyü 2m 70 sm, eni 80 sm olan çərçivədən və daxildən ona bərkidilmiş turnikdən (uzunluğu 1m, diametri 3 sm) ibarətdir. Onların arasındakı məsafə 20 santimetrdir.

Divara və döşəməyə bərkilidir.

Bölmə-divara bərkidilmiş turnik (şəkil 3) gimnastik hərəkətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulur, tək və ya dəst tərkibində istifadə oluna bilər. Çərçivədən və daxildən quraşdırılmış turnikdən ibarətdir. Turnik çərçivənin hündürlüyü boyunca yanlarında olan dəliklərdə quraşdırılır. Bölmə divara və döşəməyə bərkidilir.Asılan alətlər üçün bölmə-divar (şəkil 4) topların, ip nərdivanın, dırmanma kəndirinin asılması üçün nəzərdə tutulub. Üst dirəyində qarmağı olan çərçivədən ibarətdir. Divara və döşəməyə birkidilir.



Şəkil 3. Bölmə-divara bərkidilmiş turnik

Yükü dolamaq üçün uyğunlaşdırılmış gimnastika divarı (şəkil 5) biləyin və çiyin əzələlərinin inkişafı üçün nəzərdə tutulub.



Şəkil 4. Asılan alətlər üçün bölmə-divar



Şəkil 5. Yükü dolamaq üçün uyğunlaşdırılmış gimnastika divarı

### Hərəkətlər

1. Başda qum kisəsi olmaqla, adi addımlarla yeriş.
2. Üzbəüz yeriş.
3. Ayaqlar və əllər üzərində yeriş.
4. Oturaq halda arxaya əyilərək əlləri müxtəlif vəziyyətə gətirmək.
5. Oturaraq, yerə toxunana qədər arxaya əyilmək.
6. Qarnı üzərində uzanaraq, əlləri müxtəlif vəziyyətə gətirməklə, əyilmək.

Nahamvar lövhə (şəkil 6). Yeriş, qaçış və uşaqlarda ayaq altının düz olmasının profilaktikası (ayıdabanı-yastıayaq) üçün nəzərdə tutulub.



Şəkil 6. Nahamvar lövhə

Sökülüb-yığılan körpü (şəkil 7). İki paralel düzülən borudan ibarətdir (diametri 10 sm, uzunluğu 3 m). Hər boru, dəliyi olan altlıq üzərində yerləşdirilir. İstənilən vaxt altlığı yığışdırıb, boruları asan çıxarmaq olar. İki uşaq görpünü tez və asanlıqla quraşdırıb-yığışdıra bilər. Körpünü üfüqi şəkildə quraşdırmaqdan ötrü eyni hündürlükdə (40 sm) 4 altlıqdan istifadə olunur. Maili halda olması üçün isə hər borunun bir sonluğuna bir az kiçik hündürlüklü (25 sm) bənd edilir.



Şəkil 7. Sökülüb-yığılan körpü

### Hərəkətlər

1. Körpünün bir borusu üzərində yeriş.
2. Adi addımlarla eyni vaxtda hər iki boru üzərində yerimək.
3. Üzbəüz yeriş.

a) borular üzrə adi addımlarla yarıya qədər getmək, yolu yoldaşıyla dəyişib, yenidən hər iki boru üzərində sona çatmaq;

b) düz addımlarla bir boru üzərində körpünün sonuna qədər getmək, yarıda irəlidə gedən yoldaşı ilə (müvazinəti itirmədən, onunla toqquşmadan) yerini dəyişmək.

4. Başda, əllərdə, çiyində müxtəlif əşya və ya çox da ağır olmayan yüklə yerimək.
5. Körpünün ortasında quraşdırılan qapıdan keçməklə yerimək.

6. Körpünün hər iki borusu üzərində (bir-birindən 30 sm aralı) ayaqlar və əllər üzərində yerimək.

7. Körpü üzərində topu başla və əllərlə diyirləndirmək. Universal gimnastik qurğular kompleksi (şəkil 8). Məktəbəqədər uşaq müəssisələrinin həyətyanı sahələrində və idman zallarında kompleksdən istifadə olunması rahat və məqsədəuyğundur. Konstruksiyada çox da böyük dəyişiklik etmədən kompleksi divara yığmaq olar ki, bu da zalın istifadə olunan hissəsini boşaltmağa imkan verir.



Şəkil 8. Universal gimnastik qurğular kompleksi

Kompleksdə əsas hərəkətlərdə müxtəlif tapşırıqlar yerinə yetirmək olar.

**İkitərəfli nərdivan** (şəkil 9). Eni 45 sm olan iki tərəfdən ibarətdir. Bu qurğunu, uşaqların yaşından asılı olaraq müxtəlif bucaq altında quraşdırmaq olar. Hündürlüyü 1- 1,5 m bölmələrin arası 15-20 sm). Əsasən 2-3 yaşlı uşaqların müstəqil oyunları və məşğələləri üçün nəzərdə tutulub. İlin isti dövründə, uşaqlar günün əksər hissəsini açıq havada keçirdikləri vaxt bu qurğunu idman meydançasına çıxarırlar. Bu qurğuda yerinə yetirilən hərəkətlər uşaqların əzələlərini möhkəmləndirir və onların qoçaq, iradəli böyüməlarinə təsir göstərir.



Şəkil 9. İkitərəfli nərdivan

**Taxta kub** (tərəflərin ölçüsü 20 sm və 40 sm). Bütün yaş qruplarında bir çox fiziki hərəkətlərin yerinə yetirilməsində istifadə olunur.

**Yumşaq kub** (tərəflərin ölçüsü 30 sm, çəkisi 0,5 kq). Gimnastik hərəkətlərin və oyunların yerinə yetirilməsində istifadə olunur. Örtükdən və süni dəridən ibarətdir. İstənilən vaxt açılıb-bağlanır.

**Taxta təpəcik**. Əsasən, kiçik yaş qrupunun məşğələlərində istifadə olunur.

**Yellənən körpü (şəkil 10)**. Uzunluğu 2 m, eni 40 sm, hündürlüyü 63 sm. plankalar (tamasalar) arasında 5-6 sm məsafə olur. Bütün yaş qruplarında fiziki hərəkətlərin yerinə yetirilməsi üçün zəruridir. Körpünün vəziyyətini dəyişməklə, uşaqlara müxtəlif hərəkətləri nümayiş etdirmək olar. Qurğudan idman zalında və qrup otağında istifadə etmək olar.



Şəkil 10. Yellənən körpü

**Hərəkətlər**

1. Körpünün üzərində (əllər və ayaqlarla) yeriş.
2. Körpünün altı ilə sürünmə.
3. Qarnı üzərində uzanaraq (ayaqlar uzanır, əllərlə körpünün plankalarını tuta-tuta dartınaraq) körpü üstündə sürünmək.
4. Körpünün hər iki tərəfindən üzbəüz gəlməklə addımlamaq, yarıda bir-birindən tutmaqla yeri dəyişmək.



Şəkil 11. Zənbil

**Zənbil (şəkil 11).** Bütün yaş qruplarında topu üfqi istiqamətdə atmaq üçün istifadə olunur. Belə zənbildə topları zaldan qrup otağına və ya meydançaya keçirirlər. Bir-birilə dirəklərlə birləşdirilmiş alt və üst halqalardan ibarətdir.

**Halqa atma (şəkil 12).** Üfqi, maili və nağıl personajlarının fiquru formasında olur. İdman zalında, həmçinin uşaq bağçasının meydançasında istifadə oluna bilər. Uşaqlarda atma vərdişlərinin təkmilləşməsinə kömək edir.



Şəkil 12. Halqa

## *HİKMƏTLİ SÖZLƏR*

Meyvəli ağaca daş atan çox olduğu kimi, elm və mərifət sahibinə də zəhmət və əziyyət verən çox olar.

***M.T.Cidri***

Tərbiyəçinin şəxsiyyətinin gənc qəlbə təsiri elə bil tərbiyəvi qüvvəyə malikdir ki, onu nə dərsliklər, nə əxlaqi nəsihət, nə də cəza və rəğbətləndirmə sistemi əvəz edə bilər.

***K.D.Uşinski***

# ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİL VƏ ONUN PSİXOLOJİ ƏSASLARI

**R.İ.Əliyev,**
ARTPİ-nin şöbə müdiri, psixologiya elmləri namizədi

Azərbaycan Respublikasının müstəqillik qazanması ilə digər sahələrdə olduğu kimi, təhsildə də bir sıra islahatların aparılması zərurəti yaranmışdır. Bu zərurət bir neçə səbəbdən meydana çıxır: a) Azərbaycanın inkişafı etmiş dünya dövlətlərinə inteqrasiyası; b) iqtisadi-siyasi sistemin dəyişməsi və onun tələblərinə uyğun şəxsiyyətlərin formalaşdırılması; c) azad, demokratik, humanist cəmiyyətin möhkəmləndirilməsi, dönməz xarakter alması üçün gənc nəslin bu ruhda böyüməsi; ç) təhsilin şəxsiyyətyönümlü olması.

Bu vəzifələrin yerinə yetirilməsi isə təxirə salınmadan müxtəlif amilləri nəzərə almaqla çoxsaylı tədbirlərin həyata kecirilməsini vacib şərt kimi irəli sürür. Bunlardan ən zəruri olanları aşağıdakılardır:

- təhsilin məzmununun yeniləşməsi;
- münasibətlər sisteminin qarşılıqlı kömək, hörmət və əməkdaşlıq üzərində qurulması;
- müəllim və şagirdlərin özünüfəallaşdırması, özünüreallaşdırması və özünütəsdiqi.

Göründüü kimi, bütün bunlar subyektiv amillərə, koqnitiv inkişafa, şagirdlərin özünütəsdiqinə əsaslanır.

Vaxtilə A.Eynşteyn yazırdı: «Aydın deyil ki, müasir təlim metodları niyə uşaqların sərbəstliyinə bu qədər biganədir, onu məhv edir. Axı, bu körpə çiçəklərə ilk növbədə azadlıq lazımdır. Bunsuz onlar inkişaf edə bilməz, məhv olarlar».

Doğrudan da ənənəvi təlim metodları, əsasən, hər hansı fənn üçün tərtib olunmuş tədris proqramlarına, frontal ünsiyyətə, təlim müvəffəqiyyətinin zahiri əlamətlərə görə qiymətləndirilməsinə əsaslanır ki, bu da şagirdlərin idrak motivasiyasına, sərbəst yaradıcılıq axtarışlarına heç nə vermir. Hesab edirik ki, bunun alternativi olaraq təhsil humanistləşdirilməli, koqnitiv inkişaf, səmərəli əməkdaşlıqdan ibarət olmalıdır. Bunun üçün isə təlim-tərbiyənin şəxsiyyətyönümlü olması, müəllim-şagird münasibətlərinin qarşılıqlı etimada əsaslanması, sinif kollektivinin birgə fəaliyyəti, təlimin motivasiya imkanlarının fəallaşdırılması, təlimin humanistləşdirilməsi baxımından müəllimin peşəkarlığı və şəxsi keyfiyyətlərinin yüksəldilməsi, müəllim və şagirdlərin şəxsiyyətinin inkişafı üçün stimul və şəraitin yaradılması vacib şərtlərdəndir.

Psixoloji baxımdan təlimin iki növü mövcuddur: a) düşündürücü idraka əsaslanan; b) mənasız, yalnız mexaniki hafizəyə əsaslanın təlim. Bunlardan birincisi sərbəstliyə, sərbəst düşüncəyə, şəxsi maraq və fəallığa, axtarış və

təcrübəyə əsaslanır. İkincisi isə biliklərin mənimsənilməsinə, intellektin kənardan süni şəkildə inkişafına, xidmət edir. Birincidə şagird təhsilin subyekti, ikincidə isə obyektidir. Belə olduğu halda, müəllim nə qədər səy göstərsə də mənalı, düşündürücü öyrənməni təmin edə bilmir, şəxsiyyətin inkişafında yaradıcı əməkdaşa deyil, əksinə, ona mane olan rolunu oynayan şəxsə çevrilir. Müasir dövrdə isə müəllimin vəzifələrindən biri şagirdin koqnitiv inkişafını, təşəbbüskarlığını stimullaşdırmaqdan ibarətdir.

Məktəbəqədər yaşlı uşaqların həyatı çoxsaylı öyrənmə və yalnız öyrənmə prosesindən ibarətdir. Onlar praktik olaraq daim nəyi isə axtarır, öyrənir, bitib tükənməyən marağını təmin etməyə çalışırlar, lakin təhsilin ilk ilindən vəziyyət köklü surətdə dəyişir.

Məşhur amerikan psixoloqu K.Rocersə görə bütövlükdə məktəb təlimi bir-birinə əks olan iki qütbə ayrılır. Bu qütblərdən biri ənənəvi avtoritar təlimdir. Yəni, uşaq ilk gündən bilir və qəbul edir ki, qaydalara əməl etməli, səhv buraxmamalı, yaxşı qiymət almağa çalışmalıdır. Şagirddə belə fikir formalaşır ki, təlim maraqsız, çətin, məktəb isə xoşa gəlməyən yerdir. Digər qütb isə şəxsiyyətyönümlü, humanist və sərbəst təlimdir. Şagird dərs ilinin ilk günlərindən qəbul edir ki, müəllim qayğıkeş, mehriban in: andır. Nəyin pis, nəyin yaxşı olduğunu ondan öyrənmək olar. O, şagirdlərinə hörmət və məhəbbət bəsləyir, onları öyrədir.

Ənənəvi təhsilin qüsurlu cəhətlərindən biri təlim-tərbiyə prosesində müəllimin rolunun həddindən çox qiymətləndirilməsi, şagirdlərin rolunun azaldılmasıdır. Bu, XVIII əsrin sonu, XIX əsrin əvvəllərində yaranan, hələ də davam edən pedaqoji fikrin məhsuludur. Həmin dövr üçün bu doğrudan da pozitiv, proqressiv, irəliyə doğru atılan, inkişafa stimul verən yanaşma olub, uşağın sosiallaşmasına xidmət edirdi. Psixologiya tarixçisi L.Demoz bu dövrü tərbiyənin sosiallaşması dövrü hesab edir. Tərbiyənin məqsədi uşağın iradəsini heç də özünə tabe etdirmək deyil, gələcək, müstəqil həyata hazırlamaqdır, lakin belə halda uşaq sosiallaşmanın sübyekti deyil, obyekti hesab olunur.

Aydındır ki, indi belə yanaşma qəbul olunmur. Təhsilin məqsədi isə şagirdin obyekt yox, subyekt kimi inkişafını təmin etməkdən ibarətdir. Təhsil bilik və informasiya mənbəyi deyil, koqnitiv inkişaf, təlim vasitəsilə şəxsiyyətin özünüinkişafını motivləşdirmək mənbəyi olmalıdır.

Müasir dövrdə bütün ölkələrdə, xüsusilə siyasi, iqtisadi sistemi dəyişən ölkələrdə, o cümlədən Azərbaycanda təhsil sistemi, təlim-tərbiyə metodları, onların məzmunu və məqsədi daim yeniləşir, təkmilləşir, əsas diqqət inkişafetdirici və tərbiyəedici təlimə yönəldilir. Belə dəyişiklik təhsilin yeni təfəkkürün formallaşmasına istiqamətləndirilməsini yeni təlim texnologiyalarının tətbiqini vacib amil kimi irəli sürür, lakin bu zaman ənənəvi təlim metodlarından, həyatda sınaqdan çıxmış, təsdiqini tapmış təcrübədən də imtina etmək olmaz.

Təhsildə aparılan yeniləşmələr müəllimlərin də fəallaşmasına, özünütəsdiqinə, peşəkarlığının artırılmasına xidmət etməlidir. Yəni, yeni sistem nə

qədər mütərəqqi, elmi olsa belə onları həyata keçirən müəllimdir. Demək, təhsil sistemində şagirdlə yanaşı müəllim şəyxsiyyətini, peşəkarlığını da yaddan çıxarmaq olmaz. Psixoloji ədəbiyyatda (Ş.A.Amonaşvili, V.A.Suxomlinski, K.R.Rocers və b.) yaradıcı müəllimin fəaliyyət ustanovkasının üç mühüm növü göstərilir. Onlardan birincisi «həqiqət», «aşkarlıq» adlandırılır və göstərilir ki, müəllim öz fikir və düşüncələrini, hisslərini şagirdlərlə bölüşdürür, şagirdlərlə qarşılıqlı fəaliyyətə və ünsiyyətə meyl edir. Bu, rollu davranış adlandırılır və ənənəvi təlim metodlarından sayılır. Rollu davranışın əsasını mənəvi və didaktik prinsiplər təşkil edir. Burada şagirdə məhəbbət, onların mənəvi zənginliyinə hörmət, potensial imkanlarının üzə çıxarılması özünü göstərir. Bu prinsiplə fəaliyyət göstərildikdə şagirdin daxili aləmi, meyl və maraqları, qabiliyyəti üzə çıxır, cəzaya, qadağalara yer qalmır.

Vaxtilə L.N.Tolstoy yazırdı: «Uşaqlar məşğul olmağa gəlirlər, mən də *onlarla birlikdə öyrənirəm». O, «Əlifba»nı, «Oxu üçün kitab»ı* belə hazırlamışdır: mətni oxuyur, şagirdlər danışır, sonra mətn redaktə olunurdu. L.N.Tolstoyun prinsipi belə idi: «Şagirdə yuxarıdan aşağı baxma, onunla bərabər səviyyədə dayan».

İkinci ustanovka «qəbul et», «inan», «etibar et» prinsipinə əsaslanır. Bu prinsip şagirdlərdə özünə inamı artırır, onun qabiliyyət və imkanlarını inkişaf etdirir.

Üçüncü ustanovka «empatik anlama» adlanır. Bu, müəllimin şagirdin daxili aləmini görməsi, onun davranışına şagirdin gözləri ilə baxmasıdır. Yaradıcı müəllim şagirdlərlə qarşılıqlı münasibət və ünsiyyət qura bilir. Ətrafdakı hər şeyə, hətta öz davranışına belə onların gözü ilə baxır.

Beləliklə, şagirdin daxili aləmini başa düşən yaradıcı müəllim özünü təbii aparır, öz daxili dünyasını dərk edir. O, şagird şəxsiyyətinin inkişafı üçün şərait yaradır, xeyirxah dosta çevrilir. Əksinə, əgər müəllim öz şagirdlərinin daxili aləmini dərk edə bilmirsə, müxtəlif cəza və təqiblərə, təsirlərə əl atırsa, onlara soyuq münasibət göstərirsə, o, şagirdlərin inkişafının qarşısını alır.

Yaradıcı müəllimlərin təlim prosesində istifadə etdikləri, ümumi metodlar vardır. Bunlar aşağıdakılardar:

- təlim vasitələrindən (kitab, əyani vəsait, texniki vasitələr və s.) istifadə zamanı, şəraitin yaradılması, onların şagirdlərin fiziki və psixoloji imkannlarına uyğunlaşdırılması;
- şagirdlərlə əks əlaqənin (sorğu, dialoq, söhbət, qrup ünsiyyəti) qurulması ;
- fərdi və qrup halında qarşılıqlı münasibətin yaradılması. Bura işin həcmi, qiymətləndirmə və s. daxildir;
- şagirdlərin təlim motivlərinin inkişaf etdirilməsi, özünəinam yaradılması, təlim müvəffəqiyyətinin stimullaşdırılması;
- şəxsiyyətlərarası ünsiyyət mədəniyyətinin formalaşdırılması.

Adətən, müəllimlər sinifdəki şagirdləri iki qrupa ayırırlar: a) pozitiv münasibətdə olanlar (pozitivistlər); b) neqativ münasibətdə olanlar (neqativist-

lər). Birincilərlə müəllim normal ünsiyyət və münasibətlər qurur, onların sərbəstliklərinə imkan verir, humanist prinsiplərə əsaslanır. İkincilərə isə, əsasən, avtoritar münasibət bəslənir. Humanist psixologiyanın irəli sürdüyü prinsiplərlə işləyən müəllimlər təlimin məqsədi, fəaliyyətin qiymətləndirilməsi, qarşılıqlı münasibətlərin qurulmasında daha çox şagirdlərin müstəqillik və təşəbbüskarlığına şərait yaradır. Belə olduqda müəllim rəhbər yox, münbit psixoloji şərait yaradan xeyirxah insan rolunda çıxış edir. O, şagirdlərin idrak motivlərinin, birgə təlimlərinin, özünüfəallaşdırmanın stimulvericisi olur.

Təbii ki, ənənəvi metodla işləmiş, müəyyən təcrübə və uğur qazanmış müəllimin yeni metodla işləməsi, yeni texnologiyaları tətbiq etməsi o qədər də asanlıqla başa gəlmir. Psixoloji ətalət qanununa uyğun olaraq belə keçiddə tələskənlik həm psixoloji travma yaradır, həm də sonda uğursuzluğa səbəb olur. Yəni, təlimin məzmun və metodolarının dəyişməsi yox, şəxsiyyətin ustanovkası, şəxsi inkişafı müəyyən çətinliklər yaradır.

K.Rocersin şəxsiyyətyönümlü təhsillə bağlı doqquz göstərici (akademik uğur, «Mən konsepsiyası», məktəbə münasibət, kreativlik, konformizm, həyəcanlanma, nəzarətin azaldılıması, əməkdaşlıq, təşəbbüskarlıq) üzrə apardığı tədqiqat göstərir ki, təhsilin mərkəzinə şagird şəxsiyyətinin inkişafı (təlim müvəffəqiyyətindən başqa) dayandıqda daha çox uğur qazanmaq mümkündür. Belə olduqda şagirdlər bir-birilə və müəllimlə daha çox ünsiyyətdə olur, onların nitqləri inkişaf edir, daha çox sualla müəllimə müraciət edir, idrak fəallıqları yüksəlir. Onların təlimə, məktəbə münasibəti dəyişir, bilik əldə etməyə maraqları çoxalır, müəllimlərin də yaradıcılığı yüksəlir, emosional gərginlikləri azalır.

Aparılan çoxsaylı tədqiqatlar göstərir ki, hətta müəllim və şagirdlərin psixofizioloji sağlamlığı pozulmur. Onlar dərs prosesində gərginlik keçirmir, az yorulmurlar.

Azərbaycan Respublikası azad, demokratik cəmiyyət qurmaq yolunu seçmişdir. Onun dönməzliyi, uğur qazanması, ən azı, bu prosesin ağrı-acısız keçməsi üçün bir neçə başlıca şərt vardır. Onlardan birincisi isə təhsilin demokratikləşdirliməsi, humanistləşdirilməsidir. Heç ola bilməz ki, cəmiyyət demokratikləşdirilsin, təhsil isə bu prosesdən kənarda qalsın və ya əksinə, təhsil demokratikləşdirilsin, cəmiyyət yox. Ola bilməz ki, orta məktəbi qurtarana qədər şagirdlərin təşəbbüsü boğulsun, idarə olunsunlar və məktəbi qurtarmaqla bir günün içərisində onlar dəyişib demokratik, humanist dəyərləri öyrənsinlər, azad cəmiyyətin qurucusuna çevrilsinlər. Təhsil, onun uğurları isə hər kəsin və hamının işidir.

# MƏKTƏBƏQƏDƏR UŞAQ MÜƏSSİSƏLƏRİNDƏ PSİXOLOJİ XİDMƏT

**İsa Məmmədov,**
psixologiya elmləri namizədi

Məktəbəqədər yaş mərhələsi uşağın psixi inkişafında özünəməxsus yer tutur. Əsas yaş böhranlarından biri, eləcə də gələcək psixoloji inkişaf baxımından misilsiz və nadir senzitiv mərhələ məhz bu dövrə təsadüf edir. Bu mərhələ uşağın şəxsiyyətinin formalaşmasının birinci mərhələsi kimi əlamətdardır.

Təbiidir ki, respublikanın təhsil sistemində psixoloji xidmətin yaradılmasına məktəbəqədər uşaq müəssisələrindən başlamaq lazım idi. Bunu yalnız müasir psixologiyanın nailiyyətləri deyil, sadəcə məntiq də tələb edir, lakin psixoloji xidmət sahəsində işlənib hazırlanmış eksperimentlər məhz məktəbə psixoloji xidmətin təşkilinə yönəldilmişdir. Buna görə də bir tərəfdən məktəbəqədər uşaq müəssisələri üçün praktik psixoloqların hazırlanması diqqətdən yayındı, nəticədə körpələr evi və uşaq bağcalarında psixoloji xidmətin yaradılması üçün vaxt itirildi.

Uşaq bağçasında praktik psixoloqun işinin öz spesifikası var. Onun fəaliyyəti elə qurulmalıdır ki, uşağın psixi inkişafı və şəxsiyyətin formalaşması üçün səmərəli psixo-pedaqoji şərait təmin edə bilsin. Psixoloq ilk növbədə, yaş psixologiyasının nailiyyətlərinə arxalanaraq hər bir uşağa fərdi yanaşmalı, himayəsində olan uşaqların inkişaf xüsusiyyətlərini müəyyənləşdirməli, onların ünsiyyət və davranışında meydana çıxan nöqsanların səbəbini araşdırmalı, psixo-pedaqoji korreksiya yolları axtarmalıdır. Bu, uşaq bağçasında tərbiyə prosesinin effektivliyini artırmağın əsas vasitəsidir.

Uşaq bağçasına qəbul olunmuş uşaq psixoloq tərəfindən yoxlanır, onun üçün psixoloji kartoçka açılır ki, bu da ayrıca qovluqlarda saxlanır. Uşaq haqqında hər il yeni informasiya əldə edildikcə, kartoçkanın müvafiq bölmələrinə qeyd edilir. Psixoloji kartoçkada diaqnostik prosedurlar, uşaqla, valideynlərlə və tərbiyəçilərlə aparılan söhbətlərin nəticələri, istifadə olunan psixo-korreksiya üsulları, uşaqla aparılan psixoloji işin əsas istiqamətləri və nəticələri haqqında informasiya öz əksini tapır. Uşağın əvvəlki illərdəki inkişafı, təlim tərbiyəsinin xüsusiyyətləri haqqında məlumatlar da burada qeyd olunur.

Psixoloji kartoçkanın müvafiq bölmələrinə diaqnostik müayinələrin və digər psixoloji prosedurların protokolu əlavə edilir. Protokol əldə edilmiş göstəricilər əsasında psixoloqun qısa rəyi ilə nəticələnir. Əgər psixoloq tərbiyəçiyə və ya valideynə uşağa dair hər hansı bir tövsiyə verirsə, o, psixoloji kartoçkada mütləq öz əksini tapmalıdır. Uşağın bu və ya digər problemi üzrə psixoloqun qoyduğu suallar mütəxəssislərin cavabı da burada qeyd olunur.

Psixoloji kartoçkada toplanmış informasiyadan yalnız psixoloq istifadə edə bilər. Psixoloq bu informasiyanı uşağın hər hansı bir probleminin həlli üçün faydalı hesab edirsə və bu informasiyanın böyüklər tərəfindən uşağın zərərinə istifadə olunmayacağından əmindirsə, onu uşaq bağçasının müdirinə, metodistə, tərbiyəçiyə və ya valideynə təqdim edə bilər. Uşaq başqa təlim-tərbiyə müəssisəsinə köçürülərsə, onun psixoloji kartoçkası həmin müəssisəyə verilir.

Uşaq bağçasında psixodiaqnostikanın öz xüsusiyyətləri vardır. Psixoloq bu şərti hökmən nəzərə almalı və uşaqlar tez yorulduğu üçün qısa tapşırıqlardan istifadə etməlidirlər. Psixodiaqnostikanın tam və hərtərəfli olması üçün müxtəlif əyani vəsaitdən və dördtərəfli piramidadan rəngli çubuq və kağızlardan, həndəsi fiqurlar dəstindən, kuklalar və s. kimi vəsaitlərdən istifadə olunmalıdır.

Tapşırıqlar sadədən mürəkkəbə doğru düzülür və uşaq psixologiyasının hafizə, təfəkkür, nitq və s. kimi xüsusiyyətlərini öyrənmək məqsədini nəzərdə tutur. Bunun üçün konkret tədqiqat metodikalarından–şəkillərdən, tapmacalardan, sözlərin öyrənilməsindən, hafizə məşqlərindən, həndəsi fiqurların təsnifatından, «poçt qutusu» yolundan, hadisələrin ardıcıllığını müəyyənləşdirmək üzrə tapşırıqlardan istifadə olunur.

Uşaqların psixoloji xüsusiyyətlərinin öyrənilməsi və xarakteristikaların tərtibi də çox vacibdir. Bunun üçün aşağıdakı proqramdan istifadə edilir:

1. uşaq haqqında informasiya;
2. inkişaf tarixi;
3. uşağın ailəsi və tərbiyə şəraitinin xüsusiyyətləri;
4. uşaqda idrak proseslərinin xüsusiyyətləri:

a) analizatorların vəziyyəti;
b) idrak maraqları;
c) diqqətin xüsusiyyətləri;
ç) qavrayış və təfəkkürün xüsusiyyətləri;
d) hafizənin xüsusiyyətləri;
e) nitqin xüsusiyyətləri;
ə) təlim prosesinə münasibəti;
f) emosional-iradi xüsusiyyətləri (temperamentinin tipi; xasiyyətinin əlamətləri.

Uşaqlara müəyyən proqram üzrə diaqnoz qoyulması həm tərbiyəçilərə, həm də valideynlərə uşağın inkişaf xüsusiyyətləri və şəxsiyyətinin formalaşması üzrə əsaslı tövsiyələr verməyə, psixo-korreksiya üzrə iş istiqamətini müəyyənləşdirməyə imkan verir.

Uşaqlara diaqnoz qoyulması zamanı aşağıdakı faktorlar mütləq nəzərə alınmalıdır:

- uşağın diaqnozun qoyulması prosesinə emosional münasibəti;
- uşağın yeni şəraitə, tanış olmayan adamlara münasibəti;

4) Hansı xəstəlikləri keçirmişdir?

5. Nə vaxtdan bağçaya gedir?

1.Uşağın hansı oyuncaqları və oyun ləvazimatı var?

Onlar harada və necə saxlanılır? Uşağın xüsusi guşəsi varmı?

2.Uşaq evdə daha çox kiminlə qalır? (Onu gəzməyə kim aparır, kim əyləndirir, onun üçün kim kitab oxuyur, kim onunla məşğul olur? )

3.Uşağa münasibətdə valideynlərin və digər ailə üzvlərinin rəyi uyğun gəlirmi?

4. Uşağı cəzalandırmaq və ya rəğbətləndirmək üçün ailədə hansı yolLardan istifadə olunur?

5.Uşaq daha çox kiminlə şıltaqlıq edir? İncidikdə kimə şikayət edir? Öz təəssüratlarını *daha çox kiminlə bölüşür?*

6.Uşağa özünəxidmətin hansı vərdişləri aşılanmışdır?

7.Uşaq evdə anasına necə kömək edir?

8.Uşağın sevimli kitabı, oyunu və oyuncağı nədir? O, daha çox nə ilə məşğul olmağı xoşlayır?

9.Onun ən yaxın dostlar kimlərdir?

10.Ailədə uşağın məktəbə hazırlığı ilə kim və necə məşğul olur?

## SORĞU VƏRƏQİ (*UŞAQLAR ÜÇÜN*)

1.Bacın və ya qardaşın varmı? Onlar səndən böyük, yoxsa kiçikdirlər?

*2.Nənən və baban varmı? Onlar harada yaşayırlar?*

3.Hansı oyuncaqların var? Onları harada saxlayırsan?

4. Kiminlə gəzməyə gedirsən? Kiminlə oynayırsan?

5. Kim sənin üçün hədiyyə (oyuncaq, şirniyyat) alır?

6. Evdə özünü necə aparırsan? Özünü pis aparanda nə edirsən?

7. Atan evdə sənə nə etməyə icazə verir? Əgər pis iş tutmusansa, atan sənə nə deyir? Səni nəyə görə və necə cəzalandırır? Bəs anan? Bəs ailədəki digər böyüklər?

8. Kimin sözünə daha çox qulaq asırsan?

9. Birisi səni incidəndə, daha çox kimə şikayət edirsən?

## ANKET 2 (*VALİDEYNLƏR ÜÇÜN*)

Adı, soyadı, atasının adı, anadan olduğu il.

*Uşağın şəxsiyyət keyfiyyətləri və münasibətləri haqqında məlumat.*

*Daha düzgün hesab etdiyiniz cavabların altından xətt çəkin:*

1. Böyüklərlə ünsiyyətdə olmağı xoşlayır (xoşlamır).

2. Uşaqlarla ünsiyyətdə olmağı xoşlayır oyunlara üstünlük verirlər.

Ünsiyyətdə olmağı bir o qədər də xoşlamır. Qaradinməzdir (ayrılıqda oynamağı xoşlayır).

3. Təşəbbüskardır, uşaqları oyuna cəlb edə bilir; əylənməyi, müxtəlif oyunlar fikirləşməyi xoşlayır.

Çox vaxt ikinci rollarda çıxış etməyi, kiminsə arxasınca getməyi xoşlayır.

4. Oyun zamanı uşaqlarla yola gedir, əsasən, mübahisə etmir, nadir hallarda konfiliktə girir. Oyun zamanı uşaqlarla yola gedə bilmir, tez-tez mübahisəyə girişir.

5. Öz oyuncaqlarını böyük həvəslə (həvəssiz) dostlarına verir, öz payını yaşıdları ilə bölüşdürür (bölüşdürmür).

6. Birini kədərli, məyus görəndə ona yazığı gəlir, yazığı gəlmir, kömək etmək istəyir (istəmir).

7. Yaşıdlarından incidikdə, böyüklərə şikayət edir.

Nadir hallarda böyüklərə şikayət edir; heç vaxt şikayət etmir.

8. Küsəyəndir; nisbətən küsəyəndir (küsəyən deyil).

9. Yaşıdları ilə münasibətində ədalətlidir, mübahisələri yoluna qoyur, bəzi hallarda ədalətsizliyə yol verir; əksər hallarda ədalətsizdir.

10. Həmişə sözün düzünü deyir, heç kimi aldatmır; bəzən yalan danışır; həmişə yalan danışır.

11. Həmişə nəzakətli olmağa çalışır; bəzən nəzakətli olur, bəzən isə bunu unudur; çox zaman kobudluq edir, «sehrli» sözü deməyi unudur.

12. Hər işin öhdəsindən, hətta çətin olsa belə özü gəlməyə çalışır; sərbəst, müstəqil olmağa can atmır.

13. Başladığı işi axıra catdırmağa can atır; verdiyi sözü yerinə yetirmir; əksər hallarda başladığı işi axıra çatdırmır.

14. Əməksevərdir, böyüklərin verdiyi tapşırıqları həvəslə yerinə yetirir; işləməyi sevmir, verilən tapşırığı pis yerinə yetirir.

15. İnadkardır, qətiyyətlidir; kifayət qədər qətiyyətli deyil.

16. Müxtəlif oyun və əyləncələr fikirləşir, oyun bacarığı və vərdişləri yaxşı inkişaf etmişdir; bir qədər pis inkişaf etmişdir.

17. Yaşıdları arasında bacarığı, səriştəsi, bilikləri tez qavraması ilə seçilir; yaşıdlarının əksəriyyətindən seçilmir; yaşıdlarından zəifdir, bilikləri çətinliklə qavrayır.

18. Yaxşı şəkil çəkir, yapışdırır; ortabab şəkil çəkir, yapışdırır; təsviri bacarıq və vərdişləri zəif inkişaf etmişdir.

19. Yaxşı oxuyur, rəqs edir, musiqi qabiliyyəti ortadır, zəifdir.

20. Kubiklərlə evcik qura bilir; qurmaq bacarığı orta səviyyədədir; nə isə qurmağı xoşlamır və bacarmır.

21. Cəlddir, çeviklik tələb edən oyunları və idman məşğələlərini xoşlayır; xoşlamır; fiziki inkişafı zəifdir.

22. Yaxşı iştahla yeyir; hərdən yaxşı, hərdən pis yeyir; iştahsız yeyir.

23. Yatanda dərhal yuxuya gedir; dərhal yuxuya getmir; uzun müddət yuxuya getməyərək yatağında uzanır.

24. Üzügülərdir, ətrafdakıları sevindirir və şənləndirir, ağlayıb sızlamır; çox zaman ətrafdakılardan narazıdır, qaraqabaqdır, ağlağandır.

25. Sağlamdır, möhkəmdir, güclüdür; sağlamlığı ortadır; zəifdir, pisdir.

Beləliklə, praktik psixoloq məktəbəqədər uşaqları öyrənərkən, müxtəlif yol və yanaşmalardan istifadə edir, lakin bütün bunlar ümumi psixologiyanın istiqamətləridir. Buna görə də psixoloji xidmətin konsepsiyası əsasında uşaq bağçaları üçün xüsusi metodika işləyib hazırlamaq lazımdır. BMTİ-də bu istiqamətdə artıq ilk addımlar atılmışdır. Uşaqların əqli bacarıqlarını daha dərindən inkişaf etdirmək üçün müxtəlif oyun və tapşırıqlar işlənib hazırlanmışdır. Onların bəzi nümunələri ilə tanış olaq.

## NƏ ƏVVƏL, NƏ SONRA GƏLİR?

**Oyunun didaktik məqsədi:** məzmunlu şəkillərin köməyi ilə uşaqlarda məntiqi təfəkkürü inkişaf etdirmək.

**Ləvazimatlar:** müəyyən süjeti əks etdirən şəkillər dəsti (şəkillərin arxa tərəfinə onların ardıcıllığını göstərən vərəqciklər yapışdırılır).

**Oyunun gedişi;** oyun 3-5 uşağın iştirakı ilə keçirilir.

Tərbiyəçi şəkilləri göstərərək oyunun gedişini izah edir.

- Uşaqlar, əgər siz, şəkilləri onların məzmununa uyğun ardıcıllıqla düzsəniz, maraqlı bir hekayə əldə edəcəksiniz, lakin şəkilləri düzgün yerləşdirmək üçün, siz nəyin əvvəl, nəyin isə sonra gəldiyini və hər şeyin nə ilə nəticələndiyini dərk etməlisiniz.

Tərbiyəçi qeyd edir ki, şəkillər soldan sağa doğru bir sırada yerləşdirilməlidir. Uşaqlara iki, sonra isə üç şəkildən ibarət olan süjetlər təqdim olunur.

Uşaqlar tapşırığı yerinə yetirirlər. Şəkilləri arxa tərəfinə çevirərək, tapşırığın düzgünlüyünü yoxlayırlar. Əgər şəkillərin ardıcıllığı pozulmuşsa, səhvi aradan qaldırırlar. Tapşırıq düzgün yerinə yetirildikdən sonra uşaqlara şəkillər üzrə hekayə tərtib etmək tapşırılır. Sonra şəkillər dəsti dəyişdirilir və oyun davam edir.

## «BİR, İKİ, ÜÇ, DAYAN!»

**Oyunun didaktik məqsədi:** uşaqlara öz bədəninin vəziyyəti ilə verilmiş sxematik təsviri tutuşdurmağı öyrətmək.

**Ləvazimatlar:** 20x30 sm formatlı 15 kağız. Bu kağızlardan hər birinin üzərində müəyyən vəziyyət almış insan fiquru sxematik şəkildə təsvir olunmuşdur.

**Oyunun gedişi:** oyunda bütün qrup iştirak edir. Tərbiyəçi oyunun mahiyyətini uşaqlara başa salır: uşaqlar otaqda qaçmağa başlayırlar və «bir, iki, üç, dayan!» komandası eşidilən kimi dayanırlar.

Tərbiyəçi sxematik şəkillərdən birini uşaqlara göstərir. Bütün uşaqlar göstərilmiş vəziyyətdə dayanmalıdırlar. Kimin duruş vəziyyəti sxemdə göstərilənə uyğun gəlməsə, o, oyundan çıxır. Oyun davam etdikcə, yeni kağızlardan istifadə olunur.

## «SƏRÇƏLƏR VƏ AVTOMOBİL»

**Oyunun didaktik məqsədi:** uşaqlara müxtəlif əşyaların şərti işarələrini başa düşməyi və otağın planında səmtləşməyi öyrətmək.

**Ləvazimat:** vərəq, qələm, ip.

**Oyunun gedişi.** Oyunda bütün qrup iştirak edir. Tərbiyəçi uşaqları ətrafına yığaraq deyir:

- Uşaqlar, bu gün biz, «Sərçələr və avtomobil» oyununu oynayacağıq. Siz sərçə olacaqsınız, sizlərdən biri isə avtomobil olacaq. Sərçələr uçacaq, arabir dayanıb dən yeyəcəklər. Maşının siqnalını eşitdikdə bütün sərçələr yuvalarına uçmalıdırlar.

Sonra tərbiyəçi plan çəkir, sərçə yuvalarını dairələrlə işarə edir (Divar boyu düzülmüş stullar yuvaları əvəz edir, planın bir küncündə qaraj üçbucaq formasında göstərilir, - otaqda bu künc iplə hasara alınır).

Uşaqlar plana müvafiq olaraq, «yuva» - stulları divar boyu düzürlər, qaraj üçün iplə yer ayırırlar. Avtomobil roluna uşaq seçdikdən sonra tərbiyəçi ona izah edir:

- Mən başımı tərpədəndə, sən maşını sürərsən.

Oyun başlayır. Sərçələr uçur, arabir isə dən yeyirlər. Oyunu izləyən tərbiyəçi «avtomaşına» deyir:

- Bir siqnal ver!

Sonra tərbiyəçi o biri uşaqlara müraciət edir:

- Siqnalı eşidirsiniz? Tez yuvalarınıza uçun!

Tərbiyəçi oyun ərzində uşaqlara istiqamət verir:

- Maşın sürəti artırdı, tez olun, tez olun, sərçələr! Yavaş sür, sərçələri əzmə!

Bütün sərçələr yuvalarına uçur, maşın qaraja qayıdır. Oyun iki-üç dəfə təkrar edilir və hər dəfə «avtomobil» roluna yeni uşaq sesilir.

**Bu, nəyi xatırladır?**

**Oyunun didaktik məqsədi:** sxematik təsvirlərinə görə əşyaları təsəvVÜ-ründə canlandırmaq bacarığını oyrətmək.

**Ləvazimat:** müxtəlif əşyaların sxematik təsvirləri (bir-birinin içərisinə geydirilmiş iki dairə, kəlləsində kürə olan üçbucaq və s.).

**Oyunun gedişi:** oyunda bütün qrup iştirak edir. Tərbiyəçi oyunun mahiyyətini izah edir:

- Uşaqlar, bu sxemlərə diqqətlə baxın. Onlar sizə nəyi xatırladır?

Tərbiyəçi birinci şəkli uşaqlardan birinə göstərir:

- Bu təsvir nəyə bənzəyir? cavab alınmadıqda, sual digərinə ünvanlanır.

Tərbiyəçi bütün uşaqları fəal oyun prosesinə cəlb etməli, müxtəlif köməkçi suallarla onların təxəyyülünü istiqamətləndirməlidir.

Təcrübədə uşaqlarda qavrama, diqqət, hafizə, təfəkkür, təxəyyül kimi mühüm psixi prosesləri inkişaf etdirən oyunlardan geniş istifadə olunur.

Praktik psixoloq oyunun gedişini təhlil edir və onun inkişafetdirici effektini nəzərə alaraq, ssenaridə düzəlişlər edir.

## KİÇİKYAŞLI MƏKTƏBLƏRDƏ TƏLİM FƏALİYYƏTİNİN MOTİVLƏŞMƏSİ PSİXOLOGİYANIN AKTUAL PROBLEMLƏRİNDƏN BİRİ KİMİ

**Aida Məmmədəliyeva,**

ARTPİ-nin aspirantı, Bakı şəhəri Uşaq-Ruhi Əsəb Dispanserinin loqopedi

Müasir dövrdə respublikamızda I-IV sinif şagirdlərində təlim motivlərinin öyrənilməsi problemi bir neçə cəhətdən xüsusi aktuallıq kəsb edir. Təlimdə motivasiyanın nəzərə alınması onun keyfiyyətinin yüksəldilməsini təmin edir. Kiçikyaşlı məktəblilərin şəxsiyyətinin formalaşmasında fərdi psixi xasslərin rolu böyükdür. Ona görə də Azərbaycan psixoloqları şəxsiyyət psixologiyası üzrə bəzi tədqiqat işləri aparmışlar. İbtidai sinif şagirdlərində xarakterin inkişafı və tərbiyəsi məsələləri M.C. Məhərrəmovun diqqət mərkəzində olmuş, «Məktəblilərin xarakterini tərbiyə etmək haqqında» əsərində (1967) öz əksini tapmışdır. Müəllifin fikrincə, təlim – tərbiyə prosesində müəllim müxtəlif fənlərin köməyi ilə ədəbi qəhrəmanların həyatından gətirdiyi nümunələrlə şagirdlərdə gözəl xarakter əlamətləri tərbiyə edə bilər. «Burada müəllimin şəxsi nümunəsində çox qüvvətli təsirə malik olduğunu xüsusilə qeyd etmək lazımdır. Uşaqlar zəif iradəli və xaraktersiz müəllimi sevmirlər. Əksinə şagirdlərə qayğı ilə yanaşan, onların fərdi tələb və ehtiyaclarını hiss etməyə qabil olan təlim-tərbiyə işində qarşıya qoyulmuş məqsədə çatmağa təkidli olan, maneələrə üstün gəlməkdə səbr və əzm göstərən müəllim şagirdlər arasında güclü nüfuza malik olur. Bu, ümumiyyətlə,

tərbiyə işində böyük qüvvədir». Ş.S.Ağayev («Şagirdlərə pedaqoji psixoloji xarakteristika tərtib etmək üçün sxem». Tələbələrin pedaqoji praktikası, Bakı, 1961) Ə.S. Bayramov (Uşaqlarda xarakter tərbiyəsi «Azərbaycan müəllimi», 23 fevral 1961), M.C.Məhərrəmov (Şagirdi öyrənmək və ona pedaqoji xarakteristika tərtib etmək haqqında «Azərbaycan məktəbi» 1950 №7, 1955 - № 12, 1958 - №1), Ə.Ə.Əlizadə (Müəllimlərin psixologiya sahəsində hazırlıq səviyyəsinin yüksəldilməsi «Azərbaycan məktəbi», 1980, № 10), M.Ə.Həmzəyev, A.Yusifzadə (Təlim prosesində müəllimlə şagirdlərini qarşılıqlı münasibətlərinin sosial - psixoloji problemləri. «Azərbaycan məktəbi» 1983, № 8), Ə.Ə.Qədirov (Təlim prosesində müəllimin və şagirdin psixi halı «Azərbaycan məktəbi», 1966, №3), E.M.Quliyev, Q.E.Əzimov, Ə.Ə.Əlizadə (Yaş və pedaqoji psixologiya, II hissə, Bakı, 1978), M.Ə.Həmzəyev (Məktəbinin şəxsiyyətinin öyrənilməsi tərbiyəsinin öyrənilməsinin mühüm amili kimi «Azərbaycan məktəbi», 1989, №3), M.Ə.Həmzəyev (Şagirdlərin təlim fəaliyyətinin motivləşməsi haqqında. «İbtidai məktəb və məktəbəqədər tərbiyə», 1983, № 5, 6) və başqa psixoloqların məqalələrində I-IV sinif şagirdlərində təlim motivlərinin formalaşması öz əksini tapır. I-IV sinif şagirdlərində təlim motivlərinin formalaşması, şagirdlərin psixi inkişafında məktəblə yanaşı valideynlərin də mövqeyi «Kiçik məktəb yaşlı uşaqların psixoloji xüsusiyyətləri» (M.Ə.Həmzəyev Bakı, 1968), «Sosial psixologiya və sinif müəllimi», «Sinif rəhbərlərinin şagirdlərlə apardığı işlərin bəzi sosial-psixoloji məsələləri» (A.Yusifzadə «Azərbaycan məktəbi». 1980, № 11) və başqa əsərlərdə aydın şəkildə göstərilmişdir.

I-IV sinif şagirdlərində təlim motivlərinin formalaşması – şəxsiyyətin tərbiyə məsələlərinin həlli deməkdir. Tez-tez zəruriləşmiş xarakterik təlim motivləri şəxsiyyətin davamlı xüsusiyyəti olan əmlakına çevrilir. Uşağın təlim fəaliyyəti prosesində fəallıq, meyillilik, yaşlıların əməyinə məsuliyyətli münasibətin təməli artıq məktəbəqədər dövrdə qoyulur. Mühüm məsələlərdən biri ilk növbədə şagirdlərin bilik və əməyə hazırlıq səviyyəsini artırmaq məqsədilə təlim və tərbiyənin orqanik vəhdətini təmin etməkdən ibarətdir. Bu mənada motivlərin formalaşması problemləri xüsusi əhəmiyyət kəsb edir, çünki, motivasiya - uşağın təlimində uğurluluq və uğursuzluğun ən mühüm şərtlərindən biridir. Motivləşmə komponenti zəngin imkanlara malikdir.

Xarici psixoloqların tədqiqatlarında müəyyən olunduğu kimi, dərketmə və intellektual sferaya nisbətən motivləşmə sferası daha dinamikdir. Motivləşmədə dəyişiklik tez baş verir. İntellektual xüsusiyyətlər dəyişikliklərə nisbətən çətin tabe olur. V.S.Merlin motivlərin dinamikliyini və dəyişkənliyini qeyd etmişdir. Motivasiyanın nisbi dinamikliyi, çevikliyi özündə təhlükə də saxlayır. Əgər o idarə olunmasa motivasiyanın tənəzzülü, onun səviyyəsinin aşağı düşməsi baş verə bilər, bu da istiqamətin məqsədəuyğun idarə olunmadığı yerdə tez-tez baş verir.

Hazırda məktəblinin təlim motivasiyasının istiqaməti, tədris təcrübəsində bizim nəzərimizcə ən az idarə olunandır. Bəzən motivasiyanın formalaşması xüsusi məqsədəyönlü müntəzəm işin nümunəsi deyil, kortəbii olaraq,

hər şeydən əvvəl, qabaqcıl müəllimlərin nailiyyətlərinin nəticəsidir. Biz V.S.Merlinin aşağıdakı fikirləri ilə tamamilə razılaşırıq: «Nəinki əqli hərəkətləri, hətta biliklərə yiyələnmə motivlərini də idarə etmək lazımdır»; «Maşının hərəkətindən fərqli olaraq insanın hərəkətini ancaq motivlərin idarə olunmasının köməyi ilə idarə etmək olar». Əlbəttə motivləşmənin formalaşmasını idarə etmək asan iş deyil.

A.K.Markovanın rəhbərliyi altında keçirilən eksperiment (1980) göstərdi ki, təlim fəaliyyəti istiqamətinin motivləşməsini formalaşdırmaq, təlim hərəkət və əməliyyatlarına nisbətən çətindir. Təlim fəaliyyətinin əmələ gəlməsinə nəinki tək əməliyyat, hətta təlimin motivləşmə aspektinin də təkmilləşməsi kimi, müəllim və şagirdlərin əmək effektli göstəricilərinin sayına, motivləşmənin ayrı-ayrı tərəflərinin formalaşma səviyyəsi daxil edilməklə baxılması təklifi, zənnimizcə V.V. Davıdova və A.K. Markova tərəfindən çox vaxtında verilmişdir.

Məktəblinin motivasiyasının tərbiyəsinə yetərincə diqqətin verilməməsi problemin mürəkkəbliyi və işlənməməsi ilə izah olunur. Hətta «motiv», «motivləşmə», «ehtiyac» və s. anlayışların özləri də, birmənalı açıqlanmamış və hamı tərəfindən qəbul edilməmişdir. Motivasiyanın məktəblidə formalaşmaması, hər şeydən əvvəl, onunla izah olunur ki, şagird bütöv bir motivlər kompleksi ilə təlimə doğru istiqamətləndirilir. Motivasiya şəxsiyyətin sabit formalaşması kimi və fəaliyyətin komponenti (situativ motivlər) kimi meydana gələ bilər. Gələcək təlim prosesinin təkmilləşməsi, onun inkişaf və tərbiyəvi imkanlarının yüksəlməsi, bizə təqdim olunduğu kimi, şagirdin motivləşmə sferasına maksimum diqqət və ilk müəllimin məsləhətlərə müvafiq silahlanma probleminin hərtərəfli işlənməsi tələb olunur.

C.Nyutten qeyd edirdi ki, motivləşmə – fəallğın istiqamətləndirilməsi nəzərdə tutulan, olduqca ümumi və geniş anlayışdır. Bu nöqteyi-nəzərdən davranışı «istiqamətlənmiş fəallıq» kimi qiymətləndirmək olar. Motivləşmə istiqamətlənmiş fəallıq kimi bizim fikrimizcə, tərəflərin müəyyən qarşılıqlı dinamik və məzmunluluq münasibətini nəzərdə tutur. Bu qayda ilə biz motivləşməni gözdən keçirərkən ona əsaslanırıq ki, fəaliyyətin məhsuldarlığı, onun proses və nəticəsi birincisi, motivlərin istiqamətlənməsinin, onların məzmununun, ikincisi məzmuna uyğun motivlərin, nəhayət, şəxsiyyətin yaratdığı müxtəlif xüsusiyyətli motivləşmə ilə müəyyən olunur.

Rus psixoloqları motivləşmənin dinamikliyi və məzmunluluğunun vəhdətinə əsaslanırlar. S.L.Rubinşteyinin qeyd etdiyi kimi, motivləşmənin məna cəhətdən ayrılması «insan ağlına, zəkasına, intellektinə inamın elmi əsaslanmasına dəlalət edir».

Motivləşmnin strukturu həqiqətin düşünülmüş əksi nəticəsində formalaşır. Bu barədə V.Q.Aseyev yazır: «Rus psixologiyasında motivləşmənin formalaşmasının əsas amillərindən biri insanın düşünülmüş intellektual işində motivləşmənin daxili, öz-özünə yaranan genişlənmiş və qabaqcadan müəyyən edilmiş dinamik ideyası deyil, həqiqətən tamamilə daha dərin və geniş əks olunması hesab olunur». Motivləşmənin məzmunlu tərəfi onun dinamik komponentindən nisbi asılı deyil, eyni zamanda dinamik cəhətdən mürək-

kəb qarşılıqlı əlaqədədir. Motivləşmənin məzmunlu tərəfi - oyanmalar sistemi, motivlər sistemi, onların mürəkkəb iyeraxiyası, uşağın müxtəlif tələbatlarının özünü büruzə verməsidir: məsələn, təlim-idrak motivlərinin tələbatlarının əsasını, fikrimizcə, yeni təəssüratlara olan tələbat (L.İ.Bojoviç), fəallığa tələbat (D.N.Uznadze) təşkil edir və i.a. Motivləşmənin məzmunlu tərəfinin inkişafı uşağın sosail və psixoloji kontaktları ilə, onu əhatə edən gerçəklik və hər şeydən əvvəl, təlim fəaliyyətinin təşkili ilə determinləşir. Motivləşmənin dinamik tərəfi əsəb sisteminin xüsusiyyətləri ilə (güc, tarazlanma, çeviklik, əsəb proseslərinin dinamikliyi), əsəb sisteminin ümumi fəallıq səviyyəsi ilə şərtləndirilir (V.D.Nebiliüın, 1973; G.A.Qolubeva, 1976; V.İ.Rojdestvenskaya, 1973; V.S.Merlin, 1971) və b.

Bütün bunlar motivləşmənin gücünün oyanma dərəcəsi və sabitliyi kimi, dinamik xarakteristikasını müəyyən edir. Motivləşmənin dinamik inkişafının başqa amili sosial mühitlə bağlıdır ki, bu da uşağın situativ dinamik vəziyyətlərinin yaranması, motivləşmənin gərginlik və sabitliyinin saxlanmasıdır.

Biz motivləşməyə prosessuallıqda məhsuldarlığın qarşılıqlı münasibəti kimi baxırıq. Təlim fəaliyytətinin motivləşməsində prosessuallıq və məhsuldarlığın yerlərini müəyyən etmək bizim nöqteyi- nəzərimizcə təlim Motivasiyasının formalaşmasında problemlərin həlli üçün vacibdir. İnsan fəaliyyətinin, o cümlədən də uşağın təlim fəaliyyətinin mənası ancaq müəyyən nəticə olmaqdan ibarət deyil, məna fəaliyyətin özündə, fəaliyyət prosesində, həm də fiziki və zehni fəallıq göstərməsidir. Eləcə də fiziki, əzələ fəallığı kimi zehni fəallıq da öz-özünə insana məmnunluq gətirir və spesifik tələbata çevrilir.

Əgər söhbət uşağın motivləşməsindən gedirsə, motivasiyanın prosessual tərəfi xüsusi məna kəsb edir. Məktəbəqədər yaşlı uşağın oyun motivi onun oyununun nəticəsində deyil, prosesin özündədir: ...kubiklə oynayan uşaqda oyun motivi kubikdən ev qurmaqdan ibarət deyil, nə isə düzəltməkdən ibarətdir, yəni fəaliyyətin özündədir. Bu, məktəbəqədər yaşda olan uşaqların oyunu üçün deyil, həm də, ümumiyyətlə, hər bir həqiqi oyun üçün ədalətlidir. Oyun motivasiyasının ümumi formulu belədir: oynamaq, qalib gəlmək. Təlim fəaliyyətində maneələri dəf etmək cəhdi, öz qüvvə və bacarığını sınamaq cəhdi təlimin şəxsi məna kəsb edən motivi ola bilər. Eyni zamanda motivləşmənin səmərəli istiqaməti xüsusən də, onun prosessual tərəfi mənfi emosiyaya səbəb olarkən fəaliyyətin determinləşməsində təşkilatçılıq rolunu oynayr. Bu halda, fəaliyyətin sərhədlərini müəyyən edən, məqsəd və məramlar, sonuncu və arada olan nöqtələr ön planda çıxış edir, bu da öz növbəsində şagirdin enerjisini səfərbər edir, müsbət emosional əhval-ruhiyyə yaradır. Motivləşmənin səmərəli tərəfi iki növə ayrılır. Bir tərəfdən o, uzaq prespektiv məqsədlərin qurulması ilə, digər tərəfdən isə dərs prosesi zamanı təlim fəaliyyətinin özündə məqsəd və vəzifələrin şagirdlər tərəfindən qəbulu ilə bağlıdır. Səmərəlilik və prosessual dərketmənin mühüm birləşməsi vacibdir: məhz bu, motivasiyanın və fəaliyyətin yüksək səviyyəsini təmin edir. Belə inteqrasiya (uşaq üçün vacib olan yalnız onun necə yazması deyil, eləcə də, necə fikirləşməsi, düşünməsidir) məktəbdə olduğu ilk günlərdə I si-

nif şagirdlərinin motivasiyası yetərincə yüksək səviyyədə yaranır. Prosessuallıq və səmərəlilik vəhdət və ayrılmazlığın oyanmasını emosional formada qeyd edərək, S.L.Rubinşteyn yazır: «Beləliklə, fəaliyyətin gedişindəki hisslərin üstünlüyü əla olsa da, onun nəticəsi ilə bağlı hisslərdən ayrılmazdır. Onların nisbi fərqi insan fəaliyyətinin qurulması ilə bağlıdır...».

Biz motivləşməyə çoxsəviyyəli sistem kimi baxırıq. Bütün psixi hadisələr müxtəlif dərketmə səviyyələrindən keçir. Motivləşmənin üzə çıxması dərketmənin müxtəlif səviyyəsində: dərin dərk olunmuş meyllərdən, dərk olunmamış qeyri-iradi meyllərə qədər ola bilər. Fikrimizcə, hər hərəkət verballaşmır. Belə hallarda uşağın hərəkətləri sözlə ifadə olunmasa da onun müəyyən psixi vəziyyəti ilə motivləşir.

Motivləşmənin genezisini öyrənmək iki cəhətdən zəruridir:

a) motivləşmənin təşəkkülünün ümumi psixoloji qanunauyğunluqlarını, formalaşması probleminin nəzəri tarixi məsələlərini, xüsusən də onun təşəkkül mexanizminin xüsusiyyətlərini, hər yaş mərhələsində kəsb etdiyi yeni cəhətləri aydınlaşdırmaq üçün;

b) müəyyən sosial – iqtisadi və sosial psixoloji şəraitdə bu və ya digər yaş mərhələlərində motivləşmənin nə kimi yeni xüsusiyyətlər kəsb etməsini, hansı spesifik cəhətlərə malik olmasını aşkar etmək üçün çox əhəmiyyətlidir.

İkinci cəhətlə əlaqədar bir mühüm amilə diqqət yetirmək zərurəti də meydana çıxır. Məlumdur ki, müəyyən amillərin təsiri ilə psixi inkişafın sürətlənməsi faktından son dövrlərdə xüsusi bəhs edilir. Həm də bu məsələ qlobal problem kimi bir neçə elmin qarşısına çıxır. Belə olduğu təqdirdə psixi inkişafın sürətlənməsi ayrı-ayrı yaş mərhələlərində motivləşmənin təşəkkülünə necə təsir edir problemi, ilk növbədə, psixologiya elminin aktual probleminə çevrilir. Bu cəhətdən XX əsrin sonu, XXI əsrin əvvəllərini kiçikyaşlı məktəblilərin təlim motivlərinin formalaşması, görəsən bizim əsrin əvvəlləri, hətta ortalarının kiçikyaşlı məktəblilərinin motivlərindən nə dərəcədə fərqlənəcək və hansı yeni xüsusiyyətlərə malik olacaqdır? Bu adi sual deyildir. Bu günün I-IV sinif şagirdlərinin kompüter oyunlarında iştirakı, müasir texnikaya bələdliyi və onunla əlaqədar olaraq motivləşməni əsrimizin ortalarının kiçikyaşlı məktəbliləri ilə müqayisə etmək olarmı? Bu cəhət yalnız bu və ya digər sahəyə bəldlik səviyyəsində özünü büruzə vermir, həm də idrak imkanlarında, davranış və rəftar tərzində, etik münasibətlər sistemində, motivləşmədə öz əksini tapır.

Deməli, ictimai- tarixi şəraitin dəyişilməsi ilə bu və ya digər yaş mərhələsində motivləşmənin xarakter və istiqamətində də müəyyən dəyişiklik baş verir. Bu cəhətləri elmi zəmində aşkar etmək və təlim-tərbiyə işində nəzərə almaq həm ciddi elmi – nəzəri, həm də praktik əhəmiyyətə malikdir.

# ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞİ BİLİK VƏ BACARIQLARIN YOXLANMASI VASİTƏSİ KİMİ

**Məcid İsmixanov,**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti

Yoxlama və nəzarət pedaqoji prosesin mühüm komponentlərindəndir. Yoxlama prosesində şagirdlərin bilik və bacarıqlarının səviyyəsi aşkara çıxarılıb qiymətləndirilir, eyni zamanda onların genişləndirilməsi, dərinləşdirilməsi, ümumiləşdirilməsi və sistemə salınması eləcə də zehni qüvvələrinin, təfəkkürünün inkişafı təmin olunur. Bununla əlaqədar şagirdlərin fəallığı və müstəqilliyi üçün geniş imkanlar açılır.

Bilik və bacarıqların yoxlanmasında şagirdlərin fəallıq və müstəqilliyi bu prosesdə zehni və əməli xarakterli müstəqil işlərin tətbiqi ilə təmin olunur. Yoxlamanın bütün metodlarında şagirdlərin rəngarəng müstəqil işlərini təşkil etmək imkanları var. Bu imkanlardan səmərəli istifadə etməklə metodların inkişafetdirici, stimullaşdırıcı təsirini artırmaq vacibdir. Vaxtilə alman pedaqoqu A.Disterveq deyirdi: «Hər cür metod şagirdləri sadəcə qavramaya və ya qeyri-fəallığa alışdırırsa pisdir; əksinə, onların müstəqilliyini oyadırsa yaxşıdır». Bunu nəzərə alaraq müəllim yoxlama prosesində təkcə bilik və bacarıqların səviyyəsini aşkara çıxarmaqla kifayətlənməməli, həm də şagirdlərin müstəqil fikrini oyadan metodlara geniş yer verməlidir.

Yoxlama metodları içərisində **şifahi sorğu** mühüm yer tutur. Belə sorğu müəllimlə şagird arasında canlı əlaqə forması olub, şagirdlərin bilik səviyyəsini, onun düzgünlüyünü, şüurluluğunu, möhkəmliyini aşkara çıxarmaq, habelə onların müstəqil fikrini oyatmaq baxımından əhəmiyyətlidir, lakin sorğu özlüyündə vəzifələri təmin etmir; hər şey sorğunun necə təşkil edilməsindən, pedaqoji-metodik tələblərə uyğun qurulmasından asılıdır.

Məktəb təcrübəsində sorğu prosesindən şagirdlərin müstəqil fikrini oyatmaq üçün tam dolğun istifadə olunmur. Kiçikyaşlı məktəblilər, adətən, sorğu zamanı kitabdakı mətnin məzmununu olduğu kmi danışır, çox vaxt əzbər söyləyirlər. Bəzi müəllimlər bu zərərli halla mübarizə aparmaq əvəzinə özləri buna şərait yaradırlar. Müşahidə etdiyimiz bir dərsdə sorğu zamanı müəllim şagirdin əzbər söylədiyi hekayədə onun yadından çıxan sözləri yada salır, pozulmuş ardıcıllığı bərpa etməyə çalışırdı. Belə sorğu təkcə cavab verən şagird üçün yox, bütün sinif üçün zərərlidir. Kiçikyaşlı məktəblilər sorğuya müəllimin tələbinə görə hazırlaşırlar. Sorğu zamanı əzbərlənmiş cavaba müəllimin yüksək qiymət verməsini görən digər şagirdlər də yüksək qiymət almaq üçün beləcə hazırlaşmağa, yəni materialları sadəcə əzbərləməyə çalışırlar. Beləliklə, onsuz da mexaniki hafizənin üstünlük təşkil etdiyi

ibtidai sinif şagirdlərində müşahidə olunan əzbərçilik meyli müəllimin yanlış iş üsulu ilə, o cümlədən sorğu prosesinin yanlış təşkili ilə daha da güclənir.

Soğru prosesində şagirdlərin fəallıq və müstəqilliyi müəllimin verdiyi sual və tapşırıqların xarakteri ilə sıx bağlıdr. Müşahidələr göstərir ki, ibtidai təlimdə sorğu vaxtı şagirdlərin hafizəsinə istiqamət alan suallar üstünlük təşkil edir. Bəzən sorğu mətndəki nəqli cümlələri sual cümlələri ilə əvəz etmək şəklində keçirilir. Mətnin məzmununu eynilə almağa xidmət edən belə «sorğuda» şagirdlər müəllimin sorğu taktikasını bildikləri üçün suallar üzərində düşünmür, dərslikdən hər növbəti cümləni oxuyub müəllimə cavab verirlər. Belə vəziyyət, bir tərəfdən, müəllimin zəif metodik hazırlığı ilə, digər tərəfdən isə dərsliklərdəki sual və tapşırıqlarla bağlıdır. İbtidai sinif dərsliklərinin təhlili göstərir ki, sual və tapşırıqların xarakteri, hafizəyə və təfəkkürə yönələn sualların nisbəti, onların sistemi baxımından dərsliklər bir-birindən xeyli fərqlənir.

Aşağıdakı cədvəldən bunu aydın görmək olar.

| Dərsliklər | Siniflər | Sual və tapşırıqların sayı | Bərpaedici (%-lə) | Yaradıcı (%-lə) |
|---|---|---|---|---|
| «Oxu» | II | 390 | 55 | 45 |
| «Oxu» | III | 440 | 54 | 46 |
| «Oxu» | IV | 465 | 30 | 70 |
| «Təbiətşünaslıq» | III | 228 | 67 | 33 |
| «Təbiətşünaslıq» | IV | 302 | 70 | 30 |

Göründüyü kimi, II və III siniflərin «Oxu» dərsliklərində bərpaedici və yaradıcı fəaliyyət tələb edən sual və tapşırıqların nisbəti təminedicidir.

Şagirdlərdən yaradıcı xarakterli idrak fəaliyyəti tələb edən sual və tapşırıqlar sinifdən-sinfə keçdikcə artma istiqamətində qurulmuşdur. «Təbiətşünaslıq» dərsliklərində isə belə sual və tapşırıqlar azdır: bərpaedici və yaradıcı xarakterli tapşırıqların nisbəti 2:1 nisbətinə barəbərdir: III sinifdə 67:33%, IV sinifdə 70:30%. Fəal zehni iş tələb edən sual və tapşırıqlar IV sinif dərsliyində bir qədər azalır.

Bu cəhət şagirdlərdən yaradıcı əqli fəaliyyət tələb edən konkret təfəkkür priyomları ilə bağlı sual və tapşırıqların sistemində də özünü göstərir: məsələn, müqayisə tələb edən sual və tapşırıqlar «Oxu» dərsliklərindəki bütün sualların II sinifdə 6%-ni, III sinifdə 4,3%-ni, IV sinifdə 5%-ni təşkil edir. «Təbiətşünaslıq» dərsliklərində isə bu faiz III sinifdə 8%, IV sinifdə təxminən iki dəfə az – 4,6% təşkil edir. Səbəb-nəticə asılılıqlarının tapılmasına istiqamətlənən sual və tapşırıqlar II, III və IV siniflərin «Oxu» dərsliklərində müvafiq olaraq 14%, 10%, 10,7%, təşkil etdiyi halda, III və IV siniflərin «Təbiətşünaslıq» dərsliklərində 6% və 10% təşkil edir. Bu da, əlbəttə, şagirdlərin müvafiq zehni qabiliyyətinin formalaşması dinamikası

baxımından kifayət deyildir. Bu hal ümumiləşdirmə bacarığının inkişafına yönələn sual və tapşırıqların dinamikasında da özünü göstərir. «Oxu» dərsliklərində belə tapşırıqlar II sinifdə 6%, III sinifdə 4,5%, IV sinifdə 6.4% təşkil etdiyi halda, «təbiətşünaslıq» dərsliklərində onların xüsusi çəkisi xeyli azdır (III sinifdə 1,4%, IV sinifdə 2,3%). Bu isə, öz növbəsində, məktəblilərdə zəruri təfəkkür əməliyyatlarının müstəqil düşünmə bacarığının formalaşmasını kifayət qədər stimullaşdırmır, təlimdə müstəqil fikri işlərin təşkili üçün lazımi şərait yaratmağa imkan vermir.

Təlimdə bərpaedici və yaradıcı sual və tapşırıqlar özlərinə məxsus didaktik vəzifələri yerinə yetirir. Buna görə də onların hər birinin yerini düzgün müəyyənləşdirmək, optimal əlaqəsini təmin etmək vacib şərtdir. Pedaqoji ədəbiyyatda sual və tapşırıqlar daşıdıqları əsas didaktik vəzifələrə görə bir neçə qrupa bölünür: yoxlama ilə bağlı bəziləri (B.V.Juravlyov) 3, başqaları (B.P.Yesipov, Ə.S.Bayramov) 5, üçüncü qrup alimlər (Y.İ.Petrovski) isə 12 sual tipi irəli sürürlər. Qabaqcıl müəllimlərin təcrübəsi əsasında yoxlama xarakterli sualları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Bilik və bacarıqların mənimsənilməsi səviyyəsini (düzgünlüyünü, dolğunluğunu) aşkara çıxarmağa yönələn suallar; 2. Bilik və bacarıqların dərk olunma səviyyəsini (şüurluluğunu) aşkara çıxarmağa yönələn suallar; 3. Keçilən materiala şagirdin münasibətini (şəxsi mülahizəsini, qiymətləndirmə bacarığını) aşkara çıxarmağa yönələn suallar; 4. Öyrənilən bilikləri şagirdin tətbiq etmək bacarığını aşkara çıxarmağa yönələn suallar.

Birinci qrup suallar, əsasən, hafizəyə yönəlib, keçilənləri yada salmağa xidmət edir. İkinci qrup suallar bilik və bacarıqların dərk olunma səviyyəsini, mənimsəmənin şüurlu olub-olmadığını müəyyənləşdirmək vəzifəsi daşıyır.

Keçilən bilikləri konkretləndirmək, qiymətləndirmək, tətbiq etmək istiqamətində qoyulmuş sual və tapşırıqlar ibtidai sinif dərsliklərində 3-5% təşkil edir. IV sinifdə oxu dərsində «Yaxşı yoldaş» hekayəsi ilə bağlı müəllim şagirdləri aşağıdakı suallara cavab tapmağa sövq edir:

- Ramiz Cavaddan nə üçün incimişdi?
- Onlardan kim haqlı idi?
- Siz necə hərəkət edərdiniz?
- Dostluğu necə başa düşürsünüz?

Sualların köməyi ilə şagirdlər obrazları qiymətləndirir, onlara öz münasibətini bildirir, oxuduqlarını konkret hallara tətbiq etməyi, müstəqil fikir söyləməyi öyrənirlər.

Sorğu zamanı şagirdlərin müstəqil fikrini təmin etməkdə xüsusi düşünülmüş sual və tapşırıqlarla yanaşı, qabaqcıl müəllimlərin təcrübəsində digər yollardan da istifadə edilir: a) şagirdlərin mətni öz sözləri ilə danışmaları; b) yoldaşlarının cavablarına əlavə və düzəlişlər etmələri; c) cavaba rəy söyləmələri; ç) yoldaşlarına suallar vermələri və s.

Şagirdlərin sorğu prosesində keçilənləri kitab cümlələri ilə yox, öz sözləri ilə danışmaları onların müstəqil fikri fəaliyyətinin nəticəsi, həm də göstəricisidir. Bu halda şagird material üzərində mürəkkəb fikri iş aparmalı olur: mətni təhlil edir, oradakı əsas fikirləri seçib ayırır, hissələr arasında əlaqə yaradır, fikrini düzgün ifadə etmək üçün müvafiq söz və cümlələr tapır və s. Şagirdlərin materialları öz sözləri ilə danışmaları üçün onları müfəssəl, yığcam və yaradıcı nəqletməyə cəlb etmək faydalıdır. Bu məqsədlə müəllim mətni hissə-hissə soruşaraq, hər hissənin məzmununu iki-üç cümlə ilə danışmağı tələb edir. Yaxud cavab vermək üçün çağırılan şagirdə deyir:

Oxuduğunu qısaca danış, hamısını yox, əsas yerləri danış.

İlk vaxtlar uşaqlara kömək üçün müəllim mətnə dair 3-4 sual və ya plan verməklə onları yığcam nəqletməyə istiqamətləndirir. Zəif oxunan şagirdlərə isə plandan əlavə nümunələr, sxemlər verilir. Tədricən şagirdlər özlərinin tərtib etdikləri plan əsasında yığcam danışmağı öyrənirlər.

Yaradıcı nəqletmə şagirdlərin müstəqil fikri işinin çox mühüm Vasitəsidir. Belə nəqletmə müxtəlif şəkillərdə təşkil edilir: a) mətnin məzmununu başqa şəxsin və ya orada iştirak edən surətlərdən birinin dili ilə nəql etmək; b) hadisələri başqa zamanda təsvir etmək; c) mətnin süjetində dəyişiklik etmək; ç) bədii nəşr parçasını müstəqil davam etdirmək və s. Belə nəqletmə materiala yaradıcı və şüurlu yanaşmağı öyrədir, müəllimə isə şagirdin mətn üzərində müstəqil işləmək bacarığını, təfəkkür və təxəyyül səviyyəsini aşkara çıxarmağa imkan verir. Bədii mətnlər üzrə yaradıcı nəqletmə ilə bağlı aparılan eksperimental dərslərin nəticələri bu sahədə kiçikyaşlı məktəblilərdə zehni fəallıq və müstəqilliyin üç səviyəsini müəyyən etməyə əsas verir: 1) təqlidçilik fəaliyyəti: bu halda şagirdlər bədii mətnin bütün ünsürlərini (ideya, süjet, məzmun) heç bir dəyişiklik aparmadan təkrarlayırlar; 2) müstəqillik elementləri ilə bərpaedici fəaliyyət: bu halda şagirdlər mətn üzərində qismən dəyişiklik aparır, mövcud biliklərindən, təsəvvürlərindən istifadə edərək müəyyən obrazlar və obrazlı situasiyalar yaradırlar; 3) yaradıcılıq elementləri ilə müstəqil fəaliyyət: bu halda şagirdlər mövcud təsəvvürlərini əlaqələndirməklə və yenidən qurmaqla yeni obrazlar və obrazlı situasiyalar yaradırlar. Onlar obrazların hərəkətləri və ayrı-ayrı hadisələr arasındakı əlaqələri müəyyən edir, qəhrəmana emosional münasibət bəsləyir, müxtəlif bədii təsvir vasitələrindən istifadə edirlər. Bəzən məlum ideyalar yeni süjetə daxil edilir, hər hansı bədii əsərin fraqmentləri mövcud təsəvvürlər əsasında yeni şəklə salınır. Nəticədə uşaqların yaratdıqları yeni obrazlar və obrazlı situasiyalar oxunmuş əsərin məzmunundan əsaslı şəkildə fərqlənir. Yaradıcı nəqletmədə uşaqların yaradıcılıq elementləri onda özünü göstərir ki, onlar bədii mətndəki priyomlardan istifadə edərək yeni vəzifələri, yeni həyati məsələləri həll etməyə çalışırlar: məsələn, su pərisinin sehirli şamı qəhrəmana xeyirxah işlər görməyə kömək edir: zəif uşağa qüvvət verir, düşmənləri məhv edir, ağır xəstələri sağaldır və s. (II sinif oxu dərsində «Yoxsul

balıqçı» nağılı əsasında uşaqların tərtib etdikləri nağıllardan). Tədqiqat göstərir ki, uşaqlarda yaradıcı nəqletmə bacarığı nə qədər yaxşı formalaşırsa, oxu dərslərində onların zehni fəallığı və müstəqilliyi daha çox təzahür edir.

Sorğu prosesində şagirdləri müstəqil fikri işə cəlb etməyin mühüm vasitələrindən biri onların öz yoldaşlarının cavablarına düzəlş və əlavələr etməsi, rəy söyləmələridir. Bu, bir tərəfdən, bütün sinfin sorğuda diqqətli olmasına, digər tərəfdən isə şagirdlərdə müstəqil və tənqidi düşünmə bacarığının formalaşmasına kömək göstərir.

Bunu nəzərə alaraq qabaqcıl müəllimlər şagirdin cavabına digər şagirdlərin düzəliş və əlavələr etmələrinə şərait yaradırlar. Bu məqsədlə şagirdin danışığının, gətirdiyi misalların, çıxardığı nəticələrin düzgün olub-olmadığına dair onların fikirlərini öyrənirlər:

- Sizcə, yoldaşınız düzgünmü cavab verdi? Kim başqa cür düşünür? Kimin əlavəsi var? Kim suala daha yaxşı cavab vermək istəyir? Və s.

Apardığımız tədqiqatla bağlı eksperimental dərsdə (Bakının Yasamal rayonundakı 31 nömrəli məktəbin III$^{a}$ sinfi) müəllim Ə.Qurbanova fəallaşdırıcı sorğudan istifadə etdi. O, oxu dərsində «Bənnanın söhbəti» mətninin sorğusunda şagirdlərə 25 sualla müraciət etmiş, onlardan 15 suala düzgün cavab alınmış, qalan 10 sualla bağlı sinifdəki digər şagirdlərin fikirləri öyrənilmişdir. Bununla da bir çox şagirdin bilik səviyyəsini aşkara çıxara bilmişdir. Bu isə fərdi və frontal sorğunun, kollektiv işin əlaqələndirilməsi sayəsində mümkün olmuşdur.

Tədqiqat göstərir ki, sorğu prosesində müəllim şagirdlərin mənimsəmə səviyyəsinə və zehni fəaliyyətinə nə qədər intensiv nəzarət edirsə, nə qədər çox fəallaşdırırsa, sorğunun səmərəsi də bir o qədər yüksək olur. Bu zaman həm də düz və əks əlaqə daha yaxşı təmin olunur. Müəllim şagirdlərin hazırlıq səviyyəsini aşkara çıxarmaqla, bu səviyyəyə əsaslanmaqla onların təlim-idrak fəaliyyətinə istiqamət verir, onu daha yaxşı idarə edə bilir.

Sorğuda olduğu kimi, yazılı tapşırıqların yoxlanması prosesində də şagirdlərin fəallıq və müstəqilliyini təmin etmək çox vacibdir. Yazılı tapşırıqların yoxlanmasında müəllim şagirdlərin bilik və bacarıqlara necə yiyələndiklərini, bilikləri necə tətbiq etdiklərini, bu zaman nə dərəcədə şüurlu və müstəqil hərəkət etdiklərini aşkara çıxarmağa çalışmalıdır. Bu məqsədlə müxtəlif tərzlərdən istifadə olunur.

1) Müəllim ayrı-ayrı şagirdlərdən tapşırığı necə icra etdiklərini soruşur, qalan şagirdlər öz cavablarına bununla müqayisə edib zəruri olduqda düzəlişlər aparırlar.

2) Müəllim tək-tək şagirdlərə müraciət edib, verilmiş tapşırığı və ya ona oxşar çalışmanı yazı taxtasında yenidən icra etdirir.

3) Müəllim bütün sinfi ev tapşırığına uyğun tapşırığın müstəqil həllinə cəlb edir. Sonra yerinə yetirilmiş müstəqil işlər yoxlanır.

4) Eyni partada oturan şagirdlər (və ya müəllimin məsləhəti ilə eyni və ya müxtəlif səviyyəli şagirdlər) dəftərlərini dəyişib, yoxlayır, səhvlərin altından karandaşla xətt çəkirlər. Sonra dəftərlər geri qaytarılır, hər kəs öz işinə aid yoldaşının tapdığı səhvləri nəzərdən keçirir və müvafiq düzəlişlər aparır.

5) Müəllim verilmiş tapşırığın düzgün cavabını yazı taxtasına yazır, şagirdlər düzgün cavablar əsasında öz işlərini yoxlayıb, səhvləri düzəldirlər.

Yazı işlərinin təshihindən də şagirdlərin müstəqilliyinin inkişafı üçün istifadə etmək faydalıdır. Qabaqcıl müəllimlərin təcrübəsində səhvlər üzərində müstəqil iş müəyyən sistemlə aparılır: əvvəlcə şagirdlər öz səhvləri ilə tanış olur, sonra onların iştirakı ilə səhvlərin təbiəti müəyyənləşdirilir və nəhayət, bu səhvlərin aradan qaldırılması üçün çalışmalar aparılır. Səhvlər üzərində müstəqil iş, bir tərəfdən, bilik, bacarıq və vərdişlərin şüurlu mənimsənilməsinə kömək edir, digər tərəfdən isə şagirdlərdə öz işlərinə tənqidi yanaşma və özünüyoxlama vərdişlərinin formalaşmasına imkan verir.

Göründüyü kimi, bilik və bacarıqların yoxlanması prosesində şagirdlərin müstəqil işini təşkil etmək və yoxlamanı fəal aparmaq üçün əlverişli imkanlar vardır. Yoxlamanın fəal aparılmasının bilik və bacarıqların şüurluluğuna və möhkəmliyinə, habelə şagirdlərin fikri işinin xarakterinə təsirini eksperiment yolu ilə öyrənməyə çalışdıq (Bakıdakı 31 nömrəli məktəbdə). Kontrol siniflərdə yoxlama öyrənilmiş materialları şagirdlərin sadəcə danışmaları (nəqletmələri) yolu ilə aparılmış, verilən suallar, əsasən, hafizəyə istiqamətlənmişdir. Eksperimental siniflərdə isə yoxlama fərqli metodika ilə aparılmışdır: burada yoxlama prosesi material üzərində şagirdlərin fəal fikri iş aparması, müstəqil mülahizələr yürütməsi, fikirlərin izahı, əsaslandırılması, özünüyoxlama şəraitində keçmişdir. Müntəzəm davam edən fəal yoxlama prosesinin müsbət təsirini eksperimental və kontrol siniflərdə təlim göstəricilərinin müqayisəsindən aydın görmək olar. Eksperimental və kontrol siniflərdə eyni məzmunda keçirilmiş yoxlama yazı işlərinin nəticələri aşağıdakı kimi olmuşdur.

**Yoxlama imlada bir şagirdə düşən orta səhvin miqdarı**

| Siniflər | Eksperimentdən əvvəl | Eksperimentdən sonra |
|---|---|---|
| II [a] eksp. | 6,0 | 2,1 |
| II [b] kont. | 5,8 | 3,5 |
| III[a] eksp. | 4,3 | 1,5 |
| III[b] kont. | 4,5 | 2,8 |

Göründüyü kimi, eksperimental siniflərdə hər şagirdə orta hesabla 1,5-2,1 səhv düşdüyü halda, kontrol siniflərdə nisbətən çox – 2,8-3,5 səhv düşür. Bu hal şagirdlərin fəallıq və müstəqilliyinə əsaslanan yoxlama prosesinin bacarıq və vərdişlərin formalaşmasına müsbət təsiri ilə izah edilə

bilər. Eksperimentdən əvvəlki və sonrakı göstəriciləri müqayisə etdikdə eksperimental siniflərdə fərq daha çox nəzərə çarpır: bir şagirdə düşən səhvlərin sayı bu siniflərdə üç dəfə azalmışdır.

İbtidai siniflərdə oxu, təbiətşünaslıq və digər fənlərdən eksperimental və kontrol siniflərdə şagirdlərin cavablarının müqayisəli təhlili göstərir ki, sorğu prosesində müəllimin suallarının xarakterindən, onun tələbindən asılı olaraq şagirdlərin əqli fəaliyyəti müxtəlif istiqamətdə formalaşır. Yalnız hafizəyə yönələn sorğu prosesində şagirdlər keçilənləri olduğu kimi yada salmağa çalışır, kitabdan kənara çıxa bilmirlər. Belə sorğu metodikası şagirdləri əzbərçiliyə sövq edir, onlarda qüsurlu əqli fəaliyyətin yaranmasına səbəb olur.

Eksperimental siniflərdə şagirdlərin keçilən materiallar üzərində fəal fikri iş aparmaları, düşündürücü suallara cavab tapmaları, biliklərini müxtəlif hallara müstəqil tətbiq etmələri, öyrənilən məsələlərə öz münasibətini bildirmələri onlarda yaradıcı əqli fəaliyyətin formalaşmasına gətirib çıxarır.

## *SİZİN KİTAB RƏFİNİZ*

1. ***Y.Ş.Kərimov.*** Ana dilinin tədrisi metodikasının nəzəri problemləri (274 səhifə. Elmi redaktoru p.e.n. Ə.Abbasov. Bakı, «Nasir» nəşriyyatı, 2005.

2. ***R.L.Hüseynzadə.*** M.T.Sidqi dilimiz və məktəbimiz haqqında. (60 səhifə. Elmi redaktoru akad. İsa Həbibbəyli), Bakı, «Müəllim» nəşriyyatı, 2005.

3. ***X.İ. Səlimxanova.*** Məktəbəqədər yaşlı uşaqlar üçün folklor nümunələri (212 səhifə. Elmi redaktoru prof. Y.Ş.Kərimov), Bakı, «Nərgiz» nəşriyyatı, 2005.

4. ***O.M.Rəcəbov.*** Ümumtəhsil məktəblərində musiqi tədrisi metodikası. (160 səhifə. Elmi redaktoru p.e.n. Nazim Kazımov), Bakı, «Şirvannəşr», 2005.

5. ***M.C.İsmayılova.*** Nitq nöqsanlarının aradan qaldırılmasında yanıltmaclardan istifadə (80 səhifə. Elmi redaktoru prof. Y.Ş.Kərimov), Bakı, «Nərgiz» nəşriyyatı, 2005.

## «ƏLİFBA» VƏ «HƏYAT BİLGİSİ» ÜZRƏ PROQRAM MATERİALININ BÖLGÜSÜ

Yeni «Əlifba» dərsliyi və «İş dəftərləri»nin nəşri ilə əlaqədar keçən iki bölgüdən istifadə etmək mümkün deyil. Aşağıda müəllimlərə təxmini bölgü nümunəsi təqdim olunur.

*15 sentyabr.* **Oxu.** Bilik günü. Azərbaycan xalqının ümummillilideri Heydər Əliyev, təhsil almaq, məktəb, müəllim haqqında söhbət.
Məktəb, sinif, dərsliklər və dərs vəsaitləri ilə tanışlıq.
**Həyat bilgisi.** Səh. 6-10.
*Yazı.* Nitq (cümlə) 7-ci səhifə üzrə ailə haqqında müsahibə. Pedaqoji diaqnostika.

*16 sentyabr.* **Oxu.** Cümlə. 7-ci səhifə əsasında ailə haqqında müsahibə. Pedaqoji diaqnostika.
***Yazı.* İş dəftəri A.** 4-cü səhifədəki şəkillər əsasında yazı yazarkən əyləşmək qaydaları haqqında müsahibə.

*19 sentyabr.* **Oxu.** Cümlə 8-ci səhifə əsasında uşaq bağçası, oyunlar və oyuncaqlar haqqında müsahibə.
***Yazı.* İş dəftəri A.** 5-ci səhifə üzrə iş.

*20 sentyabr.* **Oxu.** Cümlə 9-cu səhifə əsasında ev heyvanları haqqında müsahibə.
Pedaqoji diaqnostika.
***Yazı.* İş dəftəri A.** 6-7-ci səhifələr üzrə iş.

*21 sentyabr.* **Oxu.** Cümlə 10-cu səhifə əsasında vəhşi heyvanlar haqqında müsahibə.
**Həyat bilgisi.** 11-13-cü səhifələr əsasında «Məktəbə getmək və məktəbdən qayıtmaq» mövzusunda müsahibə.

*22 sentyabr.* **Oxu.** Cümlə 11-12-ci səhifələr əsasında ev quşları və çöl quşları haqqında müsahibə.
***Yazı.* İş dəftəri A.** 8-9-cu səhifələr üzrə iş.

*23 sentyabr.* **Oxu.** Cümlə 13-cü səhifə əsasında idman haqqında müsahibə.
***Yazı.* İş dəftəri A.** 10-cu səhifə üzrə iş.

*26 sentyabr.* **Oxu.** Nitq inkişafı. 14-15-ci səhifələrdəki şəkillər əsasında nağıllar aləmində mövzusunda müsahibə.
***Yazı.* İş dəftəri A.** 11-ci səhifə üzrə iş.

*27 sentyabr.* **Oxu.** 17-18-ci səhifələr əsasında, pambıq və kənd haqqında müsahibə.

*Yazı.* **İş dəftəri A.** 12-ci səhifə üzrə iş.

*28 sentyabr.* **Oxu.** 16-19-cu səhifələr əsasında neft və şəhər haqqında müsahibə.

**Həyat bilgisi.** 14-16-cı səhifələr əsasında «Məktəbdə davranış qaydaları» mövzusunda müsahibə.

*29 sentyabr.* **Oxu.** *A* səsi və hərfi. 20-21-ci səhifələr üzrə iş.

*Yazı.* **İş dəftəri A.** 13-cü səhifə. Kiçik *a* hərfinin yazılışı üzrə iş.

*30 sentyabr.* **Oxu.** *N* səsi və hərfi 22-23-cü səhifələr üzrə iş.

*Yazı.* **İş dəftəri A.** 14-cü səhifə. Kiçik *n* hərfinin yazılışı üzrə iş.

*3 oktyabr.* **Oxu.** *Ə* səsi və hərfi. 24-cü səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri A.** 15-16-cı səhifələr. Kiçik və böyük *Ə* hərfinin yazılışı üzrə iş.

*4 oktyabr.* **Oxu.** *Ə* səsi və hərfi. 25-ci səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri A.** 17-ci səhifə. *N* hərfinin yazılışı üzrə iş.

*5 oktyabr.* **Oxu.** *T* səsi və hərfi. 26-cı səhifə üzrə iş.

**Həyat bilgisi.** 17-20-ci səhifələr əsasında «Vücudumuz, sağlamlığımız» mövzusunda müsahibə.

*6 oktyabr.* **Oxu.** *T* səsi və hərfi. 27-ci səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri A.** 18-ci səhifə. Kiçik t hərfinin yazılışı üzrə iş.

*7 oktyabr.* **Oxu.** *Y* səsi və hərfi. 28-ci səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri A.** 19-cu səhifə. Kiçik *y* hərfinin yazılışı üzrə iş.

*10 oktyabr.* **Oxu.** *Y* səsi və hərfi. 29-cu səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri A.** 20-21-ci səhifələr. *Y* və *A* hərflərinin yazılışı üzrə iş.

*11 oktyabr.* **Oxu.** *O* səsi və hərfi. 30-cu səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri A.** 22-23-cü səhifələr. *O* hərfinin kiçiyinin və böyüyünün yazılışı üzrə iş.

*12 oktyabr.* **Oxu.** *O* səsi və hərfi. 31-ci səhifə üzrə iş.

**Həyat bilgisi.** 21-23-cü səhifələr əsasında «Sinif nümayəndələrinin seçilməsi qaydaları» mövzusunda müsahibə. Demokratiya ilə ilkin tanışlıq.

*13 oktyabr.* **Oxu.** *U* səsi və hərfi. 32-ci səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri A.** 24-25-ci səhifələr. *U* hərfinin kiçiyi və böyüyünün yazılışı üzrə iş.

*14 oktyabr.* **Oxu.** *U* səsi və hərfi. 33-cü səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri A.** 26-cı səhifə. *T* hərfinin yazılışı üzrə iş.

*17 oktyabr.* **Oxu.** *L* səsi və hərfi. 34-cü səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri A.** 27-28-ci səhifələr. Hərfin kiçiyi və bö-

yüyünün yazılışı üzrə iş.

***19 oktyabr.*** **Oxu.** *L* səsi və hərfi. 35-ci səhifə üzrə iş.

**Həyat bilgisi.** 24-26-cı səhifələr əsasında «Mən və biz» mövzusunda müsahibə.

***20 oktyabr.*** **Oxu.** *R* səsi və hərfi. 36-cı səhifə üzrə iş.

***Yazı.*** **İş dəftəri A.** 29-cu səhifə. Kiçik *r* hərfinin yazılışı üzrə iş.

***21 oktyabr.*** **Oxu.** *R* səsi və hərfi. 37-ci səhifə üzrə iş.

***Yazı.*** **İş dəftəri A.** 30-cu səhifə. Hərfin böyüyünün yazılışı üzrə iş.

***24 oktyabr.*** **Oxu.** Ümumiləşdirici dərs. 38-39-cu səhifələr üzrə iş.

***Yazı.*** **İş dəftəri A.** 31-ci səhifə. Kalliqrafik imla.

***25 oktyabr.*** **Oxu.** *I* səsi və hərfi. 40-cı səhifə üzrə iş.

***Yazı.*** **İş dəftəri B.** 1-2 səhifələr. Hərfin kiçiyinin və böyüyünün yazılışı üzrə iş.

***26 oktyabr.*** **Oxu.** *I* səsi və hərfi. 41-ci səhifə üzrə iş.

**Həyat bilgisi.** 27-29-cu səhifələr əsasında «Vətənimiz, paytaxtımız» mövzusunda müsahibə.

***27 oktyabr.*** **Oxu.** *İ* səsi və hərfi. 42-ci səhifə üzrə iş.

***Yazı.*** **İş dəftəri B.** 3-cü səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

***28 oktyabr.*** **Oxu.** *İ* səsi və hərfi. 43-cü səhifə üzrə iş.

***Yazı.*** **İş dəftəri B.** 4-cü səhifə. Hərfin böyüyünün yazılışı üzrə iş.

***31 oktyabr.*** **Oxu.** *B* səsi və hərfi. 44-cü səhifə üzrə iş.

***Yazı.*** **İş dəftəri B.** 5-ci səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

***7 noyabr.*** **Oxu.** *B* səsi və hərfi. 45-ci səhifə üzrə iş.

***Yazı.*** **İş dəftəri B.** 6-7-ci səhifələr. Hərfin kiçiyinin və böyüyünün yazılışı üzrə iş.

***8 noyabr.*** **Oxu.** *P* səsi və hərfi. 46-cı səhifə üzrə iş.

***Yazı.*** **İş dəftəri B.** 8-ci səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

***9 noyabr.*** **Oxu.** *P* səsi və hərfi. 47-ci səhifə üzrə iş.

**Həyat bilgisi.** 30-32-ci səhifələr əsasında «Bayrağımız və himnimiz» mövzusunda müsahibə.

***10 noyabr.*** **Oxu.** *D* səsi və hərfi. 48-ci səhifə üzrə iş.

***Yazı.*** **İş dəftəri B.** 9-10-cu səhifələr əsasında böyük *P* və kiçik *d* hərfinin yazılışı üzrə iş.

***11 noyabr.*** **Oxu.** *D* səsi və hərfi. 49-cu səhifə üzrə iş.

***Yazı.*** **İş dəftəri B.** 11-12-ci səhifələr. Hərfin kiçiyinin və böyüyünün yazılışı üzrə iş.

***14 noyabr.*** **Oxu.** *S* səsi və hərfi. 50-ci səhifə üzrə iş.

***Yazı.*** **İş dəftəri B.** 12-ci səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

***15 noyabr.*** **Oxu.** *S* səsi və hərfi. 51-ci səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri B.** 13-14-cü səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş.

*16 noyabr.* **Oxu.** *Ş* səsi və hərfi. 52-ci səhifə üzrə iş.

**Həyat bilgisi.** 33-35-ci səhifələr əsasında «Ətrafımızdakı varlıqlar» mövzusunda müsahibə.

*18 noyabr.* **Oxu**. *Ş* səsi və hərfi. 53-cü səhifə üzrə iş.

*Yazı. İş dəftəri B. 15-16-cı səhifələr. Hərfin kiçiyinin və* böyüyünün yazılışı üzrə iş.

*21 noyabr.* **Oxu.** *M* səsi və hərfi. 54-cü səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri B.** 17-ci səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

*22 noyabr.* **Oxu.** *M* səsi və hərfi. 55-ci səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri B.** 18-19-cu səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş.

*23 noyabr.* **Oxu.** Ümumiləşdirici dərs. 56-57-ci səhifələr üzrə iş.

**Həyat bilgisi.** 36-38-ci səhifələr əsasında «Ev heyvanları və quşları» mövzusunda müsahibə.

*24 noyabr.* **Oxu.** *X* səsi və hərfi. 58-ci səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri B.** 20-ci səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

*25 noyabr.* **Oxu.** *X* səsi və hərfi. 59-cu səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri B.** 21-22 səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş.

*28 noyabr.* **Oxu.** *Z* səsi və hərfi. 60-cı səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri B.** 23-cü səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

*29 noyabr.* **Oxu.** *Z* səsi və hərfi. 61-ci səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri B.** 24-25-ci səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş.

*30 noyabr.* **Oxu.** *Q* səsi və hərfi. 62-ci səhifə üzrə iş.

**Həyat bilgisi.** 40-42-ci səhifələr əsasında «Bitkilər və onların orqanları» mövzusunda müsahibə.

*1 dekabr.* **Oxu.** *Q* səsi və hərfi. 63-cü səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri B.** 26-cı səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

*2 dekabr.* **Oxu.** *Ğ* səsi və hərfi. 64-cü səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri B.** 27-28-ci səhifələr. Q hərfinin kiçiyi və böyüyünün yazılışı üzrə iş.

*5 dekabr.* **Oxu.** *Ğ* səsi və hərfi. 65-ci səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri B.** 29-cu səhifə. Hərfin kiçiyinin və böyüyünün yazılışı üzrə iş.

*6 dekabr.* **Oxu.** *V* səsi və hərfi. 66-cı səhifə üzrə iş.

*Yazı.* **İş dəftəri B.** 30-31-ci səhifələr. Hərfin kiçiyinin və böyüyünün yazılışı üzrə iş.

*7 dekabr.* **Oxu.** *V* səsi və hərfi. 67-ci səhifə üzrə iş.

**Həyat bilgisi.** 43-45-ci səhifələr əsasında «Bitkilərin faydası» mövzusunda müsahibə.

| | |
|---|---|
| *8 dekabr.* | **Oxu.** *E* səsi və hərfi. 68-ci səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C**, 1-ci səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş. |
| *9 dekabr.* | **Oxu.** *E* səsi və hərfi. 69-cü səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C**. 2-3-cü səhifələr. Hərfin kiçiyi və böyüyü üzrə iş. |
| *12 dekabr.* | **Oxu.** *K* səsi və hərfi. 70-ci səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C.** 4-cü səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş. |
| *13 dekabr.* | **Oxu.** *K* səsi və hərfi. 71-ci səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C.** 5-ci səhifə. Hərfin böyüyünün yazılışı üzrə iş. |
| *14 dekabr.* | **Oxu.** *K* səsi və hərfi. 72-ci səhifə üzrə iş.<br>**Həyat bilgisi.** 45-47-ci səhifələr əsasında «Ayağımızın altındakı Yer, başımızın üstündəki göy» mövzusunda müsahibə. |
| *15 dekabr.* | **Oxu.** *K* səsi və hərfi. 73-cü səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C.** 6-7-ci səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş. |
| *16 dekabr.* | **Oxu.** *Ç* səsi və hərfi. 74-cü səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C.** 8-ci səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş. |
| *19 dekabr.* | **Oxu.** *Ç* səsi və hərfi. 75-ci səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C.** 9-10-cu səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş. |
| *20 dekabr.* | **Oxu.** *C* səsi və hərfi. 76-cı səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C.** 11-12-ci səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş. |
| *21 dekabr.* | **Oxu.** *C* səsi və hərfi. 77-ci səhifə üzrə iş.<br>**Həyat bilgisi.** 49-51-ci səhifələr əsasında «Fəsillər. Payız» mövzusunda müsahibə. |
| *22 dekabr.* | **Oxu**. *Ü* səsi və hərfi. 78-ci səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C.** 13-cü səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş. |
| *23 dekabr.* | **Oxu.** *Ü* səsi və hərfi. 79-cu səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C.** 14-15-ci səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş. |
| *26 dekabr.* | **Oxu.** *Ö* səsi və hərfi. 80-ci səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C.** 16-cı səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş. |
| *27 dekabr.* | **Oxu.** *Ö* səsi və hərfi. 81-ci səhifə üzrə iş.<br>***Yazı.* İş dəftəri C.** 17-18-ci səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş. |
| *28 dekabr.* | **Oxu.** *G* səsi və hərfi. 82-ci səhifə üzrə iş.<br>**Həyat bilgisi.** 52-54-cü səhifələr əsasında «Su içməli və |

çirkli sular» mövzusunda müsahibə.

*29 dekabr.* **Oxu.** *G* səsi və hərfi. 83-cü səhifə üzrə iş.
***Yazı.*** **İş dəftəri C.** 19-20-ci səhifələr. Hərfin kiçiyinin və böyüyünün yazılışı üzrə iş.

*11 yanvar.* **Oxu.** Ümumiləşdirici dərs. 84-85-ci səhifələr üzrə iş.
**Həyat bilgisi.** 55-58-ci səhifələr əsasında «Suda yaşayan canlılar» haqqında müsahibə.

*12 yanvar.* **Oxu.** *H* səsi və hərfi. 86-cı səhifə üzrə iş.
***Yazı.*** **İş dəftəri C.** 21-ci səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

*13 yanvar.* **Oxu.** *H* səsi və hərfi. 87-ci səhifələr üzrə iş.
***Yazı.*** **İş dəftəri C.** 22-23-cü səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş.

*16 yanvar.* **Oxu.** *F* səsi və hərfi. 88-ci səhifə üzrə iş.
***Yazı.*** **İş dəftəri C.** 24-cü səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

*17 yanvar.* **Oxu.** *F* səsi və hərfi. 89-cu səhifə üzrə iş.
***Yazı.*** **İş dəftəri C.** 25-26-cı səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş.

*18 yanvar.* **Oxu. J** səsi və hərfi. 90-cı səhifə üzrə iş.
**Həyat bilgisi.** 59-62-ci səhifələr əsasında «Gündüz və gecə» mövzusunda müsahibə.

*19 yanvar.* **Oxu**. Şəhidlər xiyabanı. 101-ci səhifə üzrə iş.
***Yazı.*** **İş dəftəri C.** 28-ci səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

*23 yanvar.* **Oxu.** J səsi və hərfi. 91-ci səhifə üzrə iş.
***Yazı.*** **İş dəftəri C.** 27-ci səhifə. Hərfin kiçiyinin yazılışı üzrə iş.

*24 yanvar.* **Oxu.** «Əlifba». 92-ci səhifə üzrə iş.
***Yazı.*** **İş dəftəri C.** 28-29-cu səhifələr. Hərfin kiçiyi və böyüyünün yazılışı üzrə iş.

*25 yanvar.* **Oxu.** B.Vahabzadə «Müəllim». 93-cü səhifə üzrə iş.
**Həyat bilgisi.** 63-65-ci səhifələrə əsasən «Külək necə əmələ gəlir» mövzusunda müsahibə.

*26 yanvar.* **Oxu.** Vətən. 97-ci səhifə.
***Yazı.*** **İş dəftəri C.** 30-31-ci səhifələr. Kalliqrafik imla.

*27 yanvar.* **Oxu.** S.Vurğun «Azərbaycan». 98-ci səhifə.
***Yazı.*** «Əlifba bayramı»na hazırlıq.

*30 yanvar.* **Oxu.** Sülh. 102-ci səhifə.
***Yazı.*** «Xoruz» (A.Şaiq) üzrə kalliqrafik imla.
«Əlifba bayrpamı»na hazırlıq..

*31 yanvar.* «Əlifba bayramı».



**Pirməmmədov Ülfət**

*İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın IV sinif şagirdi*

BAHAR

Novruz gəlir, yaz gəlir,
Torpağa nəfəs gəlir.
Quşlar çıxır yuvadan,
Meşələrdən səs gəlir.

Uşaqlar sevinirlər
Körpə quşlar oxuyur.
Çiçək açmış çəmənlər,
Daha da xoş qoxuyur.

Dağlarda qar əriyir,
Gur çaylar aşır-daşır,
Badamlar çiçəkləyir,
Hər tərəf yaşıllaşır.

MÜƏLLİMİM

Bir müəllimin var mənim
Esmiradır onun adı.
Özü gözəl, dili şirin
Bizi sayır öz övladı.

Savad, tərbiyə verir,
Onu qəlbən sevirik.
Bizə qayğı göstərir,
Doğma ana bilirik.

**AZƏRBAYCAN**

Azərbaycan! Azərbaycan!
Ana yurdum Azərbaycan!
Bu dünyada əvəzsizsən.
Mənim doğma vətənimsən.

Himnimizdə deyilən tək,
Səndən ötrü qan verərəm.
Müstəqillik yollarında
Lazım gəlsə can verərəm.

Ucalırsan hər gün, hər an,
Heydər yoludur yolumuz,
Düşməni məhv etmək üçün
Vardır güclü bir ordumuz.

Vətənimin gələcəyi
Uşaqların əlindədir.
Qurtuluşunun mənbəyi
Bilikdədir, elmdədir.

## NƏNƏMDƏN MƏKTUB GƏLİB!...

*Musiqi: Rəşid Şəfəqindir*
*Sözləri: Valeh Mirzənindir*

SOLO- Nənəmdən məktub gəlib,
XOR – Can, ay can, ay can, ay can!
SOLO – Məktubla sovqat gəlib,
XOR - Can, ay can, ay can, ay can!
Solo – Neçə aydı yazmırdı,
Gözləyirdim haçandan....

NƏQARƏT

XOR - Can, ay can, ay can, ay can!
Can, ay can, ay can, ay can!

SOLO – Bu yayı nənəmgildə
XOR - Can, ay can, ay can, ay can!
SOLO – Gedib, dincələcəyəm;
XOR - Can, ay can, ay can, ay can!
SOLO – Meşələri, dağları,
Mən gəzib, gələcəyəm...!

NƏQARƏT

SOLO – Orda hələ yolumu
XOR - Can, ay can, ay can, ay can!
SOLO- Dostlarım da gözləyir,
XOR - Can, ay can, ay can, ay can!
SOLO – Bunu nənəm yazdığı
Məktubunda söyləyir...

NƏQAƏRT

SOLO- Nənəmdən məktub gəlib,
XOR - Can, ay can, ay can, ay can!
SOLO- Məktubla sovqat gəlib,
XOR - Can, ay can, ay can, ay can!
SOLO – Oynayır, gülürəm,
Səhərdən axşamacan.

NƏQARƏT

XOR - Can, ay can, ay can, ay can!
Can, ay can, ay can, ay can!


Allegro
f
sub.p
Solo
mf
1. Нә-нәм-дән мәк-
туб кә-либ,
f Хор
чан, аj чан, аj
Solo
чан, аj чан!
Хор
Мәк-туб-ла сов- гат кә-либ, чан, аj чан, аj
Solo
чан, аj чан! Не-чә аj-ды јаз-мыр-ды;
көз-лә- јир-дим һа-чан-дан...
f
mf
Не- чә аj-ды јаз-мыр- ды; көз-лә-јир-дим
Хор f(p)
һа-чан- дан... Чан, аj чан, аj
чан, аj чан! Чан, аj чан, аj чан, аj чан!